**SALİDƏ ŞƏRİFOVA**

# SABİR RÜSTƏMXANLI YARADICILIĞININ JANR MÜXTƏLİFLİYİ

**Bakı – "Elm və Təhsil" - 2021**

**Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi Şurasının 28 fevral 2020-ci il tarixli iclasının (02 saylı protokol) qərarı ilə çapa tövsiyə olunmuşdur.**

**Elmi məsləhətçi:** **İsa Əkbər oğlu HƏBİBBƏYLİ**
Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü

**Ön sözün müəllifi:** **Səidə Əfqan qızı ƏLİYEVA**
Azərbaycan Yazıçılar Birliyinin və Rusiya Yazıçılar Birliyinin üzvü

**Rəyçi:** **Tehran Əlişan oğlu MUSTAFAYEV**
Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü

**ŞƏRİFOVA Salidə Şəmməd qızı.**
**Sabir Rüstəmxanlı yaradıcılığının janr müxtəlifliyi. – Bakı, "Elm və Təhsil", 2021. – 116 səh.**

Filologiya elmləri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının professoru Salidə Şərifovanın "Sabir Rüstəmxanlı yaradıcılığının janr müxtəlifliyi" adlı monoqrafiyasında Xalq şairi Sabir Rüstəmxanlının zəngin və əhatəli bədii və elmi yaradıcılığına yeni baxış, yeni yanaşma özünü göstərir. Monoqrafiyada Xalq şairi Sabir Rüstəmxanlı əsərlərinin poetikası və janr xüsusiyyətləri, əsərlərinin janr qarışıqlığı və nəşr edilmiş kitablarının janr müxtəlifliyi, "kiçik həcmli roman"ları və s. aktual nəzəri problemlər təhlil süzgəcindən keçirilir.

**ISBN 978-9952-8392-0-3**

**© Salidə ŞƏRİFOVA, 2021**

# *M Ü N D Ə R İ C A T*

**Ön söz - Səidə Əliyeva. Sabir Rüstəmxanlı yaradıcılığı yeni təfəkkür hadisəsi kimi..........................................................................4**

**Giriş.............................................................................................11**

**I fəsil Sabir Rüstəmxanlı yaradıcılığının janr müxtəlifliyi və xüsusiyyətləri..........................................................................13**

**§ 1 Sabir Rüstəmxanlı yaradıcılığında janr qarışıqlığı..................13**

**§ 2 Sabir Rüstəmxanlının nəşr edilmiş kitablarının janr müxtəlifliyi..........................................................................17**

**II fəsil Sabir Rüstəmxanlı yaradıcılığında publisistika və elmi janrlar..........................................................................20**

**§ 1 Sabir Rüstəmxanlının bədii publisistikası.................................20**

**§ 2 Sabir Rüstəmxanlının elmi publisistikası.................................26**

**§ 3 Sabir Rüstəmxanlı publisistikasında epistolyar janra müraciət..........................................................................31**

**§ 4 Sabir Rüstəmxanlı yaradıcılığında elmi tədqiqatlar...............35**

**III fəsil Sabir Rüstəmxanlı nəsrinin problematikası, janr müxtəlifliyi və xüsusiyyətləri..........................................................40**

**§ 1 Sabir Rüstəmxanlı nəsrində kiçik janr formaları...................40**

**§ 2 S. Rüstəmxanlı yaradıcılığında “kiçik həcmli roman”lar........45**

**§ 3 Sabir Rüstəmxanlı nəsrində böyük janr formaları.................51**

**§ 4 Sabir Rüstəmxanlı romanlarında sənədlilik............................60**

**§ 5 Sabir Rüstəmxanlı romanlarında mifoloji amillərin əksi........63**

**§ 6 Sabir Rüstəmxanlı romanlarında fantastik amillərin əksi......66**

**IV fəsil Sabir Rüstəmxanlı nəzminin problematikası, janr müxtəlifliyi və xüsusiyyətləri..........................................................70**

**§ 1 Sabir Rüstəmxanlı yaradıcılığında kiçik nəzm formaları.......70**

**§ 2 Sabir Rüstəmxanlının poemaları.............................................82**

**§ 3 Sabir Rüstəmxanlı nəzmində xalq yaradıcılığına müraciət....89**

**§ 4 Orta əsr Azərbaycan ədəbiyyatında formalaşan janrlara müraciət..........................................................................92**

**§ 5 Sabir Rüstəmxanlı yaradıcılığında sərbəst şeir şəkli..............95**

**V fəsil Sabir Rüstəmxanlının dram yaradıcılığı...................103**

**§ 1 Sabir Rüstəmxanlının dram əsərlərinin problematikası, təsvir üslubları və dil xüsusiyyətləri.......................................................103**

**§ 2 Sabir Rüstəmxanlının dram əsərlərinin obrazları.................107**

**Nəticə...........................................................................................110**

**İstifadə olunmuş ədəbiyyat......................................................112**

## SABİR RÜSTƏMXANLI YARADICILIĞI YENİ TƏFƏKKÜR HADİSƏSİ KİMİ

Filologiya elmləri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının professoru Salidə Şərifovanın "Sabir Rüstəmxanlı yaradıcılığının janr müxtəlifliyi" adlı monoqrafiyasının Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi Şurasının 28 fevral 2020-ci il tarixli iclasının (02 saylı protokol) qərarı ilə çapa tövsiyə olunması monoqrafik tədqiqatın əhəmiyyətinin elmi təsdiqidir. Monoqrafiyanın elmi məsləhətçisi Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü İsa Əkbər oğlu Həbibbəyli, rəyçisi Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Tehran Əlişanoğlu (Tehran Əlişan oğlu Mustafayev) kimi elmdə sözlərini deməyə nail ola bilmiş şəxsiyyətlərdir.

AMEA-nın professoru Salidə Şərifovanın "Sabir Rüstəmxanlı yaradıcılığının janr müxtəlifliyi" adlı monoqrafiyası Azərbaycan milli ədəbiyyatını lirik-epik şeirləri, poemaları, romanları, povestləri, hekayələri, pyesləri, bədii, sənədli və cizgi filmlərin ssenariləri, elmi tədqiqatı, bədii və elmi publisistik məqalələri, müxtəlif çıxış və müsahibələri ilə zənginləşdirmiş Xalq şairi Sabir Rüstəmxanlı yaradıcılığını tam şəkildə əhatə edir. Sabir Rüstəmxanlı yaradıcılığına həsr edilmiş bu fundamental kitabda yazarın bədii və elmi yaradıcılığına yeni baxış, yeni yanaşma özünü göstərir.

Ədəbiyyatşünas Salidə Şərifova Xalq şairi Sabir Rüstəmxanlının zəngin və əhatəli yaradıcılığının janr müxtəlifliyini və xüsusiyyətlərini tədqiq edir, ədibin yaradıcılığında janr qarışıqlığı və nəşr edilmiş kitablarının janr müxtəlifliyinə nəzər salır. Müəllif Sabir Rüstəmxanlı yaradıcılığında janr qarışıqlığının özünü müxtəlif aspektdən göstərməsinə toxunur. Salidə Şərifova Sabir Rüstəmxanlı yaradıcılığında janr qarışıqlığının müxtəlif xarakter daşımasına toxunaraq, ədibin yaradıcılığında ədəbi nümunələrin iştirak etmə xüsusiyyətindən və janrlarla qarışıqlı əla-

qəsindən asılı olaraq, qarışıqlığın növlərarası, növlərdaxili və janrdaxili qarışıqlıq kimi üç formasının özünü göstərməsini diqqətlə araşdıraraq, obyektiv nəticələrə gəlir. Salidə Şərifova S. Rüstəmxanlının romanlarında növlərdaxili qarışıqlıq özünü göstərməsini qələmə alır. Məsələn, yazarın qələmə aldığı əsərlərdə növlərdaxili qarışıqlıq romanın mifologiya ilə qarışıqlığında özünü göstərməsini, roman-mifin "türkdilli xalqların müasir problemləri haqqında" maraqlı nümunəsi olan "Göy Tanrı" roman-mifin yaratmasını əsas xüsusiyyət kimi təbliğ etməsi müəllif tərəfindən vurğulanır. Salidə Şərifova yazarın çap olunmuş kitablarının publisistika və elmi janrlar, epistolyar və nəsr janrları, müxtəlif janr və növlərin bir-birinə qarışmasına aydınlıq gətirir, "Xalqın söz silahı" kitabında elmi tədqiqat işi və publisistikanın, "Dərdə əyilmə" kitabında müxtəlif janrda qələmə alınmış nümunələrin, "Atamın ruhu" kitabında povest, pyes və hekayələrin, "Astar" kitabında "balaca roman"lar və hekayələrin yer almasına toxunur.

Salidə Şərifova Sabir Rüstəmxanlının yaradıcılığında publisistika və elmi janrları, elmi tədqiqatları tədqiqat obyektinə çevirir. Müəllif yazarın yaradıcılığında özünü göstərmiş bədii və elmi publisistikanı, epistolyar janra müraciət etməsini, ədibin elmi tədqiqatlarını da nəzərdən keçirərək elmi dəyərini verməyə nail ola bilir. Müəllif Sabir Rüstəmxanlının publisistikasını bədii və elmi publisistikalar baxımından tədqiq edir, mövzu və problemlərinin ədəbiyyat və incəsənətlə, sosial-siyasi və ictimai məsələlərlə bağlı olmasına, tarixin keçmiş səhifəsindən tutmuş çağdaş dövrün problemləri ilə səsləşə bilməsini bütün aydınlığı ilə təsdiq edə bilir. Salidə Şərifova Sabir Rüstəmxanlı publisistikasının sinkretik xarakter daşımasına və yazarın publisist əsərlərində janr qarışıqlığını sənədli janrlarla qarışıqlıqda daha çox özünü büruzə verməsini açıqlayır. Müəllif S. Rüstəmxanlının bədii və elmi publisistikasını fərqləndirən əsas cəhətlərdən biri kimi üslubları arasındakı fərqlilikləri göstərir. Salidə Şərifova Sabir Rüstəmxanlının elmi publisistikasının təsvir üslubları və dil xüsusiyyətlərinin bədii publisistikasının təsvir üslubları və dil xü-

susiyyətlərindən fərqlənməsi amilini ədəbiyyatşünas kimi müəyyən məsələlərini təhlil edərək qabartmağa nail ola bilir.

Sabir Rüstəmxanlının publisistikasında epistolyar janra müraciət etməsini Salidə Şərifova monoqrafiyanın tədqiq obyektinə çevirə bilir. Sabir Rüstəmxanlının "Milli taleyimiz və biz" əsərini geniş tədqiqata cəlb edən filologiya elmləri doktoru Salidə Şərifova ədibin müasirlərilə məktublaşmalarına geniş elmi münasibətini meydana çıxarır.

Qeyd etmək lazımdır ki, Sabir Rüstəmxanlının elmi tədqiqat aparması, filologiya elmləri namizədi elmi dərəcəsinə yiyələnmək üçün 1976-cı ildə ""Molla Nəsrəddin" və folklor" mövzusunda dissertasiya müdafiə etməsi məlum faktdır. Salidə Şərifova ədibin yaradıcılığında elmi tədqiqat aparmasını və müdafiə üçün irəli sürdüyü elmi müddəaların və nəticələrin məcmusunu əhatə edən ""Molla Nəsrəddin" və folklor" elmi tədqiqat işinin "Cəlil Məmmədquluzadə, Molla Nəsrəddin və folklor" adı ilə nəşr edilərək "Xalqın söz silahı" kitabında ictimaiyyətə təqdim etməsini diqqətə çatdırır, kitabda əksini tapmış "Molla Nəsrəddin" və folklor" elmi tədqiqatının ayrıca kitab şəklində nəşrini məqsədəuyğun hesab edir. Salidə Şərifova "Cəlil Məmmədquluzadə, Molla Nəsrəddin və folklor" adlı tədqiqatda maraqlı və mübahisə doğuran fikirlərin əksini tapmasını vurğulayır. Monoqrafiyada müəllif Sabir Rüstəmxanlının şifahi xalq ədəbiyyatına, əsasən, xalq bayatılarına və s. münasibətinə aydınlıq gətirir, bədii yaradıcılığı ilə elmi yaradıcılığı ustalıqla əlaqələndirilir.

Salidə Şərifova Sabir Rüstəmxanlı nəsrinin problematikası, janr müxtəlifliyi və xüsusiyyətlərini araşdırarkən, ədibin nəsrində kiçik janr formaları, "kiçik həcmli roman"ları, böyük janr formaları, həmçinin yazıçının qələmə almış olduğu romanlarında sənədlilik, mifoloji və fantastik amillərin əksinə diqqət yetirir. Sabir Rüstəmxanlının qələmə almış olduğu romanlarında sənədliliyə və mifoloji təfəkkürə üstünlük verməsi Salidə Şərifova tərəfindən hərtərəfli şərh edilir.

Müəllif Sabir Rüstəmxanlının nəsrində kiçik janr formaları kimi povest və hekayələri bədii yaradıcılığın daxili məzmunun-

dan çıxış edərək, problematika və janr baxımından geniş təhlil edir. S. Şərifova ədibin povest və hekayə janrlarında qələmə alınmış bədii nümunələrində təsvir olunan hadisələrin real həyat materiallarına əsaslanmasını, hadisələrin məhdud zaman və məkan çərçivəsində əks edilməsini qeyd edir.

Sabir Rüstəmxanlının yaradıcılığında maraq doğuran məqamlardan biri müəllifin yaradıcılığında "balaca romanlar"a üstünlük verməsidir. Sabir Rüstəmxanlının "balaca romanlar"ında əsərin ideyasını, məzmununu, süjetini, münaqişəsini qısa şəkildə əks etdirə bilir. Müəllif Sabir Rüstəmxanlının "Astar" kitabına daxil edilən romanlarla Azərbaycan ədəbiyyatında özünü göstərmiş "balaca romanlar" janrının ənənəsini davam etdirməsini qeyd edir. Salidə Şərifova "balaca romanlar"ın əsl sosial gündəlik romanlar olmamasına toxunaraq, ideoloji əhəmiyyətli problemləri və insan həyatından olan aktual problemləri əks etdirə bilməsini göstərir. Salidə Şərifova Sabir Rüstəmxanlının "balaca romanlar"ının problematikasında cəmiyyətdə çətinliklərlə üzləşən insanlara yardım əlinin uzadılmaması, insanların daima üzləşdikləri sosial problemləri əhatə etməsini göstərə bilir.

Salidə Şərifova Sabir Rüstəmxanlının yaradıcılığında aktuallıq kəsb edən məsələlərə də toxunaraq, xüsusi olaraq, ədibin yaradıcılığında romanın sənədli janrlarla qarışıqlığına nəzər salır. Müəllif Sabir Rüstəmxanlı yaradıcılığında romanın sənədli janrlarla qarışıqlığı zamanı romanın janr əlamətlərinin transformasiyaya uğramasına və yeni roman tiplərinin yaranmasına gətirən sənədli janrların nüfuz etmə formalarına rast gəlinməsini göstərir. S. Rüstəmxanlının yaradıcılığında bədii, sənədli və tarixi janrların qarışıqlığı kimi "Difai fədailəri" sənədli-tarixi roman, həm tarixi faktların, həm də bədiiliyin əsas tutulmasını əks etdirən "Şair və Şər" romanı bioqrafik roman nümunələri kimi tədqiq edilir.

Sabir Rüstəmxanlı romanlarında mifoloji və fantastik amillərin əksinin Salidə Şərifova tərəfindən tədqiq edilməsi elmi maraq kəsb edir. Yazarın romanlarında mifoloji düşüncənin keçmiş dövrlə müasir dövr arasında yaddaş körpüsü funksiyasını yerinə

yetirilməsi Salidə Şərifova tərəfindən vurğulanır. Müəllif Sabir Rüstəmxanlının mifologizmə müraciət etməsilə təsvir etdiyi hadisələrə mif adı altında üstüörtülü müəllif yanaşmasını bildirməsinə də toxunur. Salidə Şərifova onu da xüsusi olaraq vurğulayır ki, Sabir Rüstəmxanlı mifologiyaya müraciət edərkən janr qarışıqlığına müraciət edir, bununla belə mifik formaların saxlanılması fonunda ənənəvi semantikanı olduğu kimi saxlamağa nail ola bilir. Bu da ilk növbədə, yazıçı təcrübəsinin ustalığının nəticəsidir. Sabir Rüstəmxanlı bir yazar kimi "Göy Tanrı" romanında roman janrının mifologiya ilə qarışıqlığı kimi roman-mifin gözəl nümunəsini yaratması Salidə Şərifova tərəfindən göstərilir.

Salidə Şərifova Sabir Rüstəmxanlının yaradıcılığında janrdaxili qarışıqlıqda "törəmə" janrların elementlərinin nüfuz etməsini özünü göstərməsi, məhz janrdaxili qarışıqlığında müxtəlif növ roman elementlərinin birləşməsini əhatə etməsindən meydana çıxmış "Sunami" romanında roman-sərgüzəştin və elmi romanın elementlərinin özünü göstərməsini açıqlaması elmi maraq kəsb edir.

Filologiya elmləri doktoru Salidə Şərifova xalqın ağrı-acısını təsvir etməyə nail olan ədibin yaradıcılığında xüsusi yer tutan nəzminin problematikasına, janr müxtəlifliyinə və xüsusiyyətlərinə aydınlıq gətirir, kiçik nəzm formalarına, poemalarına, həmçinin nəzmində xalq yaradıcılığına və Orta əsr Azərbaycan ədəbiyyatında formalaşan janrlara müraciət etməsinə, sərbəst şeir şəklindən istifadə etməsi öz təhlilini tapa bilir. Salidə Şərifova Sabir Rüstəmxanlının istifadə etdiyi kiçik nəzm formalarının ən qabarıq poetika xüsusiyyətlərini incəliklə təhlil edir. "Sabir Rüstəmxanlı yaradıcılığının janr müxtəlifliyi" kitabında S. Rüstəmxanlının şeirdə ahəng yaradan ahəng, ölçü, qafiyə, bölgü, rədif kimi nəzm əlamətlərindən ustalıqla istifadə etməsinin incəliklə açıqlanması diqqətdən yayınmır.

Monoqrafiyada Sabir Rüstəmxanlı şeirinin vəzni, rədifi və qafiyəsi barədə Salidə Şərifovanın irəli sürmüş olduğu elmi mülahizələri diqqəti cəlb edir. Salidə Şərifovanın ədibin nəzmdə məharətlə qafiyə və qafiyənin növlərindən, rədifdən və s. istifa-

də etməsini bədii nümunələrlə açıqlayır, şairin poetik yaradıcılığını incəliklə müəyyənləşdirir.

Salidə Şərifova Sabir Rüstəmxanlının poetik nümunələrində şeirin texnikası, arxitektonikası barədə aydın təsəvvür yaradır, bədii dilin tərkib hissələri, təsvir və ifadə vasitələrindən də məharətlə istifadə etməsini açıqlayır. Şairin epitet, təşbeh, metafora, metonimiya, simvol kimi bədii təsvir vasitələrindən, bədii sual, bədii təzad, təkrir, kinayə, mübaliğə, lilota, inversiya kimi sintaktik fiqurlardan məharətlə istifadə etməsinin bədii nümunələrlə aydın qənaət yaradır.

Müasir ədəbiyyatın və ədəbiyyat nəzəriyyəsinin gözəl bilicisi olan Salidə Şərifova Sabir Rüstəmxanlı yaradıcılığında şifahi xalq ədəbiyyatını müxtəlif janrlarına, həmçinin də Orta əsr Azərbaycan ədəbiyyatında formalaşan janrlara müraciət etməsi, gəraylılar, qoşmalar, qəsidə, mərsiyə, müxəmməs qələmə alması faktına da aydınlıq gətirir. Bu Sabir Rüstəmxanlının həm müasir, həm də ədəbi tərəqqinin inkişaf mərhələlərində təkmilləşən şifahi xalq və yazılı ədəbiyyatını dərindən bilməsinin göstəricisidir.

Salidə Şərifova Sabir Rüstəmxanlının sərbəst şeir formasında qələmə almış olduğu poetik nümunələrinin də maraq kəsb etməsinə toxunur, mövzu baxımdan da aktual problemləri əks etdirməsini tam aydınlığı ilə işıqlandırır. Salidə Şərifova Sabir Rüstəmxanlının sərbəst şeir formasında qələmə aldığı şeirlərində monoloq və ya dialoqlardan istifadə etməsi məqamına da toxunur.

S. Şərifova Sabir Rüstəmxanlının dram yaradıcılığının orijinal cəhətlərini işıqlandırmağa səy göstərir. Salidə Şərifova "Sabir Rüstəmxanlı yaradıcılığının janr müxtəlifliyi" kitabında Sabir Rüstəmxanlının dram yaradıcılığına xüsusi diqqət yetirir. Müəllif Sabir Rüstəmxanlının dram əsərlərinin problematikası, təsvir üslubları və dil xüsusiyyətlərini araşdırır, ədibin dram əsərlərinin obrazlarını şərh edir. Salidə Şərifova kitabda ədibin dram əsərlərinin problematikası, təsvir üslubları və dil xüsusiyyətlərini nəzərdən keçirir, ədibin qələmə almış olduğu pyeslərin,

bədii, sənədli və cizgi filmlərinin ssenarilərinin mövzu və problematikasının müxtəlifliyinə diqqəti yönəldə bilir.

Ədəbiyyat nəzəriyyəçisi, ədəbiyyatşünas alim, filologiya elmləri doktoru, AMEA-nın professoru Salidə Şərifovanın "Sabir Rüstəmxanlı yaradıcılığının janr müxtəlifliyi" kitabı elm sahəsində, konkret olaraq, Xalq şairi Sabir Rüstəmxanlının yaradıcılığını ədəbiyyat nəzəriyyəsi baxımından tədqiq edilməsi sahəsində ilkə imza atdı. AMEA-nın professoru Salidə Şərifovanın Sabir Rüstəmxanlı haqqında orijinal tədqiqatı ədəbiyyatşünaslıq elmimiz üçün qiymətli töhfə olmaqla yanaşı, yazarın qələmə aldığı əsərlərin poetikası və janr xüsusiyyətlərini, ədibin özü haqqında mühüm konsepsiyaları ifadə edərək cəmiyyətə təqdim edə bilir. AMEA-nın professoru Salidə Şərifovanın "Sabir Rüstəmxanlı yaradıcılığının janr müxtəlifliyi" kitabı Azərbaycan ədəbiyyatşünaslığının inkişafında, Azərbaycan nəzəriyyəsinin yeniləşməsində əhəmiyyət kəsb edən monoqrafik tədqiqat kimi ədəbiyyat tarixində iz qoyacaq.

**Səidə ƏLİYEVA**
*Azərbaycan Yazıçılar Birliyinin üzvü,*
*Rusiya Yazıçılar Birliyinin üzvü,*
*AYB-nin birillik Prezident təqaüdçüsü (2017-2018)*

# GİRİŞ

Xalq şairi Sabir Rüstəmxanlı yaradıcılığı XXI əsrə daxil olan, milli olduğu qədər bəşəri olan Azərbaycan ədəbiyyatının ötən əsrlər boyu əldə edilmiş nailiyyətləri zənginləşdirən yaradıcılıqdır. Sabir Rüstəmxanlının bədii yaradıcılığı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən yüksək qiymətləndirilmişdir. S. Rüstəmxanlı 2005-ci ildə ölkə prezidentinin sərəncamı ilə "Azərbaycan Respublikasının Xalq Şairi" fəxri adına layiq görülmüşdür.

Sabir Rüstəmxanlı yaradıcılığı zəngin və əhatəlidir. S. Rüstəmxanlı lirik-epik şeirlərin, poemaların, romanların, povestlərin, hekayələrin, pyeslərin, bədii, sənədli və cizgi filmlərin ssenarilərinin, elmi tədqiqatın, bədii və elmi publisistik məqalələrin, müxtəlif çıxış və müsahibələrin müəllifidir. Azərbaycan xalqının azadlıq mübarizəli tarixi yolu və müasirliyini oxucuya çatdıran, xalqın, millətin ağrı-acısını təsvir edən, milli ənənələrə qayıdış və s. aktual problemləri özündə əks etdirən həmin əsərlər ədibin yaradıcılığının janr baxımından müxtəlifliyini göstərir. S. Rüstəmxanlının "...müxtəlif yaradıcılıq formalarında özünüifadəsi, hər şeydən əvvəl, vətəndaş mövqeyindən güc alır." [5, s. 15] Sabir Rüstəmxanlının yaradıcılığını mütaliə etdikcə, onun bir ziyalı kimi Azərbaycan ədəbiyyatının ənənələri və inkişaf tarixi ilə dərindən tanış olduğunu müşahidə edirik. Sabir Rüstəmxanlının Azərbaycan xalqının azadlıq mübarizəli tarixi yolu və müasirliyini oxucuya çatdıran "Orxanla görüş", "Atəş böcəyi", "Azərbaycan irticası", "Cavad xan", "Vətənsiz", "Bütövlük", "Didərginlər" və s. poemaları, xalqın, millətin ağrı-acısını təsvir edən "Acı xatirə", "İnansa Təbriz deyil!", "20 Yanvar xatirəsi", "Xocalıdan sonra" və s. poetik nümunələri, "Yardımlıya dönərkən", "Son", "Neyləyim", "Qorusun", "Dözüm", "Gözünü yumdunmu", "Güvənmirəm", "Yumruqlar çiçək açıb", "Tapşır məni", "Gizlət məni", "Vida qabağı", "Çəkdim sinəmə tüstütək" və digər poetik nümunələrində milli ənənələrə qayıdış, folklor şeir

formalarına müraciət, “Göy Tanrı”, “Ölüm zirvəsi”, “Difai fədailəri”, “Sunami”, “Şair və Şər”, “Akademikin son əsəri” kimi roman nümunələri, “Tanımaq istəsən”, “Xəbər gözləyirəm”, “Gəncə qapısı”, “Sağ ol, ana dilim!”, “Qan yaddaşı”, “Zaman məndən keçir” kimi şeir kitablarının, “Astar” kitabında əksini tapmış hekayə nümunələri, epistolyar məktublardan ibarət “Milli taleyimiz və biz” (Güntay Gəncalp Bayandırlı və Saleh Məhmətlə məktublaşmalarım), “Ömür kitabı”, “Atamın ruhu”, “Xətai yurdu”, “Bu sənin xalqındır” və s. əsərlər ədibin yaradıcılığının janr baxımından zəngin olmasının göstəricisidir.

# I FƏSİL

## SABİR RÜSTƏMXANLI YARADICILIĞININ JANR MÜXTƏLİFLİYİ VƏ XÜSUSİYYƏTLƏRİ

### I. 1 Sabir Rüstəmxanlı yaradıcılığında janr qarışıqlığı

Sabir Rüstəmxanlı yaradıcılığında janr qarışıqlığı müxtəlif xarakter daşıması ilə diqqəti cəlb edir. Ədibin yaradıcılığında ədəbi nümunələrin iştirak etmə xüsusiyyəti və janrlarla qarışıqlı əlaqəsindən asılı olaraq, qarışıqlığın üç forması özünü göstərmişdir: növlərarası, növlərdaxili və janrdaxili qarışıqlıq. Sabir Rüstəmxanlı epik növ və ona məxsus janrlardan sərbəst və qarışıq şəkildə istifadə etməsi, maraqlı janr qarışıqlığında bədii nümunələr yaratması ilə diqqəti cəlb edir. Məsələn, ədib müraciət etdiyi roman janrında daha çox sənədliliyə və mifoloji təfəkkürə üstünlük vermişdir. Müəllifin məhz sənədli janrlara, mifologiyaya, reallıqla irreallığa müraciət etməsi roman janrının tarixi roman, bioqrafik roman, roman-mif və s. kimi roman növlərinin yaranmasına səbəb olmuşdur. Sabir Rüstəmxanlının sənədli janrlara, mifologiyaya, reallıqla irreallığa müraciət etməsi təsadüfi xarakter daşımır. Ədib öz fikir və ideyalarını ətraflı şəkildə geniş həcm imkanına malik olan roman janrında ifadə edə bilmiş və roman janrının müxtəlif janr qarışıqlığında nümunələrini yaratmışdır. Sabir Rüstəmxanlının nəzm yaradıcılığında müasir poeziya formaları ilə yanaşı, ədibin Orta əsr janr formalarından, həmçinin sərbəst şeir şəklində poetik nümunələri, xalq yaradıcılığına müraciəti də diqqəti cəlb edir. S. Rüstəmxanlının publisistikasında janr qarışıqlığı, bədii və elmi üslubların, bədiiliklə sə-

nədliliyin qarışıqlığı nəticəsində bədii və elmi publisist nümunələr yaratmasında özünü büruzə vermişdir.

Sabir Rüstəmxanlının yaradıcılığında növdaxili janr qarışıqlığına müraciət aktuallıq kəsb edir. Məsələn, romanda janr "saf"-lığının əldə edilməsinin qeyri-mümkünlüyü müəllifin romanlarının müxtəlif janr qarışıqlığının formalaşmasına imkan vermişdir. Qeyd etməliyik ki, roman janrı sinkretik xarakter daşıyır, həmçinin yazıçı - roman müəllifi çox hallarda novator və tənqidçi rolunda çıxış edir. Romanda növdaxili janr qarışıqlığı zamanı nəsr janrlarının xüsusiyyətlərinin daxil edilməsini, o cümlədən romanın epik başlanğıcını nəzərə almaqla, folklor və mifoloji janr elementlərinin daxil edilməsini müşahidə edirik. Sabir Rüstəmxanlının romanlarında növlərdaxili qarışıqlıq özünü romanın mifologiya ilə qarışıqlığında göstərmişdir. Qeyd etməliyik ki, müasir Azərbaycan ədəbiyyatında mifoloji roman roman-mif, həm də roman-antimif kimi təqdim olunur.

Azərbaycan bədii söz sənətində roman-mifin maraqlı nümunəsi olan Sabir Rüstəmxanlının "Göy Tanrı" roman-mifin süjeti bizi türk xaqanlarının idarə etdiyi dövrə, təkallahlığın din kimi çiçəklənməsi dövrünə aparır. S. Rüstəmxanlı qədim türk mifologiyasını və yazılı mənbələri (o cümlədən, Orxon-Yenisey abidələri) istifadə etməklə, müasir türk dünyası qarşısında duran mifik keçmişlə bağlı suallara cavab axtarır. "Göy Tanrı" – neomifoloji bədii məkanda öz əksini tapmış türkdilli xalqların müasir problemləri haqqında olan bir əsərdir. Mifologizmin əsərdə toxunulan problemlərin daha dərin əks etdirməsi Sabir Rüstəmxanlıya imkan yaradır ki, varlığın "əbədi" problemlərin açıqlaması üçün mühüm alətlərindən biri kimi çıxış etsin. Dərin fəlsəfi–dini düşüncələrə sövq edən "Göy Tanrı" əsərində mif əsərin janr quruluşuna təsir etmir, əksinə romanın ideoloji ruhunu çatdırmağa nail ola bilir.

"Göy Tanrı" romanında mif romanda yalnız mikrosüjet kimi deyil, həm də bütövlükdə əsərin süjet xəttinin əsasını təşkil edə bilmişdir. Əsərin süjet xətti türk xaqanlarının idarə etdiyi dövrü, təkallahlığın din kimi çiçəklənməsi dövrünü əks etdirir. Mifin

bütünlükdə əsərin süjet əsasını təşkil edə bilməsi, əsəri roman-mif olmasını təsdiq edir. Sabir Rüstəmxanlı "Göy Tanrı" roman-mifində ilk mifoloji arxetiplərin poetik rekonstruksiyası məqsədi ilə müxtəlif mifoloji ənənələrdən sinkretik şəkildə istifadə edə bilmişdir. Əsərin roman-mif kimi təqdim edilməsi də romanın növlərarası janr qarışıqlığına dəlalət edir. Bəşər mədəniyyətinin başlanğıc nöqtəsi olan mifologiyaya müraciət etmiş Sabir Rüstəmxanlının "Göy Tanrı" roman-mifi xalqın tarixi inkişafını izləməyə imkan verir.

Romanın semantik nüvəsinin çoxsəviyyəli strukturu əsərə digər janrların elementlərini daxil etməyə geniş imkanlar yaradır. Roman və epik başlanğıcların nisbi və qarşılıqlı əlaqəsi müxtəlif roman növlərinin subyektiv və obyektiv səviyyələrində fərqlidir. Bu janr konstruksiyalarının variativ xarakter daşımasına gətirib çıxarır. Buna baxmayaraq, romanda əsas mövqe tutan bədii təsvir və təhkiyə üsulları dəyişməz qalır. Məsələn, romanda janr qarışıqlığının üç əsas forması mövcuddur. Birinci halda, romana başqa növlərin elementləri daxil edilir - bu halda da növlərarası janr qarışıqlığı baş verir. Növlərarası janr qarışıqlığına şərti olaraq romana qeyri-bədii nəsrin elementlərinin daxil edilməsini də aid etmək olar. İkincisi, romana nəsrin digər janrlarının elementləri daxil edilə bilər. Həmin halda növlərdaxili janr qarışıqlığı baş verir. Romanda növlərarası janr qarışıqlığı aşağı və ali janrların qarışıqlığına gətirib çıxarır. Üçüncüsü, janrdaxili qarışıqlıqdır ki, müxtəlif roman növlərinin əlamətlərini əhatə edir.

Sabir Rüstəmxanlının "Xətai yurdu" əsəri roman-oçerk nümunəsi kimi maraq kəsb edir. Müəllif özü "Xətai yurdu" əsərini xatirə-roman kimi təqdim etmişdir. Sabir Rüstəmxanlının təqdim etdiyi şəkildə qəbul etdikdə əsər memuar janrında qələmə alınmış bədii əsər kimi dəyərlidir. "Xətai yurdu" əsərinin janr baxımından təqdimi də mübahisəli məqam kimi diqqəti cəlb etməkdədir. Əsəri şərti olaraq xatirə-romanı adlandıran kitab müəllifin yaşadığı və şahidi olduğu tarixi hadisələri fonunda qələmə alınmışdır. Hadisələrin XX əsrin 80-ci illərin ortalarında

cərəyan etmiş tarixi hadisələrə müəllif mövqeyi çətin və məsuliyyətli olması ilə diqqəti cəlb edir. Lakin bədii oçerk nümunələrini özündə əxz etdirən "Xətai yurdu" əsərində bədii reallığın formalaşması tipik hadisə və səhnələrin bədii təsvir vasitəsi ilə həyata keçirilir. Bu xüsusiyyət də roman-oçerklərə xasdır. Roman-oçerkin təsviredici xarakter daşıması onun kompozisiya quruluşuna təsir edir. Roman-oçerkdə hadisələrin təsviri ilə yanaşı bədii mətnə publisistik mühakimələr, elmi ümumiləşdirmələr, bəzən statistik material daxil edilir. Eyni zamanda, roman-oçerkə elmi-tədqiqatçılıq xas deyil. Struktur baxımından roman-oçerk bölmələrindən ibarət olan bədii əsəri təqdim edir ki, bu da bu növ romanı silsilə hekayələrə yaxınlaşdırır. Bütün bu xüsusiyyətlər özünü ədibin XIV bölümdən ibarət "Xətai yurdu" əsərində əks etdirir. Ədəbiyyatşünaslıqda xatirə -roman kimi qəbul edilməkdə olan "Xətai yurdu" əsəri roman-oçerk nümunəsidir. Azərbaycan Xalq şairi Sabir Rüstəmxanlının "Xətai yurdu" əsərində dövrün ictimai-siyasi proses və ümumxalq mübarizəsi əsərin əsas süjet xəttini təşkil edir. Əsər müəllif təhkiyəsi ilə nəql edilir, əsərin də qəhrəmanı məhz təhkiyəçi-qəhrəmandır.

Qeyd etmək lazımdır ki, romanın publisistik janrlarla qarışıqlığı bir qrup romanların yaranmasına gətirib çıxarır, o cümlədən epistolyar roman, roman-esse, roman-oçerk, roman-reportaj, roman-müsahibə, roman-etiraf roman-pamflet və s. Bu roman növlərini şərti olaraq publisistik roman adlandırmaq olar. A.Q. Boçarov publisistik roman adı altında elə tip romanı anlamağı təklif edir ki, onda "publisistika romanın bütün bədii mahiyyətinə nüfuz edir, romanın süjeti, obrazları, detalları üzərində üstünlük təşkil edir". [32, s. 93]

S. Rüstəmxanlının nəzmində də növlərarası janr qarışıqlığı müşahidə edilir. Akademik İsa Həbibbəyli Sabir Rüstəmxanlı poeziyasında publisist notların daxil edilməsi amilinin olması faktını qabardaraq qeyd etmişdir ki, "şeirin ictimai mahiyyət kəsb etdiyi belə məqamlarda Sabir Rüstəmxanlı poeziyasına publisist notlar daxil olur. İlk baxışda lirika ilə publisistikanın yanaşı işlənilməsi qəribə görünür. Əslində lirikada publisist not-

ların işlədilməsi şairin şeirlərinin müasirlik və aktuallığına meydan açmışdır”. [10, s. 227]

Akademik İsa Həbibbəyli Sabir Rüstəmxanlının Səttar Bəhlulzadə haqqında yazdığı “Səttar Bəhlulzadə küçəsi haqqında şəhər sovetinə açıq məktub”, həmçinin “Şəhər sovetinə ikinci məktub” şeirlərində publisist əlamətlər olması amilinə toxunmuşdur: ““Səttar Bəhlulzadə küçəsi haqqında şəhər sovetinə açıq məktub” dan bir qədər sonra yazılmış “Şəhər sovetinə ikinci məktub”da “şəhər yiyəsi”nin diqqəti şəhərsalmanın müasir problemlərinə yönəldilmişdir. Bu şeirlərdə publisist əlamətlər bədii nümunənin vətəndaşlıq kəsərini qüvvətləndirməyə xidmət göstərmişdir.” [10, s. 227] Sabir Rüstəmxanlının Səttar Bəhlulzadə haqqında yazdığı “Səttar Bəhlulzadə küçəsi haqqında şəhər sovetinə açıq məktub” şeirində böyük rəssama olan laqeydliklə bərabər ictimai-siyasi problemlər, şəhərsalma problemləri əksini tapmışdır:

Paslı, qara dəmirdən
yamaq-yamaq hasarlar
Gecəqondu evlərin
çirkab suları,
Divarların dibində
tüstülənən zibillik,
Köhnə ayaqqabılar,
konserv qutuları...
Səttar Bəhlulzadənin
adınadır bu küçə!

## I. 2 Sabir Rüstəmxanlının nəşr edilmiş kitablarının janr müxtəlifliyi

Sabir Rüstəmxanlı yaradıcılığında janr qarışıqlığı özünü müxtəlif aspektdən göstərmişdir. Ədibin yaradıcılığında janr qarışıqlığı onun qələmə aldığı ayrı-ayrı əsərlərin janrında (tarixi roman, bioqrafik roman, roman-mif və s.), həmçinin də müxtəlif

ədəbi növ və janrlarda qələmə alınmış kitablarında müşahidə edilir. Ədibin çap olunmuş kitabları publisistika və elmi janrlar, epistolyar və nəsr janrları, müxtəlif janr və növlərin bir-birinə qarışması və s. baxımdan maraq kəsb edir. Məsələn, "Xalqın söz silahı" kitabında elmi tədqiqat işi və publisistikanın, "Dərdə əyilmə" kitabında müxtəlif janrda qələmə alınmış nümunələrin, "Atamın ruhu" kitabında povest, pyes və hekayələrin, "Astar" kitabında "balaca roman"lar və hekayələrin yer almasının şahidi oluruq.

Sabir Rüstəmxanlının 2002-ci ildə nəşr edilmiş "Atamın ruhu" kitabında beş povesti, iki pyes və bir neçə hekayəsi, 2018-ci ildə nəşr edilmiş "Astar" kitabında iki romanı və doqquz hekayəsi toplanmışdır. Kitablarda toplanmış bədii nümunələr ilk növbədə diqqəti əsərlərin növ və janrına yönəldir. Məsələn, kitabın adına çıxarılmış "Atamın ruhu" povesti avtobioqrafik xarakter daşıyır. Ədib həyatının son anlarını yaşayan atası Xudu kişinin obrazını əks etdirməklə avtobioqrafik əsər yaratmağa nail olur. Müəllif öz həyatına aid olan faktlar əsasında həmçinin atası Xudu kişinin ölümünü, bir atanın vəsiyyətini qələmə alır. S. Rüstəmxanlı yalnız hafizəsinə deyil, faktlar əsasında yaradıcı surətdə atası Xudu kişinin obrazına və bir sıra sosial, əxlaqi problemlərə nəzər salır. Müəllif özü "Atamın ruhu" kitabında yazılmış əsərlərini gündəlik şəkildə qələmə alınması amilinə toxunmuşdur: "Mənim gündəliklərim qırıq-qırıqdır. Bəzən bir neçə ayın əhəmiyyətsiz işlərini ardıcıllıqla yazmışam. Bəzən də maraqlı hadisələrlə dolu olan bütöv bir il izsiz-tozsuz keçib gedib. Ayrı yazılar adətən, gündəliyi yaddan çıxarır. 1994-cü il haqqında qeydlərim çoxdur və indi onları gözdən keçirəndə atamın xəstəlik tarixinə baxan kimi oluram." Sabir Rüstəmxanlının bu fikirlərindən kitabın müəyyən zaman kəsiyində yaşadığı anların gündəlik şəklində təsvir olunmasına bir daha əmin oluruq. "Atamın ruhu" kitabı publisist və gündəlik şəklində qələmə alınmış, müxtəlif janrların qarışıqlığından yaranmışdır.

S. Rüstəmxanlı "Astar" kitabında müasir zaman müstəvisində tarixi olay və müasiri olduğu dövrün ən mürəkkəb hadisələri-

nin inkişaf prosesini dərk edilməsinə yardımçı ola bilir. "Astar" kitabında əksini tapmış "balaca roman" nümunələri ədəbiyyatımızda ədəbi məktəb açmış N. Nərimanov ədəbi məktəbini davamı kimi qəbul edilməlidir.

Sabir Rüstəmxanlının "Xalqın söz silahı" kitabı janr qarışıqlığı ilə diqqəti cəlb edir. Kitabda müxtəlif mövzularda qələmə alınmış publisist əsərlərlə bərabər, müəllifin filologiya üzrə fəlsəfə doktoru dərəcəsi almaq üçün təqdim etdiyi "Molla Nəsrəddin və folklor" adlı dissertasiya işi də əksini tapmışdır. S. Rüstəmxanlının "Xalqın söz silahı" kitabı, müəllifin elmi tədqiqatı və "Kökümüz, qüdrətimiz" bölümündə əksini tapmış publisist nümunələr elmi tədqiqatla publisistik janrı özündə əks etdirən kitab kimi əhəmiyyət kəsb edir.

Sabir Rüstəmxanlının "Ömür kitabı" əsəri publisist nümunələrdən ibarət kitab kimi diqqəti cəlb edir. Kitabda həyat haqqında həqiqi məlumat vermək məqsədi güdən, faktiki həyat materiallarını sənədlilik əsasında nəsrlə əks etdirən oçerklər həm nəsrlə, həm də nəzmlə qələmə alınmışdır. S. Rüstəmxanlının "Ömür kitabı" əsərində müəllifin qələminə məxsus şeirlərin əksini tapması nəsrlə nəzmin qarışıqlığına dəlalət edir:

Zaman məndən keçir, keçir, durulur,
Ürəyimin əbədi sevgi süzgəci
Sevgi ürəyimdən keçir, durulur.
Günəşin işığı, ayın işığı
Qayğılı gözümdən keçib durulur.

Bu amil ədibin qələmə aldığı digər əsərlərdə də özünü büruzə vermişdir. Məsələn, "Milli taleyimiz və biz" (Güntay Gəncalp Bayandırlı və Saleh Məhmətlə məktublaşmalarım), "Astar" və başqa kitablarında müxtəlif növ və janrlarda qələmə alınmış əsərlər əksini tapmışdır.

# II FƏSİL

## SABİR RÜSTƏMXANLI YARADICILIĞINDA PUBLİSİSTİKA VƏ ELMİ JANRLAR

### II. 1 Sabir Rüstəmxanlının bədii publisistikası

Sabir Rüstəmxanlının bədii publisistikasının mövzu və problemləri ədəbiyyat və incəsənətlə, sosial-siyasi və ictimai məsələlərlə bağlı olmuş, tarixin keçmiş səhifəsindən tutmuş çağdaş dövrün problemləri ilə səsləşə bilmişdir. Müəllif bədii publisistikasında sənət və sənətkar taleyini, milli etnoqrafik mədəni sərvətlərin zənginliyini, mənəvi-əxlaqi dəyərlərin təsvirinə geniş yer ayırmışdır. Sabir Rüstəmxanlı bədii publisistikasının mövzusunda dövrünün tanınmış şəxslərinin həyat və yaradıcılığına subyektivlik mövqeyini bildirmişdir. İstər poeziyadan, atalar sözü və məsəllərdən, rəvayət və digər folklor örnəklərindən istifadə, istərsə də, özündən əvvəlki və müasiri olduğu dövrlərin ədəbiyyat, mədəniyyət və sənət problemlərinin təhlil süzgəcindən keçirilməsi önəmli yer tutmuşdur.

Sabir Rüstəmxanlının azərbaycançılığı, türkçülüyü, dünyəviliyi özündə əxz etdirən bədii publisistikasının problematikasının müxtəlif problemləri əks etdirdiyini müşahidə edirik. Məsələn, "Qadın ruhunun üsyanı..." publisist yazısında gənc yazar Aysel Əlizadənin ədəbi cameədə olmasının obrazını yaratmışdır: "...Aysel Əlizadə imzasını mətbuatdan, xüsusilə "525-ci qəzet"-dəki köşə yazılarından, publisistikasından yaxşı tanıyırdım; istedadlı bir qələm sahibi olduğunu bilirdim. Bu yaxınlarda əlimə düşən şeir və nəsr kitabları onun yaradıcılığı haqqında fikirlərimi bir daha təsdiq etdi və tamamladı." [21] Biz ədibin bu publi-

sist nümunəsində yalnız Aysel Əlizadənin yazıçı portreti ilə deyil, həm də ictimaiyyəti düşündürən bir çox ictimai-siyasi suallara cavab verməsinin də şahidinə çevrilirik: “Dünyanın bütün fəlakətləri, insanın həyatını yarıda qıran, yer kürəsinin cənnət güşələrini cəhənnəmə çevirən müharibələr, inqilablar, dərbələr, qanlı çevirilişlər, ədalətsiz rejimlər kişilərdən çox qadınları incidir, onlara ikiqat, üçqat artıq dərd verir. Sevmək, sevilmək üçün, ana olmaq, insan nəslini davam etdirmək kimi qutsal bir missiya üçün yarananların sınmasını, əzilməsini, zorakılığa və əzaba düçar olmasını görmək ağırdır. Bu ağrını son otuz ildə Azərbaycan qadınının yaşadığı faciələri görərkən dəfələrlə hiss etmişəm, daha doğrusu, bütün günlərim bu ağrıyla yüklənib, bu ağrının içindən keçib.” [21]

Ədibin bədii publisist yazıları cəmiyyət tərəfindən bir mənalı qarşılanmamış, bəzi məqamlarda mübahisəyə yol açmasına səbəb olmuşdur. “Sabir Rüstəmxanlı ədəbi-ictimai fikrimizin əsas inkişaf istiqamətlərini, doğru düzgün təsəvvür edən və həmin sahədə ən ardıcıl surətdə çalışan yaradıcı şəxsiyyətlərdən biridir. Sözlə fikrin və ideya ilə konkret əməlin vəhdəti, həqiqət duyğusunu ən ali məqama ucaltmaq onun əsas ənənəvi simasını müəyyən edir.” [11, s. 7]

S. Rüstəmxanlının bədii publisistikasında təhkiyə ilə lirika vəhdət təşkil etmişdir. Bu da ədibin bədii publisist əsərlərinin kompozisiyasına spesifiklik vermişdir. Ədibin bədii publisistikasında kompozisiya ünsürləri olan epiqraf, lirik haşiyə, peyzaj kimi ünsürlərə müraciət özünü qabarıq şəkildə göstərmişdir. Müəllifin bədii publisistikasında süjet xəttinə daxil olmayan, ancaq əsərin mövzusu ilə səsləşən epiqrafların işlənməsi məqamı maraq kəsb edir. Məsələn, müəllif “Ömür kitabı”nda epiqraflardan istifadə etməklə əsərin məzmun və formasını, dolaşıq süjet xətlərini bir-birinə bağlamağa nail ola bilmişdir. Əsərin əvvəlində yazılan, hikmətli fikir ifadə edən, başqa bir müəllif qeydi, yəni mətn parçası-kəsiyinin işlənməsi söz xiridarlarının yaradıcılığına verilən dəyər kimi qiymətləndirilməlidir. İntrasemiotik uyğunluq yaratmağa qadir olan epiqraf bədii mətnin komponenti kimi

oxucunu ilkin mətnə istiqamətləndirir, assosiasiya şəbəkəsini proqramlaşdırır. S. Rüstəmxanlının C. Məmmədquluzadənin “Qələmin müqəddəs vəzifəsi millətin xoşbəxtliyi yolunda xidmət göstərməkdir”, R. Rzanın “Od nə çəkdi, küldən soruş...”, S. Rüstəmin “Altında atəş var, külümə dəymə!” kimi fikirlərini epiqraflar kimi istifadə etməsini müşahidə edirik. Həmin epiqraflar ifadə etdikləri məna ilə oxucunun diqqətini əsərin məzmun və ideyasına yönəldir. Epiqraflar oxucunu əsərin ideyası ilə tanış edir, əsərin ayrı-ayrı fəsillərinin məzmunu və ideyasını qavramağa yardımçı olur. Bədii fikrin məntiqi ilə uzlaşan çoxsaylı bu epiqraflar vasitəsilə müəllif fikrini oxucuya çatdırılmasına nail olur. Birbaşa mətnin semantik yükü ilə bağlı olan epiqraflardan istifadə etməklə əsərin bədii yeniliyi kimi əsərin əsas ideyasını və məzmununu açır. Müəllifin istifadə etdiyi epiqrafların digər söz sənətkarlarına aid olmasıyla yanaşı müəllifin özünə aid olan epiqraflar da diqqəti cəlb edir: “Gündüzün üç yaşı olanda ondan soruşdum:

- Bilirsən Vətən nədir?

Bir az fikirləşib dedi:

- Vətən bizim evimizdir!” [24, s. 104]

S. Rüstəmxanlının bədii publisistikasında lirik haşiyədən istifadə etmə məqamı maraq doğurur. Müəllif bəzən təsvir etdiyi hadisənin inkişafını müvəqqəti dayandıraraq, hansısa bir hadisə və ya məsələ ilə bağlı münasibət bildirir. Lirik haşiyələr oxucunun diqqətini yayındırmır, əksinə əsəri qavramağa yardımçı olur. Lirik haşiyələrə tez-tez müraciət etmiş müəllif “Qobustan yazıları, yaxud Qobustan dünyası” [24, s. 115] publisist yazısında təsvir etdiyi hadisəni müvəqqəti dayandıraraq “sözarası”, “bir etiraf”, “haşiyə” deyərək hər hansı bir başqa hadisəni nəql edir. Məsələn, Qobustan qayaları və abidənin ilkin araşdırıcılarından olan İshaq Cəfərzadə ilə bağlı xatirələrindən bəhs edərkən, bəhs etdiyi hadisəni dayandıraraq, “sözarası” qeydini edərək, Bakı ətrafının gözəlliyi, Abşeron iqlimindən bəhs edir. “Haşiyə” qeydində isə Moskvadan gəlmiş rus fiziki ilə xatirələr əksini tapmışdır.

S. Rüstəmxanlının publisistikasının təhkiyəsi birinci və üçüncü şəxsin təkinə əsaslanır. Müəllif təhkiyəsi quru, sxolastik faktların dili ilə deyil, yaradıcı təxəyyülün "dili" ilə, bədiiliklə yanaşı müasirlik, millilik əxz etdirmişdir. Obrazlı, emosional nitq forması olan bədii üslub S. Rüstəmxanlı yaradıcılığının dil xüsusiyyətinin tərkibində fərqlənməkdədir. Ədibin publisistikasının dil tərkibinə daxil olan arxaizm, neologizm, vulqarizm, termin, dialektizm özünü göstərməkdədir: "repressiya buqələmun kimi formasını dəyişib yaşayıb, "mədəni" şəkildə cəllad işini davam etdirib." [19, s. 19]

S. Rüstəmxanlının publisistikasının dili alliterasiya, assonans, təkrar, intonasiya, epitet, təşbeh, istiarə, mübaliğə, kinayə, frazeoloji birləşmələr, omonimlər, sinonimlər, antonimlər və s. kimi bədii təsvir və bədii ifadə üsullarının rəngarəngliyinə malikdir. Bədii üslubun qrammatik səviyyədə göstəricilərinə riayət etməsi diqqətdən yayınmır. Ədibin publisistikasında söz sırasının qəsdən pozulması, yəni inversiya, qeyri-normativ quruluşlu cümlələr, ellipsisin, yəni sözlərin və ya şəkilçilərin ixtisarına rast gəlinir. Şifahi və yazılı ədəbiyyatımızın poetik nümunələrindən, obrazlı deyimlərdən və s. məharətlə istifadə etməsi də diqqətdən yayınmır.

S. Rüstəmxanlının publisistik təhkiyəsi emosionallığı ilə yanaşı, bədii-obrazlılığı ilə diqqətdən yayınmır. Ədib canlı monoloq və dialoqla, həmçinin ümumiləşdirmə və fərdiləşdirmə ilə müşayiət olunan təhkiyədən istifadə etmişdir. Müəllifin bədii təhkiyəsində sözlərin poetik funksiyalarına zərgər dəqiqliyilə yanaşması özünü göstərir. S. Rüstəmxanlı müəllif kimi sözün mətndə bədii vəzifə daşımasına, obrazlı şəkildə işlədilməsinə diqqət yetirməkdədir. Müəllifin qələmə almış olduğu əsərlərin mətnində poetik funksiya daşıyan poetizmlər məlumat səciyyəli vəzifəsindən fərqlənirlər. S. Rüstəmxanlının istifadə etdiyi poetizmlər informativ vəzifə deyil, poetik funksiya daşıyıcısı kimi diqqəti cəlb edir. Məsələn, "hər sözə şübhə ilə baxıb, xalqın istedadlı, yanan və təşəbbüşkeş ziyalılarına "xalq düşməni", "xırda burjuaziya nümayəndəsi", "pantürkist" damğası vurub məhv

edən repressiya dövrü"nün [19, s. 19] davam etməsi faktını qabartmasında bunu müşahidə edirik.

Sabir Rüstəmxanlının bədii publisistikasında həm klassiklərin, həm də dövrünün ədəbiyyat və mədəniyyət sahələrində xidməti olmuş insanlara münasibəti ifadə edilmiş, onların özünəməxsus xüsusiyyətləri obrazlı şəkildə təsvir edilmişdir. Ədib bədii publisist yazılarında klassik və çağdaş dövr sənətkarlarının obrazlarını yaratmaqla, onların yaradıcılıqlarını da təbliğ edə bilmişdir. "Bədii publisistika əsərində fakt hadisənin şəhadətnaməsinə çevrilərək tarixi dövr ərzində aktuallığını qoruyub saxlayır." [2, s. 77] Sabir Rüstəmxanlı bədii publisistikasında qəhrəmanını və təsvir etdiyi hadisənin obrazını yaratmağa nail ola bilmişdir.

Sabir Rüstəmxanlının "Özümüzdən böyük Sözümüz" publisistik kitabında əksini tapmış "ədəbi portretlər"də müəllif yanaşması diqqəti cəlb edir. Sabir Rüstəmxanlının təqdim etdiyi ədib, şair, yazıçı, alim, sənətkar haqqında xatirələr, həyatdan köçmüş şəxslərin sənədləri, məktubları, onlar haqqında müasirlərinin məlumatları və s. əsasında sənədli-bioqrafik ədəbi obrazın yaradılması maraq doğurur. Şair və yazıçılarımızı izləmiş ağır talelər, onlarla bağlı olan hadisələr Sabir Rüstəmxanlı tərəfindən təhlil süzgəcindən keçirilmişdir. Obrazlar yaratmağa qadir olan müəllif geniş ümumiləşdirmə verməmiş, hər hansı hadisə, obyekt və insan haqqında ictimai rəyi özündə əks etdirmişdir. Müəllif təqdim etdiyi qəhrəmanların adını, tərcümeyi-halın səciyyəvi faktlarını olduğu şəkildə əks etdirməyə nail olmuşdur. Bununla da, Sabir Rüstəmxanlı Nizami, Füzuli, Abbas Tufarqanlı, Aşıq Ələsgər, Aşıq Şəmkir, Süleyman Rəhimov, Süleyman Rüstəm, Mirzə İbrahimov, Rəsul Rza, Mir Cəlal, Əli Vəliyev, Nigar Rəfibəyli, Balaş Azəroğlu, İsmayıl Şıxlı, İlyas Əfəndiyev, Bəxtiyar Vahabzadə, Hüseyn Abbaszadə, Nəbi Xəzri, Söhrab Tahir, Nəsir İmanquliyev, Cavad Heyət, Qabil, Məmməd Araz, Xəlil Rza, Sabir Əhmədli, Gülhüseyn Hüseynoğlu, Anar, Elçin, Cabir Novruz, Fərman Kərimzadə, İsi Məlikzadə, Nüsrət Kəsəmənli, Ramiz Rövşən və digər şəxsiyyətlər haqqında qələmə almış

olduğu publisist yazılarda ziyalılarımıza verilən dəyərləri əks etdirməyə qadir ola bilir.

Sabir Rüstəmxanlı yaradıcılıqlarına dərindən bələd olduğu, şəxsən tanıdıqları yazıçı və sənətkarları, dostluq etdiyi, iş, tələbəlik, yol, əqidə yoldaşları olduğu insanlara münasibətini publisistik şəkildə təqdim edərək onların obrazlarını da yaratmağa nail ola bilmişdir. Onları məhz bədiiləşmiş həqiqət olan ədəbi portret kimi təqdim edir. Əks etdirilən yazılar müəllifin daxili emosiyalarını deyil, geniş təhlil və yanaşması ilə fərqlənirlər. Bədii düşüncənin vacib faktoru kimi müəllifin təqdim etdiyi şəxslərin obrazlarının yaradılması ilə bərabər, təqdim edilən şəxsin mühitini, baş verən siyasi olaylara da nəzər salıb qiymətləndirməsi tarixi faktlar kimi maraq doğurur. Mirzə İbrahimov, Musa Yaqub, Nüsrət Kəsəmənli, Gülhüseyn Hüseynoğlu və digər yazıçı və şairlər haqqında müəllifin fikirləri publisist yazılarının əsas məğzinə çevrilmişdir.

Sabir Rüstəmxanlı "Nüsrət Kəsəmənlinin özü və sözü" publisist yazısında şair həmkarı Nüsrət Kəsəmənlinin ədəbi portretini yaratmağa nail ola bilir: "Nüsrət Kəsəmənli ötən əsrin altmışıncı illərinin sonunda poeziyamıza gələn və qısa müddətdə ictimaiyyətin diqqətini cəlb edən, oxucuların sevgisini qazanan parlaq bir ədəbi şəxsiyyət idi. Boylu-buxunlu, ötkəm, gülərüz, ömrün çətinliklərinə mərdi-mərdanə sinə gərən, etibarlı, sözü üzə deyən, xırdaçılığı sevməyən, ürəyi sevgiylə və xeyirxahlıqla dolu bir gənc idi." [23]

Sabir Rüstəmxanlı "Dərdə əyilmə" kitabında yer almış "And yerimiz" adlı məqaləsində "Xətailərin, Nəsimilərin, Sabirlərin, Mirzə Cəlillərin, Şeyx Məhəmməd Xiyabanilərin, Məhəmməd Əmin Rəsulzadələrin, Üzeyir bəylərin, Cavidlərin hamısının mənəvi gücdən yarandığı indi mənə aydın oldu" [19, s. 71] deyə ədiblərin keçdiyi dəyərli həyat yollarına tarixi qiymətini verməklə obrazlarını təqdim edə bilir.

Sabir Rüstəmxanlının qələmə aldığı publisist əsərlərində janr qarışıqlığı özünü əsasən sənədli janrlarla qarışıqlıqda göstərmişdir. Sabir Rüstəmxanlının publisistikası sinkretik xarakter

daşıyır. S. Rüstəmxanlı publisistikasında bədii və elmlə əlaqədar olan məqamların özünə yer tapması ədibin publisistikasının fərqli özünəməxsusluğudur. S. Rüstəmxanlının bədii və elmi publisistikasını fərqləndirən əsas cəhətlərdən biri üslubları arasındakı fərqlilikdir. İctimai nitq forması olan publisistik üslub digər funksional üslubların bəzi əlamətlərini də daşıdığından, bədii-publisistik, elmi-publisistik, rəsmi-publisistik kimi növləri özünü göstərmişdir. Bədii publisistika publisistik üslubun əsas xüsusiyyətlərinə, həmçinin müəyyən qədər obrazlılığa malikdir. Müəllifin təsvir etdiyi hadisə və faktlar haqqında obrazlı şəkildə məlumatı onun oçerk, portret oçerk kimi bədii publisistikaya aid publisist mətnlərində əldə edirik.

Ədibin bədii publisistikasında bədii və publisist üslubun qarşılıqlı əlaqəsi özünü göstərmişdir. Bu qarışıqlıq özünü publisistik üslubda bədii üslubun müxtəlif elementlərindən istifadə olunmasında, həmçinin poeziya və nəsr əsərlərinə aid ayrı-ayrı parçalardan istifadə edilməsində göstərməkdədir. Sabir Rüstəmxanlı publisistikasında bədii parçalardan istifadə edərkən, qələmə almış olduğu əsərin məzmunundan irəli gələn emosionallığı artıraraq daha oxunaqlı etmək məqsədini nəzərdə tutmuşdur. Sabir Rüstəmxanlı bədii təsvir və ifadə vasitələrindən, kompozisiyaya aid epiqraf, proloq, peyzaj, lirik ricət kimi ünsürlərə, nəzm parçalarına müraciət edərək qələmə almış olduğu bədii publisistikasını zənginləşdirmişdir. Bədii publisist əsərlərində xalq ədəbiyyatı nümunələrindən yaradıcı şəkildə istifadə etməsi diqqətdən yayınmır. Bədii publisistikasının dili nağılvari olmaqla, düşüncədə təhqiqat, təsvir və analitik təhlillə yanaşı, həm də sənədlilik və informativliyə, gerçək fakta əsaslanmışdır. Bu da ədibin bədii publisistikasını elmi publisistikasından fərqləndirir.

## II. 2 Sabir Rüstəmxanlının elmi publisistikası

Kəskin, mübariz ruhu, dəqiqlik, konkretliyi ilə seçilən elmi publisistika S. Rüstəmxanlı yaradıcılığında xüsusi bir istiqamət kimi özünü göstərməkdədir. Ədibin elmi publisistikasının möv-

zu və problemlərini Qarabağ müharibəsi, işğal altında olan torpaqlarımız haqqında düşüncələri, "erməni xislətin"nin təsviri, Azərbaycanın geosiyasi maraqları, Şimali və Cənubi Azərbaycan probleminin əksi, Azərbaycan Türkiyə əlaqələri, şəhidliyin ən ali zirvə olması, vətən, vətənsevərlik, vətənin azadlığı, müstəqillik yolunda mübarizəsi, milli varlıq, xalqın keçmiş tarixinə nəzər, milli mədəniyyətə ekskurs, cəmiyyətdəki laqeydliyə münasibət, mədəniyyət, ana dilinin müqəddəsliyi, sosial-siyasi məsələləri əhatə edir. Məsələn, Sabir Rüstəmxanlı "Zaman məndən keçir" kitabında şəhidliyi Vətən uğrunda atılan şərəfli addım kimi dəyərləndirir: "tarix boyu yurdun sərhədlərinə, sınır boylarına düzülən sadə şəhid məzarları rahat yataqda ölməkdən üstün tutulub. Övladı Vətən uğrunda şərəflə qurban gedən analara başsağlığı yerinə gözaydınlığı veriblər!" [26, s. 592] Onun publisistikası siyasi proseslərlə ayaqlaşaraq, zamanın və tarixin qatlarının yaddaşlarında əbədiləşən faktlara, ictimaiyyəti maraqlandıran problemləri işıqlandırmağa yönəldilmişdir. "Ölülərə ədəbiyyat lazım deyil" [19, s. 195] publisistik yazısında da ədəbiyyat problemlərini əks etdirir: "Pressfakt" qəzetində ardıcıl verilən "Ədəbiyyat söhbətləri"ndə olduğu kimi, tez-tez ədəbi sayıqlamalara çevrilir. Ədəbiyyata bələdliyi, ümumi savadlığı şübhə doğurmayan bu müəllifin dilə, üsluba, ədəbi hadisələrə etinasızlığı belə bir təsəvvür yaradır ki, ya özü nə dediyini bilmir, ya da Azərbaycan dilini qəsdən belə bərbad vəziyyətə salır və oxucuların heysiyyətilə oynayır..." [19, s. 198]

Müəllif ədəbiyyatda mövzu problematikası ilə yanaşı ədəbiyyatdakı mövzu kasadlığı probleminə nəzər salaraq qeyd etmişdir ki, "onlarla şeir silsiləsi oxuyursan və heyrətlənirsən. Elə bil, bu müəlliflərin heç biri Azərbaycanda yaşamır. Müharibə, milli varlıq uğrunda mübarizələr, üzləşdiyimiz mənəvi iflas və s. şeirin obyektindən kənardadır". [19, s. 201] Sabir Rüstəmxanlı "siyasət çirkin mühitdir" deyən, mövzu kasadlığı ilə yaradıcılığını davam etdirən qələm sahiblərini də ifşa edir.

Müəllifin elmi publisistikasının problematikasında müasir sivilizasiyalı dünyanın ahənginə uyğun Azərbaycan cəmiyyəti-

nin qurulmasını təbliğ edərkən, tarixi yaddaşa əsaslanması əsas xətt təşkil etmişdir. Bu baxımdan, ədibin publisistikasının problematikasında şəcərə-yaddaşı aktuallıq kəsb etmişdir. Ədibin "Ömür kitabı" əsərində yer almış "Vətən haqqında nəğmə" publisistik yazısında bu problem keçmişin, tarixin sınaqları kontekstində işıqlandırılır: "Vətən Vətəndir! Heç kim xoş rüzgardan, öz xoşuna doğma yurdunu atıb getməz! Torpaq, tarix milyon-milyon insan taleyini udub, unutdurub. Qalan, yaşayan yalnız nəğmədir..." [24, s. 45]

Sabir Rüstəmxanlı "Dəlil və Duyğu" adlı publisistik yazısında cəmiyyətin ağrılı yeri olan laqeydliyi mənəvi korluq kimi dəyərləndirmiş, cəmiyyətdə gedən proseslərdən qalmanın əsas səbəblərindən biri olmasını qabartmışdır: "...laqeydlik mənəvi korluğudur, özünü cəmiyyətdən ayırmaq, həyatın gur axınından kənarda yaşamaqdır". [24, s. 58]

Sabir Rüstəmxanlının "Sözün tarixi – xalqın tarixi" [12, s. 5] adlı publisist nümunəsi ömrünü xalq ədəbiyyatının, türk xalqlarının mifologiyasını, ədəbi abidələri tədqiq etmiş filoloq alim, Əməkdar elm xadimi, professor Mirəli Seyidovun həyat və yaradıcılığını əks etdirir. S. Rüstəmxanlı ədibin elmi faktlara üstünlük verməsi amilini qabartmışdır: "Qrabardakı türk dilindən alınma sözləri öyrənən bir sıra erməni dilçiləri bu dilin sonralar orta erməni dilinə dəyişilməsini də məhz türk dilinin təsiri ilə əlaqələndirirlər. Bu fikri inkişaf etdirən M. Seyidov o vaxt belə bir haqlı nəticəyə gəlmişdi ki, əgər türk dili hələ V-VI əsrlərdə erməni dilinə təsir göstərirdisə, deməli, bu dövrdən də çox əvvəl Qafqazda bu dil geniş yayılmış, siyasi, ictimai və mənəvi durumuna görə daha nüfuzlu bir dil idi. Bu yolla alim bizim tariximizlə bağlı bir sıra uydurmaları rədd edir". [12, s. 10]

"Ömür kitabı", "Dərdə əyilmə", "Xalqın söz silahı" kimi publisistik toplular Azərbaycan tarixinin ziddiyyətli, mübahisəli, həmçinin şərəfli səhifələrinin canlandırılması və dəyərləndirilməsi baxımından əhəmiyyət kəsb edir. Sabir Rüstəmxanlının publisistik əsərləri ədəbi mühitin diqqət mərkəzində olan siyasi və ictimai həyat məsələlərini, həyatda olmuş konkret hadisələri,

real faktları yığcam şəkildə işıqlandırmış və işıqlandırmaqdadır. Publisist nümunələr həyatda baş vermiş reallıqlar, tarixi faktlar, həmçinin real tarixi şəxslərin həyat tarixçəsi əks etdirilməklə obrazlı informasiya vəzifəsində çıxış edir. Burada xalqın həyat tərzi, adət-ənənələri, insanların ictimai və şəxsi həyatının davamlı münasibətləri təsvir edilmişdir.

Sabir Rüstəmxanlının elmi publisistikasının təsvir üslubları və dil xüsusiyyətləri bədii publisistikasının təsvir üslubları və dil xüsusiyyətlərindən fərqlənir. Ədibin elmi publisistikasının dil xüsusiyyətləri bədii publisistikasının dil xüsusiyyətləri kimi zəngindir. Biz burada ədəbi dildə işlənməyən sözlərə, xalqın həyat tərzindəki dəyişiklərlə bağlı yaranan yeni sözlərə, başqa dilə aid olub dilimizdə işlənməyən sözlərə, ayrı-ayrı elm sahələrinə aid olan müxtəlif sözlərə rast gəlirik. Müəllif bu sözlərdən istifadə edərək obrazın səviyyəsini, ya da publisist əsərində tarixilik prinsipini gözləməsi, təsvir etdiyi regionun, mühitin mənzərəsini yaratmaq üçün istifadə etdiyi ədəbi dilə daxil olmayan sözlərdən istifadə etmişdir. S. Rüstəmxanlının publisistikasında bədii sözlərin, əsasən, məcazi mənada işlənməsi diqqəti cəlb edir. Müəllif sözləri məcazi mənada işlətməklə əsərdə açıqlamaq istədiyi fikir, ideya ətrafında güclü emosiya, bədii təəssürat yaratmağa nail ola bilir. Məsələn, "Dərdə əyilmə" kitabının "İtən dünyamız", "Xaraba bayquşları", "Şeytan barmağı", "Zülməti yaranlar", "Diri və ölü sözlər" və s. kimi başlıqlarında sözlərin poetik funksiyası bədii təsvir və ifadə vasitələrində özünü göstərmişdir.

Sabir Rüstəmxanlının publisistikasında mətnaltı məna daşıyan söz və ifadələrə müraciət etmə də özünü qabarıq şəkildə göstərməkdədir. Müəllif mətnaltı sözlərə müraciət edərkən məhz çatdırmaq istədiyi fikri təsirli ifadə etmək məqsədi güdür. Məsələn, "Mirzə Cəlil demiş..." [19, s. 160] publisist yazısında millətin ictimai-siyasi halını mətnaltı sözlərlə ifadə edərək, çatdırmaq istədiyi fikir və ideyanı qabartmağa nail olur: "Məndən "Bu gün Azərbaycan millətinin ictimai-siyasi halına hansı sözlə səciyyələndirmək olar?" – deyə sorsalar, deyərdim, "Şeyxnəsrullahçılıq." Yəni rəhmətlik Mirzə Cəlilin göstərdiyi vaxtdan bəri heç nə

dəyişməyib”. [19, s. 160] Bunun günahkar olmasının səbəbkarını axtararkən isə, ədib qətiyyətlə özümüz olması faktına toxunur: “Bir halda ki, işləməyi bacarmırıq, vuruşmağı bacarmırıq, düşünməyi bacarmırıq, ümid qalıb Şeyx Nəsrullahlara!..” [19, s. 161] Müşahidə etdiyimiz kimi müəllif tipikləşdirmə və ümumiləşdirmə aparmasına, bədii təsvir və ifadə vasitələrindən istifadə edərək, yazıçı təxəyyülünə geniş yer verir.

Publisist yazılarında Cənubi Azərbaycan, Təbriz, Araz çayı Sabir Rüstəmxanlı tərəfindən obraz səviyyəsinə qaldırılması danılmaz faktdır. “Ömür kitabı”nda əksini tapmış “Qayıdıram Araz boyu” publisistik məqalədə Araz çayı iki ölkəni yarıya bölən, quruda özünün əmələ gətirdiyi yataq üzrə hərəkət edən su axını kimi deyil, özündə tarixi yaşadan məfhumdur: “Görəsən dünyada ikinci bir çay tapılarmı ki, Araz qədər mürəkkəb və faciəli taleyi olsun; Araz qədər dildən-dilə düşsün, Araz qədər şeir və mahnı mövzusuna çevrilsin, Araz qədər ittiham edilsin, umu-küsü hədəfinə dönsün, nifrətlə damğalansın və Araz qədər sevilsin?!” [22, s. 146] Sabir Rüstəmxanlının “Araz” sözü bədii təkrirlərlə istiarə yaratması ilə diqqəti cəlb edir. “Araz qədər sevilsin?” kimi bədii sualla təzad tamamlanır. Müəllifin “Araz qədər sevilsin?” fikri əsərin emosional təsirini artırmaq məqsədilə sual tərzində ifadə olunmuşdur. Lakin adi qrammatik sualdan fərqli olaraq, burada cavab alıb hansısa məlumatı dəqiqləşdirmək məqsədi güdülmədiyindən, müəllifin sualı bədii sualdır.

Sabir Rüstəmxanlının elmi publisistikasının obrazları rəngarəngliyi ilə fərqlənir. Bunlar həm ictimai xadim, həm dövlət rəhbəri, həm ziyalı, sadə vətəndaş da ola bilər. Məsələn, “Dərdə əyilmə” publisistik kitabında yer almış “İbrahim Bozyelə ağı” adlı yazıda İbrahim Bozyelin obrazı ilə rastlaşırıq. Müəllif “Qardaş ədəbiyyatlar” dərgisinin sahibi kimi fədakarlığı, Azərbaycanda “Azərbaycan diyarında” kitabı ilə məşhurlaşan İbrahim Bozyelin obrazını yaradaraq, onun yaradıcılığına nəzər salır. Sabir Rüstəmxanlının elmi publisistikasının diqqəti cəlb edən bir obrazı da var: ədəbiyyat. Müəllif ədəbiyyatı obraz səviyyəsinə qaldıra bilmiş, onu narahat edən suallara cavab axtarmışdır. “Ki-

tab və mədəniyyətimiz" [19, s. 347] adlı publisist nümunədə Sabir Rüstəmxanlı ədəbiyyatın probleminə çevrilmiş nəşr məsələlərinə, ədəbiyyata dəxli olmayan əsərlərin ədəbiyyata yol tapmasının ağır fəsadlar törətməsinə toxunur: "Kitab nəşrindəki sərbəstlik, senzuranın ləğvi elə bir şərait yaradıb ki, kim nə istəyir yazır və bəzən ən bahalı kağızlarda ən vecsiz yazılar nəşr edilir; ədəbiyyat, sənət adına - ədəbiyyata dəxli olmayan cızma-qaralar meydan açır. Sənətlə antisənət, peşəkarla qeyri-peşəkar sərhədlərin itməsi bütün sahələrdə müşahidə olunur". [19, s. 350]

Sabir Rüstəmxanlı elmi publisistikasında "dərd"i obraz səviyyəsinə yüksəltməyi bacarmışdır: "Min illərdi mənim xalqımın dərd adlı bir yol yoldaşı var. Saymaqla qurtaran deyil bu dərdləri. Ancaq inamımız sarsılmazdır. Çünki işimiz haqq işidir və xalqın gücü kimi sarsılmaz bir qüvvəyə arxalanırıq." Müəllif xalqın dərdinin bitəcəyinə, Azərbaycanın istiqlal və bütövlüyünə daim inam özünü göstərmişdir.

Sabir Rüstəmxanlı elmi publisistikasında istifadə etdiyi ədəbi janrların tipologiyası zəngindir. Publisistin istifadə etdiyi elmi publisistika özəllikləri, məzmunun informativliyilə fərqlənmişdir. Sabir Rüstəmxanlının elmi publisistikası ictimai həyatda etiraf edilə bilməyən, mövcud olan konflikt və problemləri obrazlı dillə özündə ehtiva edir. Ədibin milli mədəniyyətə, dünya ədəbi fikrinə əsaslanmış elmi publisistikasında ənənə və novatorluq üzvi əlaqədə olaraq, milli publisistikanı ideya-məzmun, mövzu, dil və üslub baxımından zənginləşdirmişdir.

## II. 3 Sabir Rüstəmxanlı publisistikasında epistolyar janra müraciət

Epistolyar janrı realist ədəbiyyatda daha çox istifadə edilir. Epistolyar janrın iki istiqamətini müşahidə etmək olur. Birinci istiqamət: yazıçı öz məktublarından ibarət əsər yaradır. Burada əsas xüsusiyyət ədibin öz ideyalarını, fikirlərini konsepsiya kimi düzəltməsi, özü ilə oxucu arasında mübahisə yaratmasıdır. Sözügedən janrın ikinci istiqaməti məşhur şəxsiyyətlərin öz müasirlə-

ri ilə məktublaşmalarıdır. Qeyd edilən istiqamətin əsas xüsusiyyəti odur ki, məktub yazan adamın gizli fikirləri, sarsıntıları, həyəcanları, məqsədləri aydın şəkildə göstərilir. Sabir Rüstəmxanlının qələmə almış olduğu "Milli taleyimiz və biz" əsəri sözügedən janrın ikinci istiqamətinə, yəni məşhur şəxsiyyətlərin müasirlərilə məktublaşmaları istiqamətinə aiddir.

Sabir Rüstəmxanlının "Milli taleyimiz və biz" (Güntay Gəncalp Bayandırlı və Saleh Məhmətlə məktublaşmalarım) kitabında ədibin müasirləri Finlandiyada yaşayan Güney Azərbaycan ziyalısı Güntay Gəncalp Bayandırlıya (Bayandır Ərənol) və Azərbaycan Respublikasının sabiq Maliyyə Naziri Saleh Məhmətə (Məmmədov) yazdığı məktublarda müəllif fikirləri ilə yaxından tanış oluruq. S. Rüstəmxanlının yaradıcılığında epistolyar janra müraciət müəllifin fikir və düşüncələrini məktublar şəklində təqdim etməsi diqqəti cəlb edir. [15, s. 9] Məsələn, müəllif epistolyar məktubları vasitəsilə qələmə almış olduğu əsərlərə münasibət bildirmişdir. Qələmə almış olduğu əsərlərinin qaranlıq qalmış məqamlarına aydınlıq gətirmişdir. S. Rüstəmxanlı epistolyar məktublarında ədəbiyyatı maraqlandıran problem və sualları özünəməxsus şəkildə cavablandırmışdır. Ədəbiyyatın bütün dövrləri üçün aktuallıq kəsb edən tarixilik prinsipinin inkar edilməsi və tarixi hadisələrin, həmçinin tarixi şəxslərin müəllif interpretasiyasından keçirilməsi, yaxud da yalançı, uydurma qəhrəman obrazlarının yaradılmasına ziyalıların münasibət və mövqeyi maraq kəsb edir. S. Rüstəmxanlı Azərbaycan ədəbiyyatında obrazların imitasiyası (təqlidi), falsifikasiyası (saxtakarlıq) və ya mistifikasiyası (uydurma) probleminə özünəməxsus tərzdə cavab verə bilir. Ədib uydurma qəhrəman probleminə nəzər salmışdır. Məsələn, ədib vurğulamışdır ki, "...tarixdə Babək adlı bir şəxsiyyət olmamışdır. Məgər film qəhrəmanlarının hamısı tarixi şəxsiyyətdir? Belə təsəvvür edin ki, Babək gözəl yazıçımız Ənvər Məmmədxanlının uydurma qəhrəmanıdır. Nə olsun? Buna nə irad ola bilər? Məgər dünya ədəbiyyatında şah əsərlərin yüzdə doxsanının qəhrəmanı yazıçı təxəyyülünün məhsulu deyil?" [15, s. 234]

S. Rüstəmxanlı uydurma qəhrəmanları müəllif təxəyyülünün məhsulu olması ilə əlaqələndirir. Bunun ədəbiyyat, tarix üçün təhlükə olmadığını, əsas təhlükənin ədəbiyyatımıza və mədəniyyətimizə kölgə salanlar olması vurğulanır. Ədib ədəbiyyatımızı məhz ədəbiyyatımıza və mədəniyyətimizə kölgə salanlardan təmizlənməsi amilinə toxunur: "tariximiz bəzi yamaqlardan təmizlənməlidir, düzdür, lakin böyüklərimiz və ya ədəbiyyatçıların "uydurduğu" qəhrəmanlar yamaq deyil, o qəhrəmanlıq ruhunu duymayan, onu inkar edən və millətin dəyərlərini məsxərəyə qoyanlardır yamaq..." [15, s. 234] Sabir Rüstəmxanlının fikirlərinə əsaslanaraq qeyd etməliyik ki, ədəbiyyatda uydurma qəhrəman obrazlarının təqdimini bir növ mokyumentari (ing. *to mock* "saxtalaşdırmaq" və *documentary* "sənədli") kimi qəbul edilməlidir, yəni zahiri əlamətlərinə görə tarixi qəhrəmanlara uyğundur, lakin tarixi qəhrəmanlardan fərqli olaraq uydurmadır və tarixi faktlara oxşarlıq naminə xüsusi "pərdələnmişdir."

Sabir Rüstəmxanlının "Milli taleyimiz və biz" (Güntay Gəncalp Bayandırlı və Saleh Məhmətlə məktublaşmalarım) kitabında bədii refleksiyaya rast gəlinir. Müəllif onun qələminə aid bədii əsərlər haqqında fikirlərini oxucuya məktublar vasitəsi ilə aydınlıq gətirməyə nail ola bilir. Kitabda müəllifin "Göy Tanrı", "Akademikin son əsəri" kimi romanları haqqında fikirləri oxuculara qaranlıq qalan məqamlarına işıq salır. Məsələn, müəllif "Göy Tanrı" romanında Oğuz xaqanın uydurma obraz olmaması faktına toxunmuşdur: "...mən də "Göy Tanrı" romanında Oğuz xaqanın təxminən b.e.ə. 6-cı yüzildə yaşadığını və Qorqudun da onun nəvələrindən biri olduğunu yazmışam. Oğuz xaqanın Saklar dönəminin hökmdarı olduğu, həmin dövrdə yaşadığı bədii təxəyyül deyil, real faktlara və hesablamalara söykənir." Müəllif bu fikirləri ilə əsərinin tarixi faktlar əsasında qələmə alınmasını qabardır.

Sabir Rüstəmxanlı epistolyar məktubları ilə "Akademikin son əsəri" romanının mövzu problematikasına da aydınlıq gətirməyə cəhd etmişdir: "Mən sonuncu "Akademikin son əsəri" adlı romanımı məhz bu genetik savaşa həsr etmişəm. Azərbaycanın

soylu ailələrinin yox edilməsi, uzunömürlülərin yaşadığı Ermənistanın yaylalarından və dağlıq ərazilərimizdən Sibirə, Qazaxıstana sürgünlər və mənəvi aşındırma planları... hamısı bu genetik savaşın tərkib hissələridir.” [15, s. 189] Müəllif qələmə aldığı məktublarında məhz “Akademikin son əsəri” romanında xalqa qarşı aparılmış repressiya, “təmizlənmə” prosesinin tarixi olaylarını əks etdirməsinə toxunmuşdur. Sabir Rüstəmxanlının yaradıcılığında tədqiqatçıların “epistolyar publisistika” adlandırdıqları epistolyar janra müraciət etməsi dövrün problemlərinə biganə qala bilməyən ədibin ziyalı mövqeyidir.

Sabir Rüstəmxanlının “Ayətulla Seyid Əli Xameneyiyə açıq məktub” [18] kitabı İran İslam Respublikasının dini rəhbəri Ayətulla Seyid Əli Xameneyi cənablarına ünvanlanmış açıq məktubdur. Sabir Rüstəmxanlı “Açıq Məktubunda yazıçı bu polietnik qonşu dövlətin əhalisinin əhəmiyyətli hissəsini təşkil edən çoxmilyonlu Azərbaycan türklərinə münasibətdə həmin dövlətin yürütdüyü milli ayrı-seçkilik siyasətinə qarşı təkzibedilməz əks-dəlillər irəli sürmüş, İranın çoxəsrlik tarixində müstəsna rol oynamış, onu az qala məhv olmaqdan xilas etmiş türksoylu hakimiyyət ənənəsini yox edərək, onların geopolitik yerləşimini daim əsassız dəyişikliklərə məruz qoyan, milli-etnik özəlliyini, dil və mədəniyyətini islam ümmətçiliyi adına açıq şəkildə assimilyasiyaya uğradan farsçılığın, əslində, İran dövlətinin varlığı üçün hər hansı bir xarici müdaxilədən qat-qat təhlükəli olduğunu sübuta yetirmiş, müasir dünyanın inkişaf istiqamətindən ölkəsini kənarda saxlayan, hətta özünün zəngin klassik mədəniyyətindən, böyük sivilizasiya dəyərlərindən xeyli dərəcədə uzaqlaşan İran teokratiyasının yanlış və ədalətsiz əməllərini təkcə azərbaycançılıq nöqteyi-nəzərindən deyil, həm də beynəlxalq humanizm və demokratizm mövqeyindən tənqid etmişdir.” [14, s. 32] Məktubda elmi və tarixi faktların əksini tapmasına rəğmən əsər xəbər, vacib məlumat çatdırmaq üçün ənənəvi vasitə kimi özünü göstərmişdir. Sabir Rüstəmxanlının “Ayətulla Seyid Əli Xameneyiyə açıq məktub” insanlar arasında informasiya mübadiləsi kimi deyil, fikrini, müəllifin özünü narahat edən suallara cavab şəklində

nəzərdə tutulmuşdur: "Hər şeyi, hətta millətinin namusunu, dinini də paraya qurban verən ölü ruhları, mağara şüurluları xilas edən başqa bir zəlzələ olacaq yəqin! Hər düşkünlüyün bir sonu var!" [18, s. 5]

## II. 4 Sabir Rüstəmxanlı yaradıcılığında elmi tədqiqatlar

Sabir Rüstəmxanlının elmi tədqiqat aparması və Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aspiranturasını bitirməsi elmi yaradıcılığına təsirsiz ötüşməmişdir. Qeyd etməliyik ki, S. Rüstəmxanlı 1976-cı ildə ""Molla Nəsrəddin" və folklor" mövzusunda dissertasiya müdafiə edərək filologiya elmləri namizədi elmi dərəcəsinə yiyələnmişdir. Sabir Rüstəmxanlının tədqiq etdiyi və müdafiə üçün irəli sürdüyü elmi müddəaların və nəticələrin məcmusunu əhatə edən ""Molla Nəsrəddin" və folklor" elmi tədqiqat işinin "Cəlil Məmmədquluzadə, Molla Nəsrəddin və folklor" adı ilə nəşr edilərək "Xalqın söz silahı" kitabında ictimaiyyətə təqdim edilməsi maraq doğurur.

Xüsusi vurğulamalıyıq ki, ""Molla Nəsrəddin" və folklor" elmi tədqiqatı ayrıca kitab şəklində nəşr edilsəydi, biz kitabı monoqrafiya kimi təqdim edərdik. Ancaq ""Molla Nəsrəddin" və folklor" elmi tədqiqatının "Xalqın söz silahı" kitabında publisistik məqalələrlə birgə nəşr edilməsi bizi bundan məhrum edir. Lakin bu heç də ""Molla Nəsrəddin" və folklor" elmi tədqiqatının əhəmiyyətini azaltmır.

"Xalqın söz silahı" kitabında əksini tapmış "Cəlil Məmmədquluzadə, Molla Nəsrəddin və folklor" adlı tədqiqat maraqlı və mübahisə doğuran fikirləri özündə əks etdirmişdir. Məsələn, müəllif tərəfindən folklorun yaşının müəyyənləşdirilməsi tədqiqatda mübahisə doğuran fikirlərdən biridir. Belə ki, ədib folklorun yaşını müəyyənləşdirərək qeyd edir ki, "folklorun və yazılı ədəbiyyatın neçə min illik tarixi ilə müqayisədə bu iki yaradıcılıq sahəsi arasındakı ilişkilərlə bağlı olan araşdırmaların tarixi, aşağı-yuxarı, cəmi iki yüz ildir.

Xalq yaradıcılığı anlamında işlədilən "folklor" ifadəsinin də təxminən o qədər yaşı vardır". [20, s. 4] Müəllif xalq yaradıcılığı anlamında işlədilən "folklor" ifadəsinin yaşını iki yüz il verilməsi elmi sübutunu faktlar əsasında tapmamışdır.

Xalq bayatılarına Sabir Rüstəmxanlı münasibəti xalq müdrikliyinin ən yüksək poetik səviyyəsi kimi yanaşmasında özünü təzahür etmişdir. Folklor nümunələrinin toplanması, yazıya alınaraq nəşr edilməsi sahəsində vəziyyətin qənaətbəxş olmasına dair fikrini daim bildirmişdir. Sabir Rüstəmxanlı bayatını xalqın mənəvi coğrafiyasının bütövlüyünü yaradan amil kimi dəyərləndirməyi lazım bilmişdir: "Xalqımızın tarixi və mənəvi nüfuz dairəsinin genişliyini göstərmək üçün bayatılarda gözəl dəlillər var. Elin parlaq söz tablolarında Çindən Misirə kimi geniş bir coğrafi ərazinin rəngləri, boyaları, havası duyulur. Bağdad, Təbriz, Dərbənd, Xorasan, Tiflis, Həştərxan, Gəncə, Şirvan və sair burada təkcə yer adları kimi işlənməyib. Bunların hər biri xalqın ürəyindən və tarixindən keçən yolların "sirlərindən" danışır." [20, s. 234] Bayatılar haqqında müəllif düşüncələrini "Haqqı yaradan mənəm" publisist yazısında davam etdirdiyini müşahidə edirik.

Sabir Rüstəmxanlı elmi tədqiqatın müxtəlif formalarına müraciət etməklə həyatın bütün sahələrində baş verən ictimai-siyasi hadisələrə müraciət etməklə vətəndaş mövqeyini təzahür etdirmişdir. Sabir Rüstəmxanlı yalnız ""Molla Nəsrəddin" və folklor" elmi tədqiqatını qələmə almaqla kifayətlənməmiş, elmi tədqiqatın bir çox formalarına müraciət etmişdir. S. Rüstəmxanlının elmi və ya ədəbi-bədii əsərlərin təhlili barədə əsaslandırılmış resenziyaları, rəyləri problemin aktuallığı, onun strukturu və məzmunundakı yenilikləri əsaslandırılması ilə diqqəti cəlb edir. Müəllif resenziya yazmasını belə əsaslandırmışdır: "Mənim həyatımın çoxu mətbuat və kitabla bağlı olduğundan yeni əsərlərə məhz elmi-ədəbi dəyərinə, düşüncəmizə, milli mübarizəmizə gətirdiyi yeniliklərə və peşəkarlıq səviyyəsinə görə, dövlətçiliyimizin mənafeyi baxımından qiymət verməyə alışmışam və bu məqaləni də həmin vərdişlə yazıram." Müəllifin yazdığı resenziya-

lar dövrün nəbzini tutmaqla bərabər tarixi faktları özündə əks etdirə bilir. AMEA-nın prezidenti akademik Ramiz Mehdiyevin Moskvada "Akvarius" nəşriyyatında buraxılmış "Dağlıq Qarabağ: mənbələr əsasında oxunan tarix" kitabı haqqında resenziyasında S. Rüstəmxanlı kitaba müasirlik və tarixilik prizmasından yanaşaraq dəyərləndirmişdir. Müəllif akademik Ramiz Mehdiyevin dəqiq faktlara əsaslanaraq kitab qələmə alması faktını qabartmışdır: "Akademik Ramiz Mehtiyev isə konkret faktlar və elmi dəlillərlə danışır. Əsərin qiymətini artıran cəhətlərdən biri də budur ki, bu faktların və dəlillərin bir çoxu oxuculara ilk dəfə təqdim olunur, onun müraciət etdiyi mənbələrin bəziləri indiyədək bu mövzuda yazılmış əsərlərin təhlilindən kənarda qalmışdır." [7] Müəllif həmçinin kitabda konkret fikirlərin yer alması faktını təqdirəlayiq hesab etmişdir: "Kitabda tarixşünasların və tarix diletantlarının bir sıra mübahisə mövzularına da aydınlıq gətirilmişdir. Onlardan biri azərbaycanlıların antropoloji cəhətdən aborigen, yəni yerli xalq olması və türklüyüdür." [7]

Sabir Rüstəmxanlı akademik Ramiz Mehdiyevin gəldiyi nəticələrə əsaslanaraq, bir ziyalı kimi öz münasibətini də bildirir: "... bu baxımdan kitab Azərbaycan türklərinin tarixini XI və hətta XVII əsrlərə bağlayan, Avropa mərkəzçiliyi ideyasından qopa bilməyən, tarixi siyasi konyunkturaya qurban verən müəllifləri düşündürməli və bu məsələyə yanaşmada dönüş nöqtəsi olmalıdır. Manna, Midiya, Qafqaz Sak dövləti, Qafqaz Albaniyası- hamısı, etnik tərkibləri nə qədər mürəkkəb olsa da, Azərbaycan və ya prototürk dövlətləriydi." Yazıçı sonda akademik Ramiz Mehdiyevin kitabını yüksək dəyərləndirir: "Məqsədi Dağlıq Qarabağ münaqişəsinə aydınlıq gətirmək olan bu əsəri tərəddüd etmədən, "Azərbaycanın qısa tarixi" də adlandırmaq olar." [7]

Sabir Rüstəmxanlı yaradıcılığında elmi ədəbiyyatın müxtəlif formalarının özünü göstərməsini vurğulamalıyıq. Biz ədibin yaradıcılığında qələmə aldığı elmi tədqiqatı (namizədlik dissertasiyası), müxtəlif mövzulu məruzələri, rəyləri, resenziyaları, müsahibələri və s. göstərə bilərik. Məsələn, Sabir Rüstəmxanlının ədəbi dilin inkişafı, dil problemlərilə bağlı Azərbaycan Yazı-

çılar İttifaqının 1984-cü ilin may ayında təşkil etdiyi plenumda "Şeirimizin dili" mövzusunda məruzəsi diqqəti cəlb edir. Plenumda S. Rüstəmxanlı ilə birgə Y. Qarayev ("Tənqidçi təfəkkürü və tənqidin dili"), İ. Rəhimli ("Dramaturgiya dili"), N. Cabbarov ("Dilin həqiqəti və həqiqətin dili") məruzə ilə çıxış etmişdilər. Sabir Rüstəmxanlının məruzəsində ədəbi-bədii dilimizin inkişafına mənfi təsir göstərən cəhətlər qabardılmışdır.

Ədibin 25 aprel 1986-cı il tarixdə Azərbaycan Yazıçılar Birliyinin növbəti qurultayı qarşısında keçirilmiş olan yaradıcılıq müşavirəsində "Azərbaycan ədəbi tənqidinin vəziyyəti və vəzifələri" haqqında məruzəsi də ictimaiyyətin diqqətini cəlb etmişdir. "Sabir Rüstəmxanlının cəsarətli çıxışları, aydın milli mövqeyi ədəbi mühitdə çox vaxt böyük, qeyri-adi əks-səda, heyrət və maraq doğurmuşdur... onun "Azərbaycan ədəbi tənqidinin vəziyyəti və vəzifələri" haqqında etdiyi məruzə elmi-ədəbi fikrimizin bu sahəsinə bənzərsiz və güzəştsiz münasibətin ciddi ifadəsi kimi rəğbətlə qarşılanmışdır. Bu məruzədə tənqid və ədəbiyyatşünaslıq mövcud cəmiyyətin və bədii fikrin, tariximizin, dilimizin və mədəniyyətimizin real, ağrılı problemləri ilə ahəngdar əlaqədə, vəhdət halında, dərindən təhlildən keçirilmişdir. Nüfuzların, titulların illərlə formalaşdırılmış toxunulmazlıq tilsimi cəsarətlə sındırılmış, süni tərif buzları əridilmişdir. Sabir Rüstəmxanlı ədəbi tənqidin yedək gəmisinə çevrilməsinin, kəsərini, obyektivliyini itirməsinin, məddahlıq ruhunun qəti əleyhdarı kimi çıxış etmişdir". [11, s. 10]

Sabir Rüstəmxanlının müsahibələri müxtəlifliyi ilə fərqlənir. Bu müsahibələr özünü dialoq şəklində (müsahibə-dialoq), müəllifin öz düşüncə və fikirlərini əks etdirməklə (müsahibə-monoloq), başqa bir əsər haqqında fikrini bildirərkən verdiyi müsahibə (müsahibə-rəy), sadəcə söhbət şəklində, ekspress-sorğu və s. şəkillərdə özünü büruzə vermişdir. Məsələn, Sabir Rüstəmxanlının "Əsərlərin dili ilə" [6] rubrikasında verdiyi müsahibə müsahibə-dialoq şəklindədir. Ədib bu müsahibə-dialoqda "Sevgim-sevincim", "Gəncə qapısı", "Ömür kitabı" "Xətai yurdu", "Atamın ruhu", "Ölüm zirvəsi", "Sunami" və s. kitabları haqqında

mənzərə yaratmağa nail ola bilir. Məsələn, “Sabir müəllim, 1971-ci ildə “Tanımaq istəsən” sualını kimə ünvanlamısız, kimi tanıtmaq istəyirdiz?” sualına ədibin cavabı kitabın mahiyyətini oxucuya çatdırmağa nail olur: “...Kitabın ümumi məzmunu isə bir vətəndaşlıq səciyyəsi daşıyır. Cavan söz adamı, şeir həvəskarı kimi gəlmişəm bu meydana. Əgər məni tanımaq istəyirsənsə, bu kitabı oxu – kitabın qayəsi budur. Bu kitab şeirə bir vəsiqəm, ədəbiyyata bir vətəndaşlıq pasportum idi.” [6]

# III FƏSİL

## SABİR RÜSTƏMXANLI NƏSRİNİN PROBLEMATİKASI, JANR MÜXTƏLİFLİYİ VƏ XÜSUSİYYƏTLƏRİ

### III. 1 Sabir Rüstəmxanlı nəsrində kiçik janr formaları

Sabir Rüstəmxanlının qələmə almış olduğu povest və hekayələr problematika baxımından geniş dairəni əhatə edir. Bu dairəyə məhəbbət təsviri, sevgi üçbucağı, cəmiyyətdə doqma kimi qəbul edilən bəzi adətlərə qarşı insanların çarəsiz qalmasının səbəbləri, xüsusilə də qadınların cəmiyyətdə özünə yer etmiş, dağılmayan kanonlarla mübarizə apara bilməməsi, qadınlar və kişilər arasında yaşanan yasaq eşqin yaratdığı sarsıntılar, ictimai və sosial problemlər və s. daxildir. Məsələn, Sabir Rüstəmxanlının "Düşmən görüşü" povestində əsas iştirakçısının bütöv bir dövrü, qəhrəmanın düşmənlə görüş anına qədərki keçirdiyi sarsıntılar təsvir edilir. Səmədin sovet hakimiyyətinin ilk illərindən ciddi düşmən kimi tanıdığı Nəcəfqulu xanla görüşə tələsməsi, Nəcəfqulu xanla Səmədin düşmənçiliyinin sinfi xarakter daşıması amili qabardılmışdır. Povestdə əsas iştirakçı olan Səmədin ətrafında cəmləşən və ona zidd cəbhədə dayanan Nəcəfqulu xanla münasibəti də əksini tapmışdır.

Fövqəladə qəhrəmanlar təsvir etməyə cəhd etməyən povest əhvalat və hadisələrin əsas iştirakçısının həyatının bütöv bir dövrünü və bu dövrün bir hadisə və əhvalatlarını, ictimai adətlərini əks etdirir. Bu baxımdan, Sabir Rüstəmxanlının "Babadağ ziyarəti" povestində qəhrəmanı narahat edən məhz yaşadığı mühitin, dövrün, cəmiyyətin əxlaqi-mənəvi həyatındakı deformasi-

yaların baş verməsi, ictimaiyyətin bütünlüklə baş verənləri susqunluqla qarşılaması probleminə nəzər salınmışdır. Povestin qəhrəmanı deformasiyaya uğramış cəmiyyətə qarşı etiraz səsini qaldırmağa nail ola bilir. Müqəddəs yer sayılan "Babadağ ziyarəti"nə yollanır, burada Tanrı ilə baş-başa qalmaq istəyi, ruhun təmizlənməsi, mühitin saflaşması və s. povestdə əksini tapa bilir. Ədibin qələmə aldığı əsərlər və "bədii sənəti dünyanın mənəvi zənginliklərini özünə mənimsəmiş bir poetik yaradıcılıqdır. Fəqət dünyanı içən bu poeziya sanki üç mərhələni yaşayır: "*Dünya*", "*Azərbaycan*"dan keçərək "*Əsər*" olur." [14, s. 48]

Sabir Rüstəmxanlı "Süd vannası" hekayəsini Poltava çöllərinin gözəlliyi ilə başlayaraq, Əli ilə Lesyanın sevgi macəralarına, daha doğrusu, insanın ruhi aləminə oxucunun diqqətini yönəltməyə nail ola bilir. Hər iki qəhrəman mövcud həyat, məişət tərzindən uzaq, sərbəst, "mədəni" olma və adət-ənənələrdən uzaq yaşamağı üstün tutan "müstəqil düşüncəli insanlar"dır. Lesya ilə qısa "eşq" yaşayan Əlinin cəmiyyət tərəfindən qəliblənmiş adət-ənənələrə boyun əyərək, geri doğma vətəninə, ailəsinə qayıtması qəhrəmanın cəmiyyətdə özünə yer etmiş, dağılmayan kanonlarla mübarizə apara bilmədiyinə işarə edir.

Sabir Rüstəmxanlının "Bal ayı" hekayəsində də "bal ayı"na yollanmış Marina ilə hekayənin qəhrəmanı arasındakı "məhəbbət" əks etdirilmişdir. Hekayə məhdud bir zaman, həmçinin, məkan daxilində mürəkkəb olmayan, hadisələrin dolğun təsvir etməsi ilə diqqəti cəlb edir ki, bu da onu "balaca romanlar"a bənzədilməsinə əsas verir. Hekayənin qəhrəmanı ədəbiyyat, mədəniyyət sahəsinə aid məsələlər ətrafında mübahisə aparır, etdiyi tərcümədən şeir parçası söyləyir, Mannın ev muzeyinə gedir, Mann yaradıcılığı, həmçinin, Nobel mükafatı ətrafında diskurslar aparır. Hekayədə xarakterləri qısa, aydın cizgilərlə verməyə qadir olan S. Rüstəmxanlı, həmçinin, Marinanın da daxili, mənəvi aləmini, ərinin bal ayına gəlmədiyi üçün iztirab keçirməsini canlandırmışdır.

Sabir Rüstəmxanlı nəsrində povest və hekayə janrlarında yazılan bədii nümunələr təsvir olunan real həyat materiallarına

əsaslanaraq, xarakterik hadisənin məhdud zaman və məkan daxilində, quruluş etibarilə mürəkkəb olmayan tərzdə əks etdirir. Sabir Rüstəmxanlının qələminə məxsus olan povest və hekayələr kompozisiya baxımından sadəliyi ilə diqqəti cəlb edirlər. Sabir Rüstəmxanlı təsvir etdiyi hadisələri ədəbiyyatın daxili qaydalarına uyğun olaraq əlaqələndirməyə nail olur. Sabir Rüstəmxanlı yaradıcılığında böyük hekayə adlanan povest janrında qələmə alınmış əsərlər diqqəti cəlb etməkdədir. Sabir Rüstəmxanlının qələmə aldığı "Atamın ruhu", "Düşmən görüşü", "Dünya təmizlənir", "Babadağ ziyarəti" kimi povestlərdə hadisələrin bir neçə xətlə inkişaf etməsi, həyat hadisələrinin əhatə dairəsi geniş, surətlərin təsviri daha dolğun olması özünü göstərir. Məlumdur ki, hadisələri təsvir üsulu baxımından povestlə hekayə arasında bir yaxınlıq var. Povest janrı hekayə janrından fərqli olaraq konkret bir hadisəni deyil, əsərin baş qəhrəmanının bütöv bir dövrünü, yaxud konkret dövrlə bağlı bir çox hadisələri işıqlandırır. Povest janrında həyat hadisələri hekayə janrına nisbətən geniş şəkildə təsvir edilir. Povestdə hekayədən fərqli olaraq, təsvir olunan surətlərin sayı hekayədəki surətlərin sayından bir neçə dəfə çox, hadisələrin əhatə dairəsi geniş, surətlərin təsviri dolğun və təfsilatlı, süjet xətti iki, bəzən də çox olur. Sabir Rüstəmxanlının "Astar" kitabına daxil olan bir sıra hekayələr də ("Süd vannası", "Bal ayı" hekayələri və s.) "balaca roman"lara bənzərliyi ilə seçilirlər. Sabir Rüstəmxanlı yaradıcılığında hekayə janrı həyat hadisələri ilə yanaşı bəşəri problemlərə bədii nüfuzu və bədii keyfiyyətləri ilə fərqlənir. Sabir Rüstəmxanlı dövrün xronoloji, ictimai-siyasi, ədəbi proseslərini məhdud bir zaman, məkan daxilində real həyat materiallarına əsaslanaraq quruluş etibarilə mürəkkəb olmayan, xarakterik bir hadisəni, konkret bir əhvalatı süjet baxımından yığcam, bitkin təsvir etməyə nail olur. Müəllif təxəyyülündən doğan gərgin və əyləncə həyatı, nə vaxtsa baş vermiş hadisənin təsviri, qəhrəmanların daxili ikiliyi, ictimai münasibətlərin şəxsi maraq dairəsində həlli sırf hekayə janrına aiddir. S. Rüstəmxanlı təsvir etdiyi xarakterləri qısa, aydın cizgilərlə

verməyə, insanların daxili, mənəvi aləmini açıqlamağa nail olmuşdur.

Müəllifin "Babam ölümdən necə xilas oldu?" hekayəsinin kompozisiyasının sadəliyi və süjet xəttinin qısa olmasına baxmayaraq, təsvir edilən hadisələr sistem halında oxucuya təqdim edilmişdir. Burada insan həyatının ayrılıqda götürülmüş konkret bir dövrünün işıqlandırılması və 1937-ci il hadisələrinə baxış özünü göstərir. Müəllif millətə qarşı aparılan bu siyasəti incəliklə açıqlamağa nail ola bilmişdir: "Ostayırdan Molla Məlik, Molla Mirzə, Horavardan Molla Nemət, Eçardan Molla Bəhlul və neçə-neçə başqa din xadimi müxtəlif bəhanələrlə həbs edilib Qazaxıstana, Sibirə sürgün edilmişdilər." Hekayədə Adışirin kişiyə ağır vaxtda kömək göstərən Əmiraslan kişinin oğlunun cəsarəti millətin məhv olmadığına işarədir. Göründüyü kimi, hekayədə S. Rüstəmxanlının qələmə aldığı konkret hadisə bir və yaxud bir neçə şəxslə əlaqədar baş verən hadisələri əhatə edir.

Sabir Rüstəmxanlının "Külqabı" hekayəsi də sadə, real və yığcam şəkildə hadisələri əks etdirməsi ilə diqqəti cəlb edir. Hekayədə həyatda baş vermiş hadisələrin inikas etdirilməsi konkretləşdirilmiş oxucu qrupuna ünvanlana bilər. Çünki, hekayədə təsvir edilən hadisələr milli mentalitetə uyğun olmayan şəkildə təsvir edilmiş, bu hekayədə də Avropa ədəbiyyatının təsiri açıq şəkildə duyulur. Məsələn, "kirayə mənzilimin açarlarından biri də ondadır. Məni yuxudan oyatmamaq üçün qapının zəngini çalmır. Hər gün sabah erkən işə getməyə evlərindən çıxıb öncə mənə baş çəkir. Səhərin şirin yuxusunda qapını nə vaxt açdığını, nə vaxt soyunduğunu hiss eləmirəm. Yorğanı qaldırıb yanıma uzanan və uzanan kimi də mənə sarılan qızın küçədən gətirdiyi soyuqluqdan diksinirəm. Ağzımı açmağa imkan vermədən qulağıma "donmuşam, isit məni" deyir." Təsvir edilən bu epizodda hələ evli olmayan insanların münasibətləri təsvir edilmişdir.

Sabir Rüstəmxanlının povest və hekayələrində hadisələrin təsviri maraqlı şəkildə təqdim edilmişdir. Povest və hekayələrdə təsvir edilən hadisələr canlı insan obrazları, bəzən də əşya, bəzən də peyzaj vasitəsilə özünü göstərə bilmişdir. Məsələn,

S. Rüstəmxanlının "Qurban" hekayəsində Kamil kişinin timsalında bir insanın keçirdiyi iztirabla yanaşı, kənd həyatı təsvir edilir. Bu hekayədə obrazın fəaliyyəti hərtərəfli açıqlanmasa da, kənd mühiti peyzaj vasitəsilə oxucunun gözündə canlandırılır: "Taxıl biçini kəndi bir böyük ailəyə çevirir. Öynə çağı sovruq küləyi başlamazdan öncə, axşamlar iş bitəndə xırmanın qırağında qurulmuş talvarların altında süfrələr açılır, burda işləməyənlər də evindən yemək gətirib sovruqçulara qoşulur, süfrə zarafatının arası kəsilmir." Sabir Rüstəmxanlının povest və hekayələrinin ədəbi dil tərkibi zənginliyi ilə diqqəti cəlb edir. Müəllif povest və hekayələrinin dilində neologizmlər, arxaizmlər, vulqarizmlər, dialektizmlər və s. istifadə etmişdir. Müəllifin qurban kəsmə və ya qurban vermə amilini qabartdığı "Qurban" hekayəsində oğlunu itirmiş atanın, Kamil kişinin danışığı ilk növbədə, sadə danışıq dili ilə, daha doğrusu sadə cümlələrin istifadə edilməsi ilə diqqəti cəlb edir. Lakin müəllif fikirlərinin bədii təsir gücünü artırmaq məqsədilə yerdəyişməyə, yəni qrammatik normanı pozmağa yol vermişdir: "İstədiyin bu idi? Mən istəmişdim onu, ya özün vermişdin? İndi dincəl! Sən güclüsən, hər şey sənin əlindədir,- deyə əzməliydin məni? Sənin göylərinin boşalması üçün mənim oğlum qurbanlıq olmalıydı?"" Şeir üçün daha səciyyəvi əlamət olan inversiya (yerdəyişmə) əslində qrammatik normanın pozulmasıdır ki, bu bədii ədəbiyyatda bədii təsiri gücləndirmək üçün yol verilə bilən məqsədli pozulmadır.

Sabir Rüstəmxanlının hekayələrindəki obrazlar qalereyası müxtəlif olduğu kimi, yadda qalandır. Məsələn, "Rembo" hekayəsinin süjetinin inkişafında Rembo surətinin dolğun və real təsviri diqqətdən qaçmır. Məhəllənin bomju olan, evlərin zibilini yığıb aparan, müqabilində bir manat alan Rembonun acınacaqlı həyatı müəllif tərəfindən qələmə alınmışdır. Onun obrazı incə ştrixlərlə oxucuya çatdırılmışdır. Müəllif Rembonun portretini də hekayədə yaratmağa nail ola bilmişdir: "Orta boylu, dolu bədənli, ağır-ağır və bir azca irəli əyilə-əyilə, başı aşağı gəzən bir adam." Müəllif qəhrəmanın adının mənasına da aydınlıq gətirmişdir. Rembo adını ona əslində "Qarabağ müharibəsində" ve-

rilməsi S. Rüstəmxanlı tərəfindən vurğulanır. "...Maşını minaya düşüb, ağır yaralanan" Rembonun zibil yığıb daşıyaraq müqabilində aldığı bir manatları arvadı gəlib əlindən alması da ailə dəyərlərin laxladığına işarədir. Yaşadığı həyat tərzindən narazı olan Rembonun ağır həyatının təsviri müəllif tərəfindən belə açıqlanır: "Və onun başıaşağı gəzməsinin səbəbini anladım. O, gözlərindəki ağrını və yaşadığı faciələrin izlərini adamlardan gizlədirdi." Müəllif ağır həyata məhkum olmuş Rembonun həyat tarixçəsinə nəzər salaraq, onu real həyat hadisələri çərçivəsində təsvir etməyə qadir olur. Rembonun "arabayla küçəni keçəndə "KamAz" vurması" da ağır həyat tərzi keçirən nakam qalmış ömrün faciəsi kimi oxucuya təqdim edilir. Sabir Rüstəmxanlının hekayələrində təsvir edilən obrazlar müxtəlif təbəqələrin nümayəndələri və müxtəlif sahələrin insanları kimi təqdim edilir. Məsələn, "Daş rəng" hekayəsinin qəhrəmanı Dəmir ixtisasca geoloqdur. Dəmirin nakam məhəbbətini xatırladan, vağzalda rastlaşdığı qız da sadə təbəqənin nümayəndəsidir. S. Rüstəmxanlının "Boz sərçə" hekayəsində isə Qəribalının, arxeoloji qazıntı işləri aparan tarixçi oğlu Kamranın obrazları hekayədə canlandırılmışdır. "Boz sərçə" hekayəsində biz "yaddaşı"n obraz şəklində təqdimini müşahidə edirik. Qəribalının yaddaşına ilişmiş xatirələrin dirçəlməsi üçün Kamranın cəhdləri maraq kəsb edir.

## III. 2 S. Rüstəmxanlı yaradıcılığında "kiçik həcmli roman"lar

Sabir Rüstəmxanlı yaradıcılığında dövrünü, hər hansı bir epoxanı təsvir etmək üçün kiçik həcmli romanlara, yəni "balaca romanlar"a üstünlük verməsini müşahidə etdik. "Balaca romanlar"a maraq qələm sahiblərinin iri həcmli romanların qələmə alınması və oxunması dövrünün bitməsi ilə əlaqələndirmələri ilə də bağlıdır. Lakin "balaca romanlar"ı qələmə alan müəlliflər bütün ideyanı, məzmunu, süjeti, münaqişəni qələmə aldıqları əsərlərdə qısa şəkildə təqdim etməyi məqsədəuyğun hesab edirlər. Sabir Rüstəmxanlının "Astar" kitabına daxil edilən romanlar

Azərbaycan ədəbiyyatına xas “balaca romanlar” janrının ənənəsini davam etdirirlər. “Balaca romanlar”da hadisələr bir ailənin və ya bir insanın həyatına əsaslanır. Qeyd etməliyik ki, bu əsərlər əsl sosial gündəlik romanlar deyil. “Balaca romanlar” ideoloji əhəmiyyətli problemləri də daxil etməklə, insan həyatından olan aktual problemləri əks etdirə bilir.

Sabir Rüstəmxanlının qələmə almış olduğu “balaca romanlar”ın problematikasını cəmiyyətdə büdrəyən, çətinliklərlə üzləşən insanlara yardım əlinin uzadılmaması, insanların daima üzləşdikləri sosial problemlər əhatə edir. Məsələn, Sabir Rüstəmxanlının “Uşaqlığa dəyən güllə” “balaca roman”ında təsadüf nəticəsində faciə törətmiş Gündüzün hətta anası Gülnaz tərəfindən başa düşülməməsi, anasının ona qarğış etməsi cəmiyyətdə yıxılan adamlara əl uzadılmamasının nəticəsi kimi əksini tapır. Biz hətta balaca bir uşağın bütün hadisələri dərinliyinə varmasını da müşahidə edirik: “...bir-iki həftədə o böyümüşdü, yaşıdlarının heç vaxt duya bilməyəcəkləri, uzun, ağrılı, xəcalətli bir yoldaydı. Çiynində və ürəyində ağır bir yük vardı, nə qədər çalışırdısa onu ata bilmirdi.” “Astar” əsərinin ideyası, mövzusu bir insanın daxili aləminə köçürülmüşdür. Sənədlərini Universitetin filologiya fakültəsinə verməsinə baxmayaraq, dörd imtahandan (üç əla, bir dörd) “ən yaxşı bal yığmış abituriyentlərdən” biri kimi Şərqşünaslıq fakültəsinə daxil olmuş Abdullayev Elbəy Allahverdi oğlunun əsərin ilk başlanğıcında “könülsüz ərəb dili mütəxəssisi” olması, lakin əsərin qəhrəmanının öz istəyi üzərində dayanması oxucuya acı reallıq kimi təqdim edilir. Ümumiyyətlə, kiçik həcmli “Astar” əsərinin xronotopu diqqəti cəlb edir. Belə ki, ali məktəbə sənəd verərkən üzləşdiyi problemlərin təsviri, təyinatla kitabxana müdiri təyin edilməsi və s. hadisələrin təsvirində məkan da, zaman da əsərin qəhrəmanının hiss və həyəcanlarında, düşüncəsində əksini tapa bilmişdir. Əsərdə Elbəyin həyat yolunun məntiqi davamlığı, münaqişəli məqamları digər surətlərin yardımı ilə qəhrəmanın simasında təsvir edilmişdir. Sabir Rüstəmxanlı məhz Elbəyin simasında oxucunu məkan və zaman

müstəvisində hərəkət etdirməklə, zaman daxilində (keçmiş, bu gün və gələcək) düşüncələrə daldırmağa nail olur.

Sabir Rüstəmxanlının "balaca romanlar"ından olan "Uşaqlığa dəyən güllə", "Astar" kimi əsərləri həcmcə kiçik, obrazların təqdimatının isə qısa və konkret olması ilə diqqəti cəlb edir. Sabir Rüstəmxanlı təsvir etdiyi "balaca romanlar"da həyat hadisələrinin bir-birilə əlaqələndirilməsinə, yəni müəyyən bir sistemdə qurulmasına nail ola bilmişdir. Sabir Rüstəmxanlının "Uşaqlığa dəyən güllə" "balaca roman"ın kompozisiyası iki fəsildə inkişaf etdirilmişdir. "Uşaqlığa dəyən güllə" "balaca roman"ın birinci fəsli "Qançılıq", ikinci fəsil isə "Barışıq" adlanır. Maraqlı, düşündürücü mövzu ətrafında süjet xəttini inkişaf etdirən müəllif oxuculara təsadüflərin insan həyatında oynadığı rolu, insan həyatını dəyişdirməyə qadir olmasını qabarıq şəkildə göstərməyə cəhd edir. Belə ki, Gündüzün təsadüf nəticəsində dostu Arifi öldürməsi və hadisələrin bundan sonrakı inkişafı, daha doğrusu Gündüzün keçirdiyi iztirablar, düşüncələr üzərində əsərin süjeti, kompozisiyasında əksini tapmışdır.

S. Rüstəmxanlı qələmə aldığı "balaca roman"larında kompozisiyanın ünsürlərindən istifadə etmişdir. Daha çox peyzaja müraciət etmiş müəllif "balaca roman"larında bunu məharətlə təqdim edir. "Uşaqlığa dəyən güllə" "balaca romanı"nda müəllif tərəfindən peyzaj maraqla təqdim edilmişdir: "Güneydən, quzeydən balaca dağ çaylarıyla ayrılan və Qoşun yurdunun dəvə hörgüsü kimi dalğalandığı balaca düzəngahda İlxıçı kəndi Salınıb. Qaramay və Ağçay Qoşun yurdunun günçıxanında birləşib, dairəni qapadır." [17, s 61-62] Sabir Rüstəmxanlının "Uşaqlığa dəyən güllə" "balaca romanı"nda epiloq "Sonra" başlığı altında təqdim edilmişdir. Müəllif bu hissədə əsər boyu qaldırdığı məsələlərə yekun vura bilir. Gündüzün təsadüf və qəza nəticəsində qətlə yetirdiyi Arifin atası Adilin Gündüzə yetirə biləcəyi zərbənin qorxusuna aydınlıq gətirilmişdir. Belə ki, Adilin Gündüzlə rastlaşdığı zaman heç nə etmədən yoluna davam etməsinin təsviri epiloqda hadisələrin sonunun barışıqla qurtarmasına işarə edir.

“Balaca romanlar”ın süjet və kompozisiya xəttinə diqqət yetirdikdə, bir amil diqqəti xüsusi cəlb edir. Belə ki, “balaca romanlar” tarixi keçmişə müraciət etmir, hadisələr tarixi keçmişə həsr edilmir. Həmçinin tarixi personajlardan uzaq olur. “Balaca romanlar”da hadisələr folklor vaxtından, sınaq müddətindən və qəhrəmanın formalaşmasından uzaq olur. “Balaca romanlar”ın bir xüsusiyyəti də zamanın sıxılmasıdır ki, bu da əsərin böyük olmayan həcmi ilə əlaqəlidir. İki fəsildən ibarət olan “Uşaqlığa dəyən güllə” əsərində də zamanın sıxlaşması özünü göstərir. Birinci fəsil “Qançılıq”, ikinci fəsil isə “Barışıq” adlanan bu bədii nümunədə maraqlı, düşündürücü mövzu ətrafında süjet xəttini inkişaf etdirən müəllif oxuculara təsadüflərin insan həyatında oynadığı rolu, insan həyatını dəyişdirməyə qadir olmasını qabarıq şəkildə göstərməyə cəhd edir.

“Balaca romanlarda” bədii məkan fraqmentardır ki, bu da əhatəli təsvir etməni lazımsız hesab edir. “Balaca romanlar”da bədii məkan incəliklə təsvir edilir. Bu müəllifin əhəmiyyət kəsb edən və xüsusi bir yükə malik olan bədii məkanıdır. Bu məkan müəllif fikrinin açıqlanmasına yardımçı olur. S. Rüstəmxanlının ilk növbədə, özünün kiçik həcmli olması ilə diqqəti cəlb edən “Astar” əsəri də bədii zaman və bədii məkan baxımından “balaca romanlar”la oxşardır. Ali məktəbə sənəd verərkən üzləşdiyi problemlərin təsviri, təyinatla kitabxana müdiri təyin edilməsi və s. hadisələrin təsvirində məkan da, zaman da əsərin qəhrəmanının hiss və həyəcanlarında, düşüncəsində əksini tapa bilmişdir. Əsərdə Elbəyin həyat yolunun məntiqi davamlığı, münaqişəli məqamları digər surətlərin yardımı ilə qəhrəmanın simasında təsvir edilmişdir. S. Rüstəmxanlı məhz Elbəyin simasında oxucunu zaman daxilində (keçmiş, bu gün və gələcək) düşüncələrə daldırmağa nail olur. “Balaca romanlar”a xas qəhrəmanlar kimi Elbəyi də mövcud reallıqların müstəqil tərəqqisi olsa da, mövcud olan sosial ziddiyyətlərə “düzəlişlər” etməyə cəhd etsə də, reallıqlarla mübarizə aparmağa qadir ola bilmir.

Sabir Rüstəmxanlının qələminə məxsus olan “balaca roman”ların dil tərkibi, istifadə etdiyi ifadə və təsvir vasitələri ma-

raq doğurur. Belə ki, onun əsərlərinin dil tərkibi arxaizmlərlə, neologizmlərlə, varvarizmlərlə, vulqarizmlərlə, terminlərlə, dialektizmlərlə zəngindir. Məsələn, "bu nə hələm-qələm adamdır. Sifariş göndərib gəlmişəm, amma bəhanə gətirir" [17, s. 101] cümləsində müəllif təsvir etdiyi obrazın cüvəllağı, fırıldaq, haramzadə, cəncəl insan olmasını göstərmək üçün vulqarizmə müraciət etmişdir. Müəllif özü də "hələm-qələm" insanın kim olması amilinə aydınlıq gətirmişdir, yəni sözünün üstündə durmayan bir kəs olmasını açıqlamışdır. Müəllif vulqarizmlərə tez-tez müraciət etməsi ilə diqqəti cəlb edir: "Dərəbəylikdi bəyəm! Hansı köpək oğludur gəlmə-yerli söhbəti salan?" [17, s. 80]

Sabir Rüstəmxanlı qələmə aldığı bütün əsərlərində inversiyaya müraciət etmişdir. Müəllif əsərlərinin bədii təsirini gücləndirmək məqsədi ilə məqsədli şəkildə qrammatik normaları pozur. Məsələn, "qalmışam arvadların arasında. Tək!" [17, s 200], "Baxıram dağlara, qəlbim atlanır!" [17, s 222] və s.

"...Hoydu-hoyduya götürürlər məni" [17, s. 200], "ürəyə qalsa, bir evnəyə dolanıb qalxaram yaylaqlara" [17, s. 222] və s. kimi frazeoloji birləşmələrdən müəllif təsvir etdiyi obrazın nitqini fərqli şəkildə təqdim etmək üçün istifadə edir. İstifadə edilən "hoydu-hoyduya", "evnə" kimi sözlər ədəbi dilə daxil olmayan, yalnız müəyyən mühitdə, ərazilərdə işlənən sözlərdir. Müəllif "hoydu-hoyduya" müraciət etməklə insanın məsxərəyə qoyulmasını, ələ salınmasını göstərir.

Sabir Rüstəmxanlı istifadə etdiyi varvarizmlər və dialektizmlərdən məhz təsvir etdiyi surətlərin dilində, yəni nitqlərində istifadə etmişdir. Müəllifin qələmə aldığı "balaca roman"ların müəllif nitqində varvarizm və ya dialektizmlərə rast gəlinmir.

"Balaca roman"larında Sabir Rüstəmxanlı təsvir etdiyi həyat hadisələrini təqdim etdiyi obrazlar vasitəsilə əks etdirir. Təsvir etdiyi obrazlar həm fərdiləşdirmə, həm də ümumiləşdirmə yolu ilə təqdim edilmişdir. "Uşaqlığa dəyən güllə" "balaca roman"ında Gündüzün keçirdiyi iztirablar onun obrazını gözümüzdə canlandırmışdır. Müəllif məhz fərdiləşdirmə yolu ilə təqdim etdiyi obrazında balaca oğlanın fərdi xüsusiyyətlərini özünəməx-

sus şəkildə təqdim etmişdir. Gündüzün düşüncələri ilə müəllif insanın özündən asılı olmayaraq yaşından əvvəl yaşlana biləcək amilini qabarda bilmişdir. Gündüz uşaq kimi deyil, artıq dünya görmüş insanlar kimi düşünməyə məcbur olur: "...xəyalında Arifin gözlənilmədən qana bələnməsi yenidən və bütün dəhşəti ilə gözünün önündə canlandı. Onu faciənin böyüklüyündən, iki yaxın, qohum ailənin üzləşdiyi acıların ağırlığından, ölüm hədəsindən, intiqam alınacağından daha artıq sarsıdan və əzib paramparça edən yaxın dostunun ölməsiydi". [17, s. 32-33] Müəllif Gündüzün obrazı ilə uşaqlığını yaşaya bilməyən insanın, Arifin epizodik surəti ilə isə təsadüf nəticəsində məhv olmuş insanın surətini canlandırmışdır.

Sabir Rüstəmxanlı qələmə almış olduğu "balaca roman"larında həm müsbət və mənfi obraz, həmçinin də əsas və epizodik obraz yaratmağa nail ola bilmişdir. Məlumdur ki, epizodik surət əsərin mərkəzi xətti ilə əlaqəsi zəif olan, hadisələrin inkişafına ciddi təsir göstərməyən surətdir. "Uşaqlığa dəyən güllə" "balaca roman"ında epizodik surətlər olan Əzzulla, Qoçəli, Gülnaz, Əvəz və başqaları əsas qəhrəman olan Gündüzün obrazını, xarakterini açmağa yardım edən surətlər kimi təsvir edilmişdir. Adıgözəl, Böyükkişi kimi obrazlar müsbət obraz səviyyəsində, barışıq, sülh tərəfdarı kimi təqdim edilmişdilər. Oğlunu itirmiş ata obrazı olan Adilin obrazı da müəllif tərəfindən incəliklə işlənilmişdir. Əsərin də məhz Gündüzlə qarşılaşması və ona zərər verməməsi səhnəsi ilə bitməsi ibrətamizdir. Səhnədə Adilin bir ata kimi obrazının, Gündüzün isə hələ də uşaqlığını bürümüş qorxu təbəqəsi ilə yaşayan obrazının təqdimi maraq doğurur: Gündüz hələ də tərpənə bilmirdi, handan-hana geri çevrildi, yox Adilin yadına tüfəng-filan düşmürdü, atın üstündə geriyə gərilmiş vəziyyətdə başı aşağı uzaqlaşırdı...

Neçə illik qorxu girdabı fırlana-fırlana Gündüzü sahilə atmışdı." [17, s. 131]

Yazıçı "Uşaqlığa dəyən güllə" "balaca roman"ında qorxunu obraz səviyyəsinə qaldıra bilmişdir. Əsər boyu qorxunu həm baş

qəhrəman Gündüzün obrazında, həm də digər obrazlarda görə bilirik.

## III. 3 Sabir Rüstəmxanlı nəsrində böyük janr formaları

S. Rüstəmxanlı intensiv şəkildə çoxtərkibli janr məzmununa malik olan roman janrına insanın onu əhatə edən varlıqla müxtəlif əlaqələrini, insan xarakterlərinin mürəkkəbliklərini, mürəkkəb həyat proseslərini dolğunluğu ilə əks etdirməsi baxımından müraciət etmişdir. S. Rüstəmxanlı qələmə aldığı romanlarda cəmiyyətdə cərəyan edən prosesləri əks etdirməklə yanaşı, eyni zamanda dövrün ictimai-siyasi, mənəvi-əxlaqi problemlərini, tarixi keçmişimizlə bağlı hadisələri hərtərəfli və dolğun şəkildə əks etdirməyə nail olur. Sabir Rüstəmxanlının qələmə aldığı romanların mövzu və problemləri xanlıqlar dövrünün təhrif olunmuş siyasi mənzərəsi və ziddiyyətli mərhələsini ("Ölüm zirvəsi" romanı), rəhbərlik etdiyi qurumun qorunması, ölkədə baş verən siyasi olayların dəyərləndirilməsi ("Sunami" romanı), keçmişə qayıdış, tarixi yaddaşın məhv olmaması ("Akademikin son kitabı" romanı) və s. kimi aktual məsələləri təşkil edir.

Sabir Rüstəmxanlı romanlarının problematikası müəllifi narahat edən həyat hadisələrini əhatə etmişdir. Müəllif həm şahidi olduğu, həmçinin də keçmişlə bağlı olan hadisələrə müraciət etmişdir. Əsərlərdə təqdim edilən hadisələrin mövzuları müasirlik və tarixiliklə, gələcəklə sintez şəklində, bəzən isə müstəqil mövzu, problem kimi təqdim edilir. Maraqlı məqamlardan biri də müəllifin keşmişdən götürdüyü hadisələri dövrü ilə əlaqələndirməsidir. Müəllifin qələmə aldığı romanlarda əsas mövzu ilə yanaşı yardımçı mövzuların da yaddaşlara həkk olunması danılmazdır. Məsələn, "Akademikin son əsəri" romanında əsas hadisələr akademik Ziya Şıxlı və Muradın həyat yolunu əhatə edir. Romanda yardımçı mövzunun təqdim edilməsi əsas mövzunun dərindən dərk edilməsinə şərait yaradır. "Akademikin son kitabı" romanında yardımçı mövzulardan olan mutasiya hadisələrinə olan münasibətin açıqlanmasında özünü göstərir. Romanda

müəllifin “sirr tam qorunur. Donor kimə yardım etdiyini bilmədiyi kimi, yardım edilən də toxum sahibini tanımır…” fikri dünyada gedən mutasiyanın başlanğıcını, həmçinin də nəticəsini gözümüzdə canlandıra bilir. Başlanğıc kimi “kişi toxumları”nın açıq-aşkar satışı nəticəsində kökdən uzaqlaşan insanların meydana gəlməsidir: “Sarı, qara, qızılı… Bir millətin övladları, amma hərəsi bir rəngdə. Gənclikdən bədənləri lət bağlamış, kəlpeysər, şişman, döşləri qadın döşü kimi sallaq, gözləri süzgün, əlləri nazik və tərli… Bir sözlə, erkəkliklə qadınlıq arasında bir varlıq. Bunlar da cəhənnəm. Danışıq ədaları lap müdhişdir. Ana dillərində sanki məcburiyyət üzündən və elə eybəcər, qarışıq ləhcələrlə danışırlar ki, adamın dəymişi qalmışkən kalı tökülür…” Sabir Rüstəmxanlı bu faciəni nazir Aslan müəllimin və onun oğlu Kamranın simasında millətin faciəsi kimi verməyə nail ola bilmişdir. Nəticə isə geni bəlli olmayan uşaqların böyüyüb cəmiyyətdə yer tutmalarıdır. Repressiya nəticəsində Şərqi Qazaxıstan, Çu vadisinə ata-babaları sürgün olunmuş Muradın gəlişi isə nicat yolu kimi romanda əksini tapmışdır. Genə, kökə bağlılıq məhz Murad obrazında qabarıq şəkildə özünü göstərmişdir. Sürgündə babasının nağıllarında böyümüş Murad kökə bağlı olan türk övladı kimi Azərbaycana qayıdır. S. Rüstəmxanlı cəmiyyətdə özünü büruzə verən mutasiyalara baxmayaraq, onun xalqın şüuruna tam sirayət etməməsinə işarə edir: “Qanın yaddaşı tarixin və kitabların yaddaşından daha qədimdir.” Qəhrəmanın Vətənə qayıdaraq babalarının gizlətdikləri əlyazmaların axtarışına çıxması məhz keçmişə qayıdışa işarə, tarixi yaddaşın məhv olmadığının göstəricisidir. Müəllif yardımçı mövzunun köməyi ilə qan yaddaşı amilinin əsas olmasını, qan yaddaşının zədələnməsi və ya təsirə məruz qalması ilə meydana çıxa biləcək fəlakətləri açıqlamağa nail olur.

Sabir Rüstəmxanlı müəllifi olduğu romanlarda əks etdirə bildiyi həyat materialları müəyyən prinsip və daxili qaydalar əsasında formalaşdırmağa nail ola bilmişdir. S. Rüstəmxanlının müəllifi olduğu romanlarında epiqraf, proloq, epiloq, lirik ricət

və peyzaj kimi kompozisiya ünsürləri sənətkarlıqla istifadə edilmişdir.

Azərbaycan romançılığında təbiətin təsviri, yəni peyzaj vasitəsilə yazarlar müxtəlif məqsədlərə nail olurlar. Bir tərəfdən, təbiətin harmoniya və kamilliyinin işıqlandırılması ilə oxucuların estetik hisslərinə müsbət təsir göstərilir. Digər tərəfdən isə təbiətin təsviri yazarlara digər məqsədlərə nail olmağa şərait yaradır. Belə ki, təbiətin təsviri vasitəsilə Vətənə məhəbbət hissləri açıqlanır, bəzi hallarda isə əsərdə emosional gərginliyi artıraraq müxtəlif hadisələrin həyəcanlılığı qabardılır. Təbiətin kamilliyinin və paklığının təsvirinə Sabir Rüstəmxanlının “Göy Tanrı” romanında rast gəlmək olar. Əsərdə təbiətin təsvir edilməsi romana özəllik verən xüsusiyyətlərdən biridir. Peyzajın romanda reallığı və hadisələrə təsir gücü ilə seçilməsi gözümüzdən qaçmır: “Çöl buludsuz olanda burdan gündoğanda Kaspinin suları görünürdü. Köçün düşdüyü yaylalardan dənizə enən dağ qatarlar, ormana bürünmüş aşırımlar yolsuz, izsiz, keçilməzdi. Yaylanın ortasında Savalanın qovun kimi şırım-şırım, qarlı təpəsi görünürdü. Köç Xəzərə doğru enən ormanlardan tutmuş Savalanın yayda-qışda əriməyən buz örtüyünə qədər, bulaqların çağladığı, balaca çayların şırıltıyla güneyə və quzeyə tələsdiyi, çəmənlərin adama boy vermədiyi bütün yaylalara səpələnmişdi.”

Sabir Rüstəmxanlı bədii ifadə və təsvir vasitələrindən aktual şəkildə istifadə edir. Tarixi sənədlər əsasında hadisələrin təsviri zamanı romanın fabula və bədii əsərin ideyasına təsir göstərən sənədli faktların, sənədlərin bədii əsərə daxil edilməsi də müşahidə edilir. Məsələn, dövlət hakimiyyəti orqanlarının, ictimai və partiya strukturlarının qərarları, yazışmalar, Cavad xanın rəsmi (diplomatik) yazışmalarından olan parçalar təsvir vasitəsi kimi “Ölüm zirvəsi” romanında istifadə edilmişdir. Bu təsvir vasitəsi ilə baş vermiş tarixi olayların, həmçinin ümumi tarixi vəziyyətin geniş mənzərəsi əksini taparaq, yaxın və ya uzaq keçmişimizin qaranlıq, az öyrənilmiş səhifələrinə işıq salınmışdır.

Sabir Rüstəmxanlının romanlarında lirik parçalardan istifadə etmə faktı maraq doğurur. Ədibin “Ölüm zirvəsi” romanında

lirik parçalardan istifadə etmə məqamı əsərə əlvanlıq gətirməklə yanaşı, tarixi şəxsiyyətlər olmuş Vaqif və Vidadi yaradıcılığından nümunələrin verilməsi ilə diqqəti cəlb edir. Vaqif yaradıcılığından,

Eşqə düşmək sənə düşməz, qocalıbsan, belə dur,
Belə işlər gənə Vaqif kimi oğlana düşər.

misralarının, Vidadi yaradıcılığından isə

Nə qədər olsa qoca gərçi Vidadi xəstə,
Gənə Vaqif kimi, əlbəttə, yüz oğlana dəgər

misraların təqdim edilməsi müəllifin əsərdə istifadə etdiyi maraqlı təsvir üsuludur.

Ədəbiyyatda lirik formalardan istifadə etmə məqamları özünü aşağıdakı şəkillərdə göstərmişdir:

1. Şifahi xalq ədəbiyyatı örnəklərinə müraciət - müəllifi olmayan lirik parçalar;
2. Şairlərin qələmə almış olduqları (müəllifi olan) lirik parçalar;
3. Əsərin qəhrəmanının qələmə almış olduğu lirik parçalar;
4. Müəllif tərəfindən yaradılmış lirik parçalar.

Sabir Rüstəmxanlı romanlarında müəllifi bəlli olan şairlərin qələmə almış olduqları lirik parçalardan daha çox istifadə edir. Lirik parçalara müraciət edən S. Rüstəmxanlı, həmçinin dövrün mənzərəsini canlandırmağa çalışır. Məsələn, “Ölüm zirvəsi” romanında Nicat Gəncəlinin şeir parçasında təsvir edilən dövrün Azərbaycan siyasətinin vəziyyəti lirik parça ilə açıqlanmışdır:

Yenə parçalanmışdır… Kim deyər, neyçün, niyə?
Düşmənin kündəsini öz əlimiz yayırdı.
Xanlarımız dayanıb yenə dimdik-dimdiyə,
Nə dərədə bir tülkü özünü bəy sayırdı.

Romanda "Dərviş baba"nın dediyi qəsidələrin də əsərdə əksini tapması nəzmin nəsr əsərlərində tətbiqi kimi dəyərləndirilməlidir.

S. Rüstəmxanlının romanlarında istifadə etdiyi priyomlardan biri də xalqımızın dünyagörüşü, mənəviyyatı, məişəti ilə sıx bağlı olan bayatılardan istifadə etmə məqamıdır. Folklorun kədərli, qəmli məzmuna malik olan bayatılarla yazıçı ideyası təbliğ edilir. Müəllifin "Ölüm zirvəsi" romanında Cavad xanın ölümündən sonra deyilən bayatının son iki misrası müəllif ideyasını əks etdirə bilmişdir:

Bu döyüşən Gəncədi,
Gülü pəncə-pəncədi.
Bir gün yada əyilmək
Min illik işgəncədi.

Sabir Rüstəmxanlının romanlarının bədii dil tərkibi neologizmlərlə, arxaizmlərlə, varvarizmlərlə, terminlərlə, vulqarizmlərlə və dialektizmlərlə zəngindir. Məsələn, "Göy Tanrı" romanının müxtəlif hissələrində, ayrı-ayrı obrazların dili ilə müəllif türklərin yenidən tarixin əsas aparıcı etnosuna çevrilmək naminə öz köklərinə müraciət edərək birləşməsinin zəruri olması tezisini səsləndirərkən "ərənlik", "alplar" kimi arxaizmlərə müraciət etmişdir: "Qurban bayramı elin-ulusun gözlədiyi, hər kəsin bir dilək, bir umudla bağlı olduğu bayramdı… Bu bayram həm də güc, ərənlik sınağıydı, hər il elin yeni alplarını ortaya çıxararaq tanıtdırırdı. Ən önəmli olan bu bayramın barış gücüydü."

Sabir Rüstəmxanlının romanlarında təsvir edilən hadisələr obrazlar vasitəsilə açıqlanır. Sabir Rüstəmxanlı yaradıcılığında surətlərin geniş anlamda işlənilməsi özünü insan surəti, əşya surətlərində, mənfi və ya müsbət surətlərdə və s. göstərə bilir. Obrazların isə həm məhdud, həm də geniş mənada təqdimi diqqəti cəlb edir. Sabir Rüstəmxanlı yaradıcılığında məhdud mənada obrazın işlədilməsi özünü konkret bir insanın obrazının təqdimində göstərir. Sabir Rüstəmxanlının 2005-2006-cı illərdə tarixi

mövzuda qələmə almış olduğu "Ölüm zirvəsi" romanında Gəncə hakimi olmuş Cavad xanın obrazı konkret bir şəxsin obrazının təqdimi kimi maraq doğurur. Cavad xan obrazı Vətəninə hücum etmiş qəsbkarlara qarşı sonadək vuruşmuş ən qeyrətli hökmdarlardan biri kimi diqqəti cəlb edir. Romanda Ziyad xan, Nadir şah, general Sisianov kimi obrazların əksini tapması həm konkret şəxslərin obrazlarının təqdimi və həmin şəxslərin tarixi şəxslər olmasına dəlalət edir.

Milli dəyərlərdən, köklərdən uzaqlaşma cəmiyyətin və insanların mənəvi-mədəni böhranını əks etdirən manqurtlaşmış insan obrazları diqqəti xüsusi cəlb edir. Bu obrazların romanlarımızda təsviri müxtəlif məqamlardan açıqlansa da, əsas məqsəd manqurtlaşmış insanların mənəvi aləminin açıqlanmasıdır. Sabir Rüstəmxanlının "Göy Tanrı" romanında manqurtlaşmış insanların, xüsusilə damarlarında türk qanı axanların öz söykökünə qarşı vuruşmalarının bir səbəbi başqa millətlə evliliklə əsaslandırılır. Əsərdə Elbilgə tərəfindən öldürülmüş Qutluğun xanımı olan çin qızı Li Şana münasibət maraq kəsb edir. Belə ki, əsərdə "yas qurtaran kimi Çinə gedən bir alış-veriş arğışına qoşuldu getdi. Ancaq ürəyinin altında Qutluğun kimsəyə bildirmədiyi üç aylıq cocuğunu da aparırdı. Yarım ildən sonra bir oğlu olacaqdı. İyirmi ildən sonra Qutluğun oğlu Çin ordusunda bölük başçısı kimi türklərin üstünə gələcəkdi" deməsi artıq öz söykökündən ayrı düşmüş insanların acı talelərini canlandırır.

Sabir Rüstəmxanlı obrazlarını xarakter səviyyəsinə yüksəltməyə qadir olur. Müəllifin "Akademikin son əsəri" romanında Ziyad Şıxlı obrazı həyat hadisələrinə yanaşması, hərəkət və davranışlarında təzahür edən fərdi xüsusiyyətləri əks etdirməyə qadir olan bir obraz kimi təqdim edilmişdir. Fərdi xüsusiyyətləri əks etdirmə xüsusiyyətləri nəzərə alınmış, Ziyad Şıxlı obrazının prototipi olması haqqında fikirlər irəli sürülmüşdür. Proobraz həqiqətən, həyatda yaşayan və bədii obrazın mənbəyinə çevrilən şəxs nəzərdə tutulur. "Akademikin son əsəri" romanının prototipi akademik Ziya Bünyadov olması haqqında da mətbuatda fikirlər yürüdüldü: "Ziyad Şıxlı adlandırdığı və prototipi hər an-

lamda Ziya Bünyadov olan romanda müəllif yenə də öz dəstxəttinə sadiq qalaraq özünü və qəhrəmanını narahat edən problemlər, genetik dəyişim, genefondun məhvinə yönəldilmiş siyasət aparan sovet rejimi, repressiyaların reallaşdırılması, arxivlərin açılması məsələsinə toxunur, bütün həyatı boyu tarixin qədim qatlarını araşdırmaqla məşğul olan bir akademikin həyatının son dönəmlərində KQB arxivlərində çalışması, qırmızı terrorun törətdiklərini meydana çıxarması, bununla bərabər, necə bir dövlət, millət, xalq fədaisi olması haqqında bəhs edir." [13] Əsərin baş qəhrəmanı olan akademik Ziyad Şıxlı özünün danışıq tərzi, elmi fəaliyyəti, yaşadığı həyat tərzi ilə akademik Ziya Bünyadovu xatırladırdı. Bu baxımdan da, oxucuları, həmçinin tədqiqatçıları qınamaq düzgün olmazdı. Romanda təsvir edilən Sara obrazının prototipi isə hamı tərəfindən tərk edilmiş Z. Tağıyevin qızı Sara olması vurğulanmışdır. "Akademikin son əsəri" [16, s. 320] romanında "şöhrətin zirvəsində olan atasını birdən-birə itirmiş, bircə günün içində xalqın sevimlisinin qızından xalq düşməninin qızına çevrilmiş" Sara obrazıyla repressiyaya uğramış insanların yarımçıq taleyi göstərilərək, xalqın tarixində yaşanmış o qorxunc tarixi olay xatırlanır. Müəllif repressiya və onun qurbanına çevrilmiş ailələrin taleyinə məhz Sara obrazı ilə işıq salmağa nail olur. Əsərdə tarixi faktların yer almasına toxunan AMEA-nın müxbir üzvü Tehran Əlişanoğlu qeyd edir ki, "və ümumən müəllif "Akademikin son əsəri"nin mətndə yaratdığı ideya gərginliyinin romandan daha üstün, romana-sığmazlığını görüb, tarix səhnəsində cərəyan edən hadisələrə əlavə bir vurğu (sanki remarka) ilə aydınlıq gətirməyə cəhd edir: "Bu roman Azərbaycan türklərinin üzləşdiyi yeni bir fiziki və mənəvi repressiyaya – genetik savaşa həsr edilib". [29] Azərbaycan xalqının üzləşdiyi fiziki və mənəvi repressiyaya qurbanı kimi Muradın sürgün olunmuş ailəsini, repressiya ağrısını daşıyan ailələrin keçirdiyi sarsıntıları Aysel və anası Səhər xanımın simasında görürük. Əsərin baş qəhrəmanlarından olan Muradın atası Əlicanın, onun nəslinin sürgün edilməsinin təqdim edilməsi Azərbaycan xalqının

doğma torpaqlarından, yurdlarından zor gücünə sürgün edilmiş insanların ümumiləşdirilmiş obrazlarıdır.

Hadisələri geniş səpkidə təsvir etmək hüququna malik olan roman tiplərinin yaranmasına səbəb olmayan, roman məzmununu dəyişdirən qarşılıqlı əlaqələrin forması, xüsusilə fabula və əsərin ideyasına təsir göstərən sənədin bütövlükdə əsərə daxil edilməsini romanda müşahidə edirik. “Ölüm zirvəsi” romanının quruluşu sənədli janrın elementlərini özündə ehtiva etməklə yanaşı, dolğunluq baxımından, bədii əsərə bədii elementi də daxil etmişdir. Məhz sənədin bədii əsərə bütövlükdə daxil edilməsi faktının bədii əsərin fabulasına və ideya əsasına təsirini S. Rüstəmxanlının “Ölüm zirvəsi” romanında müşahidə etmək mümkündür. Sənədli və bədii janrların qarşılıqlı əlaqələrinin bu forması maraqlı transsərhəd, keçici janr konstruksiyalarının yaranmasına səbəb olur. Bu baxımdan, tarixi şəxsiyyətlərlə, onların həyat və fəaliyyətinin təsviri ilə, tarixi hadisələrlə bağlı olan “Ölüm zirvəsi” romanından tarixi roman kimi bəhs etmək olar.

Sabir Rüstəmxanlının yaradıcılığında reallıqla qeyri-reallığın sintez şəklində təqdim edilməsini də müşahidə etmək mümkündür. Sabir Rüstəmxanlı qələmə aldığı digər romanlarından fərqli olaraq “Sunami” romanında irreal aləmlə real aləmi bir-birilə əlaqəli şəkildə verməyə nail ola bilmişdir. Oxucunun öhdəsinə əsərindəki real və irreal dünya arasındakı sərhədləri müəyyənləşdirməyi buraxmağa nail ola bilir. Bununla da, oxucusunu real aləmdən irreal aləmə keçidi məhdudlaşdırmaq funksiyası ilə yükləməyərək, sərbəstlik verir. L. Fidlerin real və irreal arasındakı sərhədləri aradan qaldırmaq problemini irəli sürməsi məhz Sabir Rüstəmxanlı yaradıcılığında reallıqlarla irreallıq, yəni mif (möcüzə, uydurma) arasındakı əlaqəni üzə çıxarmasında özünü göstərə bilmişdir. Sabir Rüstəmxanlı real aləmdən uzaqlaşmayaraq irreal aləmlə vəhdət yaratmağa nail olmuşdur. Reallıq hamının qəbul etdiyi yaşantı və hadisələrdir. İrreal aləm simvollar, xəyallar, təəssüratlar və s. şəkildə özünü büruzə verir. Əsərin qəhrəmanı Şahinin kainat qüvvələri tərəfindən kosmosa səyahəti artıq əsərin janrını real aləmdən qeyri-real aləmdə baş verməsini

göz önündə canlandırır: “bura bilmədiklərini öyrənmək üçün gətirilmisən. Yerin kainata açılan, onun dərinliklərini və sirlərini görən gözlərindən birisən. Ancaq burda eşidəcəklərin önündə yeni sirlər açacaq. Bunları yerdəkilərə də anlatmalısan…”

Sabir Rüstəmxanlının “Akademikin son əsəri” romanı iki qəhrəmanın həyat tarixçəsini əks etdirir: akademik Ziyad Şıxlının və Muradın həyat yollarını. Bu fərqli iki həyat yolundan başqa romanda akademik Ziya Şıxlının qələmə aldığı “nağıl -roman” bizə roman içində romandan danışmağa əsas verir. Ziyad Şıxlının tarixçi alim kimi araşdırdığı tarixlərin bir parçası kimi “nağıl - roman”ında dünyada gedən mutasiya prosesinin şahidinə çevrilərək, millətin düşünən beyinlərinin məhv edilməsi, repressiyaya məruz qalmaları faktlarının üzləşdirilməsini müşahidə edirik. Sabir Rüstəmxanlının “Akademikin son əsəri” romanı roman içində roman kimi maraq kəsb edir. Belə ki, “Akademikin son əsəri” janrdaxili qarışıqlığı özündə ehtiva edir. Janrdaxili qarışıqlığı “janr diapazon”unun potensialının digər janrların elementlərinə müraciət etmədən həyata keçirilməsi formalarından biridir. Janrdaxili qarışıqlıq janrın daxili potensialının açıqlanması hesabına həyata keçirilir. Janrdaxili qarışıqlıq romanda bir neçə yolla həyata keçirilə bilər ki, bunlardan biri də romanda romanın kompozisiya quruluşuna müraciət edilməsidir. “Akademikin son əsəri” romanının qəhrəmanı akademik Ziya Şıxlının qələmə aldığı “nağıl - roman” ilə bunu müşahidə etmək olur.

Yarandığı ilk vaxtdan (XVII əsr) roman sintetik janr kimi çıxış edir. Roman janrının sonrakı inkişafı romanın tipoloji müxtəlifliyinin davamlı artımının genişlənməsi ilə xarakterizə olunur. İlk növbədə, başqa janrlarla qarışıqlıq hesabına. Roman janrının çoxsəviyyəli semantik nüvəyə malik olması Sabir Rüstəmxanlının qələmə aldığı “Göy Tanrı”, “Xətai yurdu”, “Difai fədailəri”, “Ölüm zirvəsi”, “Akademikin son əsəri”, “Sunami” kimi romanlarına imkan verir ki, bu romanlara digər janrların elementləri daxil olsun. Qeyd edək ki, məhz bu romanlar müasir dövrdə roman-mif, sənədli-tarixi roman və s. roman nümunələri kimi maraq doğururlar.

## III. 4 Sabir Rüstəmxanlı romanlarında sənədlilik

Romanın sənədli janrlarla qarışıqlığına müraciət etmiş Sabir Rüstəmxanlı yaradıcılığında romanın janr əlamətlərinin transformasiyaya uğramasına və yeni roman tiplərinin yaranmasına gətirən sənədli janrların nüfuz etmə formalarına rast gəlinir. Sənədin və romanın qarşılıqlı əlaqə forması kimi Sabir Rüstəmxanlının əsərləri bədii uydurma fonundan kənara çıxarır. S. Rüstəmxanlı sənədi romanın fabulasına daxil edə bilsə də, romanın fabulasında tarixi həqiqətlərlə yanaşı, bədii təxəyyül də mühüm rol oynayır. Məsələn, S. Rüstəmxanlı "Difai fədailəri" romanını oxucuya sənədli roman kimi təqdim edir. Bədii, sənədli və tarixi janrların qarışıqlığı baxımından "Difai fədailəri" sənədli-tarixi romandır. S. Rüstəmxanlının "Difai fədailəri" romanının janr məsələləri tədqiqatçıların nəzərindən qaçmamışdır. Akademik İsa Həbibbəyli ədibin "Difai fədailəri" romanının janr problematikasına toxunaraq qeyd etmişdir: "Roman "bəlgəsəl" – sənədli romandır, tarixi faktlara, arxiv materiallarına söykənir". [10, s. 233]

"Difai fədailəri" romanının süjet xətti XX əsrin əvvəllərində gizli fəaliyyət göstərmiş "Difai" təşkilatının fəaliyyəti əsasında qurulur. Yəni, "Difai fədailəri" romanında ötən əsrin əvvəllərində ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı və bu faciənin dəhşətlərindən xilas olmaq üçün Əhməd bəy Ağaoğlunun yaratdığı "Difai" hərəkatı tarixi fakt və məxəzlərin dili ilə bədii təcəssümünü tapmışdır. Roman müəllifi bu təşkilata aid arxiv materialları və rəsmi sənədlərdən fəal istifadə edir. Əsərin sənədli-tarixi romana aid edilməsi onun yalnız gizli təşkilatın fəaliyyəti haqqında sənədlərin bədii şəkildə yenidən işlənməsi deyil, həm də tarixi hadisələrin müəllif şərhi ilə bağlıdır ki, S. Rüstəmxanlı həmin hadisələrin müasiri ola bilməzdi (söhbət XX əsrin əvvəllərindəki hadisələrdən gedir).

Sabir Rüstəmxanlı sənədli janrlarla qarışıqlığa müraciət edərək həm tarixi faktlara, həm də bədiiliyi əsas tutaraq fikirləri izah etməyə nail olur. Müəllifin "Şair və Şər" romanı bioqra-

fik roman strukturunda qələm alınmışdır. Romanda şair Məhəmməd Hadinin həyatı, dövrün problemlərinin təhlili, qaranlıq məqamlarına aydınlıq tarixi faktlar və müəllif təxəyyülü ilə təqdim edilmişdir. Bu baxımdan, əsərdə bədii idrak metodunun sənədliliklə bağlılığı qabarıq şəkildə özünü büruzə vermişdir. Sabir Rüstəmxanlının "Şair və Şər" romanında roman janrının hibrid janr konstruksiyaları ilə qarşılıqlı əlaqədə olması özünü göstərmişdir. Belə ki, əsərin janrı tədqiqatçılarımız tərəfindən müxtəlif cür təqdim edilmişdir. Məsələn, T. Əlişanoğlu "Ədəbi proses 2015"də "Tarixi janrın həqiqətləri" (2015-ci ilin tarixi romanları) mövzusunda etdiyi məruzəsində əsərin janrını tarixi roman kimi qiymətləndirmişdir: "Ötən ədəbi il tarixi roman janrında vur-tut iki əsərin yaranması ilə əlamətdar olmuşdur. Elçinin "Baş" romanı və Sabir Rüstəmxanlının "Şair və şər" romanı" [28, s. 99], daha sonra isə "düşüncələr romanı" kimi təqdim etmişdir: "S. Rüstəmxanlı isə "Şair və şər"in janrını "düşüncələr romanı" göstərməklə tarixi əsərlərdən fərqli özəlliyinə diqqət çəkir." [28, s. 101] Müasir dövrdə məhz roman janrının hibrid janr konstruksiyaları yaratmağa qadir olması "Şair və Şər" romanının sənədli və bədii janrların qarşılıqlı əlaqədə olması, sənədin (tarixi faktın) bədii mənasının yenidən işlənilməsi, müasir dövrdə "müstəqil estetik məna alması" [33, s. 421] ilə səciyyələnmişdir.

Əsərə sənədin və romanın qarşılıqlı əlaqəsi, eyni zamanda müəllifin müasiri olmadığı hadisələrin bədii uydurması əsasında əsas və əlavə süjet xətləri daxil edilmişdir. Xüsusi vurğulamalıyıq ki, əsərdə müəllif məhz faktları romanın fabulasına daxil edə bilməklə, həmçinin bədii uydurma fonundan kənara çıxa bilir. Məsələn, faciələrlə, məhrumiyyətlərlə üzləşmiş Hadinin Şamaxı - Kürdəmir - Hacıtərxan - Bakı – İstanbul - Karpat, Bakı və Gəncə trayektoriyası fonunda həyatı ilə bağlı faktlar, uşaqlığından tutmuş vəfatına qədər baş vermiş hadisələr, şairin həyatında olmuş insanlar, tarixi personajlar, və əsərlərindən parçalar. Lakin "Şair və Şər" romanında tarixi faktların əsaslı şəkildə yenidən işlənməsi nəticəsində hadisələrin əsasını müəyyən edən "sənəd-

lilik” ikinci plana keçir. Əsər özündə roman-bioqrafiya elementlərini ehtiva edir. “Şair və Şər” romanında müəllif düşüncələrinin tam açılması üçün zəruri olan ikinci dərəcəli süjet xətlərinin qurulmasında tarixi faktlardan istifadə olunması Hadinin ömür yolunu izlənilməsində, Şamaxı zəlzələsindən sonrakı təlatümlü həyatında özünü göstərir.

Sabir Rüstəmxanlı nəsrində sənədli janrlarla qarışıqlığı özünü romanda növlərarası janr qarışıqlığında büruzə verərək sənədli - tarixi, bioqrafik roman nümunələrin yaranmasına təsir etmişdir. Məhz müəllifin sənədli janrlarla qarışıqlığa üstünlük verməsi yeni janr nümunələrinin yaranmasına səbəb olmuşdur. S. Rüstəmxanlının yaradıcılığında sənədli janrlarla qarışıqlıq nəticəsində sənədli-tarixi roman nümunəsi kimi “Difai fədailəri” romanı, bioqrafik roman nümunəsi kimi “Şair və Şər” romanı yaranmışdır. Müəllif sənədli janrlara müraciət etməklə həyat hadisələrinin inkişafı, mürəkkəb sosial ziddiyyətləri, xalqın tarix və gələcəyi barədə düşüncələrini, cəmiyyətdə olan ideyaları dialektik əks etdirmək imkanı əldə etmək iqtidarında olur. Sənədli janrlarla qarışıqlıq nəticəsində Sabir Rüstəmxanlı insanların, bir şəxsin, bir ailənin, bir nəslin taleyini istər tarixi şəraitdə, istərsə də müasir inkişaf prosesində bütün mənəvi gözəlliyi və eybəcərliyi ilə əks etdirməyə nail ola bilir.

S. Rüstəmxanlının sənədli-tarixi, bioqrafik roman nümunələri bir-birinə bənzər iritirajlı eşq macəraları, dedektivlər və “vahimə”lərdən fərqlənməklə, Azərbaycanın sosial-siyasi durumu ətrafında düşüncələrə sövq edən roman nümunələri kimi əhəmiyyət kəsb edirlər. S. Rüstəmxanlı sənədli janrlarla qarışıqlığa üstünlük verdiyi zaman realizmi əsas meyar kimi qəbul etməsi ilə diqqəti cəlb edir. Müəllifin “Difai fədailəri”, “Şair və Şər” romanları sənədli janrlarla qarışıqlığına rəğmən, təsvir edilən hadisələr və obrazların real həyatdan götürülməsi ilə hadisələrin reallığı və tarixliyi xüsusi vurğulanır.

## III. 5 Sabir Rüstəmxanlı romanlarında mifoloji amillərin əksi

Sabir Rüstəmxanlının romanlarında mifoloji düşüncə keçmiş dövrlə müasir dövr arasında yaddaş körpüsü funksiyasını yerinə yetirir. Millətin öz dini dəyərlərini itirməməsi türk mifologiyası əsasında açıqlanmışdır. Təsvir edilən hadisələr türk, həmçinin dövlətçiliyin inkişafında əvəzsiz xidmətləri olmuş şəxsiyyətlər fonunda əks etdirilir. Məsələn, müəllifin "Göy Tanrı" roman-mifinin mərkəzi xəttini Oğuz xanın tarixi missiyasının həyata keçirilməsi və sona çatdırılması təşkil edir. Roman, törə şüurunun təhlili baxımından xüsusi ideoloji–fəlsəfi çəkiyə malikdir.

S. Rüstəmxanlı romanın gedişatında türklərin öz əqidəsindən, dini dəyərlərindən üz döndərməsini onlar arasında fikir ayrılıqların güclənməsinə, nəticədə, tarixi missiyasını unutmasına və parçalanmasına sövq edən amil olmasını göstərməyə çalışmışdır. Türklərin öz dini dəyərlərini itirməməsi baxımdan, mənası türk mifologiyası əsasında "Yağmur daşı"ndan söhbət açılması maraq kəsb edir. S. Rüstəmxanlı "Yağmur daşı"nı Müqəddəs daş və ya Tanrı daşı adlandırır. "Yer üzünü qurtarmağın yolunu tək–tanrıçılıqda, yer üzünün bütün insanlarının bu inanc çevrəsində birləşməsində" görən Oğuzun "Yağmur daşı gerçəkdir. Cocuqkən bir kərə görmüşəm onu babamın əlində. Üstündə damğa var: səkkizoxlu, Tanrı damğası…O daşın nəliyini bilirəm! O sayı bilinməyən xırda, yapma bayatlardan, bütlərdən, tözlərdən birisi deyil. Nə başlanğıcı, nə sonu bilinən, yerin-göyün yaradanı, türkün babası olan Göy Tanrının daşıdır. Bir olan Tanrıya tapınanların qut daşıdır. Məndən öncə gəldi o, ancaq yiyəsi bizik" fikirləri Yağmur daşının türk etnosunun tarixi mahiyyətini açıqlayır.

Roman-mifdə "Yağmur daş"ının oğurlanması və daha sonra isə tamamilə izsiz itməsi xüsusi tarixi çalar alır – düşmən türklər üzərində qələbə əldə etmək üçün onların inamının, əqidəsinin sındırılmasına üstünlük verir. S. Rüstəmxanlı tərəfindən "Yağ-

mur daş"ının oğurlanması ilə türk millətlərinin arasında dezoriyentasiya tendensiyalarının yer tutması arasında paralellərin aparılması əsərdə bədii əksini tapmış diqqətəlayiq fikir kimi qiymətləndirilməlidir.

Əsərdə türk xalqlarının şifahi və yazılı ədəbiyyatında mühüm yer tutan, qədim tarixi keçmişə malik olan toteminə toxunulması və qurtuluş rəmzinə çevrilmiş qurdun təsviri diqqəti cəlb edir. Qurd tarixən türklərdə xilaskar, kömək edən, türklərin qurtuluşu, nicatı, yol göstərəni, şəfqətli, cəsarətli, uğurlu, şəfaverici, xeyirxah varlıq kimi qəbul edilmişdir. S. Rüstəmxanlı romanda qurdu müqəddəslik rəmzi kimi təqdim edir: "Özləriylə təkcə bir canlı gətirmişdilər, o da qurddu. Göylülər gəldikləri yeri tez unutdular. Ancaq qurd unutmayıb. İndi də üzünü o uzaq dünyalarına çevirib ulayır. Qurdun bizi qoruyub saxlaması da bununla bağlıdır. Bu kökdən, əski yurdların birliyindən gəlir. Türkün qurda qardaş deməsi, onu qutsallaşdırması da bununla bağlıdır."

Sabir Rüstəmxanlı mifologizmə müraciət etməklə, bəzi hadisələrə mif adı altında üstüörtülü müəllif yanaşmasına nail ola bilir. Məsələn, S. Rüstəmxanlı "Göy Tanrı" roman-mifin süjet xəttinə fəlsəfi–dini polemikanı, təkallahlıq görüşlərinin yayılmasında türklərin fəaliyyətinin yeni interpretasiyasını müvəffəqiyyətlə daxil edə bilmişdir. S. Rüstəmxanlı romanda tanrıçılığın əsas müddəalarını geniş işıqlandırmış, qədim türkləri bütpərəst deyil, təkallahlığa riayət edənlər kimi göstərərək geniş yayılmasına ehtiyac duyulan tarixi faktları çatdırmışdır. Bu gün bəzi elmi dairələr tanrıçılığın bütpərəst dini sistem olması barəsində ictimaiyyətdə müxtəlif fikirlər yaratmağa çalışırlar. Tanrıçılığın təkallahlıq dini konsepsiyası olması haqqında tədqiqatlar süni olaraq məhdudlaşdırılır. S. Rüstəmxanlının tanrıçılığın əsl mahiyyətini romanda açıqlaması xüsusi əhəmiyyətə malikdir və türk millətlərinin tarixi keçmişi ilə yanaşı, gələcəyinə yeni yanaşmanın formalaşdırılmasına əsas yaradır. Tanrıçılığın təkallahlıq kimi mahiyyəti Oğuzun dili ilə açıqlanır: "El–ulus hələ onun Tanrısını tanımırdı. Elin 99 bütü–tengriçiyi vardı. Hər şeyə tapı-

nırdılar. Çaya, gölə, dağa, daşa, yola, qurda, marala, ilana, tısbağaya… hər bölgənin öz tapınağı, bütü vardı. Hər şeyi tanıyırdılar, bir olan Göy Tanrıdan başqa!”

Təkallahlığı anlayan türklərin öz yetkin dini görüşlərini ətrafa yaymasının tanrıçılığın daxili impulsundan irəli gəlməsinə, bu missiyanı məhz türklərin üzərinə düşməsinə xüsusi diqqət yetirən S. Rüstəmxanlı Oğuz xanın və onun davamçılarının bəşəriyyətin inkişafına təsirini yeni prizmadan açıqlayır. Türklərin üzərinə düşmüş missiyanın mahiyyəti Oğuz xanın sözləri ilə işıqlandırılır: “Türk yerləri–suları, elimiz–günümüz yalnız türk Tanrısıyla özünü tapacaq, özünə qovuşacaq. Tanrı–tək yaradılmış türk insanı yalnız tanrıya tapınanda üzü güləcək, bütöv olacaq. Biz Tanrının sevgisiylə, ilkin törədilmiş, gözəl insanlarıq. Tanrı bizi yer üzünün böyük budunu, bəyi olaraq yaratdı. Yer üzünün uluslarının elə çevirib dikəldən, bütün qonşulara düzən verənlər də bizdən olanlardır. Ərkli, görklü, başların başı, ucaların ucası olan türk Tanrısıdır.”

Sabir Rüstəmxanlı mifologiyaya müraciət edərkən janr qarışıqlığına müraciət etmiş olur, mifik formaların saxlanılması fonunda ənənəvi semantikanı olduğu kimi saxlamağa nail olur. Bununla da yaradıcılığında roman-mifin gözəl nümunəsini yarada bilir. Məhz roman janrının mifologiya ilə qarışıqlığı “Göy Tanrı” romanında özünü qabarıq şəkildə göstərmişdir. Əsərdə mifoloji düşüncə ilə bağlı bir sıra hadisələr roman-mifin əsas məğzini təşkil edə bilir. Əsərdə Qam Atanın Oğuz xaqanı “Yurdun yaddaşı” adlanan və hamıdan gizlin olan, yalnız bir qisim insanlara məlum olan otağa aparması, Yağmur daşının üstünə vurulmuş Tanrı damğasını ona göstərməsi mifik düşüncəylə sıx bağlıdır. Roman-mifdə “burada Tanrı yazılıb, bu səkkiz oxlu araba təkərinə bənzər damğa ondan gəlib, onun sigəsidir” və “suyun və qumların yeri örtdüyü, kişioğlunu qovub dünyaya səpələdiyi çağlarda çox-çox öncə də atalarımız tanrıçı olublar” deyilməsi türkün keçmişinə nəzər salmağı önə gətirir. Ulusun beşiyi hesab edilən Ata mağarada Qam Atanın “Türk xaqanı Yer - Su yiyəsiz qalmasın deyə göndərildi. Bu yerlər - sular ancaq Türk

xaqanlarının əlində olmalıydı” fikirləri də türkün tarixi keçmişi və realizə edilməmiş imkanları haqqında düşüncələrə sövq edərək, yazıçının türk xalqlarının tarixi roluna və görüşlərinə aydınlıq gətirir. Belə ki, mifologizmə müraciət edən Sabir Rüstəmxanlı əsərdə toxunulan problemləri daha dərindən əks etdirməyə nail olur.

S. Rüstəmxanlı tərəfindən “Göy Tanrı” romanında zərdüştlük və tanrıçılıq arasında paralellərin aparılması tarixi proseslərin yeni prizmadan qiymətləndirilməsinə gətirib çıxarır. Romanda Zərdüştün fikirlərinin yayılmasının əhəmiyyətini açıqlayan maqlardan birinin bu baxımdan türkə söylədiyi fikirlər əhəmiyyət kəsb edir: “Zərdüştün açdığı yol, yaratdığı bilim yer üzündə indiyədək yaranmış bütün inancların, düşüncələrin ən iyi yönlərini birləşdirir. Zərdüşt öz kökündən olanlara ayrı gözlə baxardımı? Ancaq onun sözlərini hər elə bir cür yayırlar. Onun adıyla öz pozğunluqlarını örtməyə, çöllərdə yaşayan türkləri yırtıcı, yarandudan uzaq göstərməyə can atırlar. Bir–birindən uzaq, fərqli düşüncələri, türlü ulusların mənəmlik savaşlarını bu inanca bürüyərək gizləməyə, quduz istəklərini yalavac sözü kimi yaymağa çalışırlar. Bu bizim bir–birimizi anlamamızı çətinləşdirir. Zərdüştün sarayların tozuna bulaşmamış düşüncələriylə sənin düşüncələrin arasında ayrıntı görmədim. Bizi özündən ayrı tutma!” Göründüyü kimi, S. Rüstəmxanlı iki dini sistemin yaxınlığını, tarixi köklərin bağlılığını, həmçinin maraqlı xarici qüvvələr tərəfindən onların qarşı–qarşıya qoyulması təzahürlərini üzə çıxarmağa müvəffəq olur.

## III. 6 Sabir Rüstəmxanlı romanlarında fantastik amillərin əksi

S. Rüstəmxanlının qələmə almış olduğu “Sunami” əsərində təsəvvür edilməsi mümkün olmayan hadisələrin əksini tapa bilməsi onu fantastikaya yaxınlaşdırır. Təsvir edilən fantastikada gerçəklik elementləri qeyri-adi, möcüzəli formada, qeyri-real bədii obrazlardan istifadə edilməklə təsvir edilir. S. Rüstəmxanlı-

nın yaradıcılığında romanın elmi janrlarla qarışıqlığı, elmi fikrin inkişafı bədii əsərin fabula və süjetinə təsir göstərməsində, həmçinin elmi janrların kompozisiya arxitekturasından istifadə edilməsində özünü göstərir. Romanda elmi fikrin inkişafının əsərin fabula və süjetinə təsir göstərməsini müşahidə edirik.

Sabir Rüstəmxanlının yaradıcılığında reallıqla qeyri-reallığı sintez şəklində təqdim edən "Sunami" romanında janrdaxili qarışıqlıqda "törəmə" janrların elementlərinin nüfuz etməsinin özünü göstərməsi məhz janrdaxili qarışıqlığında müxtəlif növ roman elementlərinin birləşməsini əhatə etməsində meydana çıxır. "Sunami" romanında roman-sərgüzəştin və elmi romanın elementləri özünü göstərir.

Sabir Rüstəmxanlı qələmə aldığı digər romanlarından fərqli olaraq "Sunami" romanında irreal aləmlə real aləmi bir-birilə əlaqəli şəkildə verməyə nail ola bilmişdir. Yazıçı əsərindəki real və irreal dünya arasındakı sərhədləri müəyyənləşdirməyi oxucusunun öhdəsinə buraxmışdır. Bununla da, oxucusunu real aləmdən irreal aləmə keçidini məhdudlaşdırmaq funksiyası ilə yükləməyərək, sərbəstlik verir. L. Fidlerin real və irreal arasındakı sərhədləri aradan qaldırmaq problemini irəli sürməsi məhz Sabir Rüstəmxanlı yaradıcılığında reallıqlarla irreallıq möcüzə, uydurma arasındakı əlaqəni üzə çıxarmasında özünü göstərə bilmişdir. Sabir Rüstəmxanlı real aləmdən uzaqlaşmayaraq irreal aləmlə vəhdət yaratmağa nail olmuşdur. Reallıq hamının qəbul etdiyi yaşantı və hadisələrdir. İrreal aləm simvollar, xəyallar, təəssüratlar və s. şəkildə özünü büruzə verir. Müəllif irreal aləmi elmi faktlara əsaslanaraq təqdim edə bilir.

Sabir Rüstəmxanlının "Sunami" romanının qəhrəmanı Şamaxı rəsədxanasının müdir müavini olan Şahinin kainat qüvvələri tərəfindən kosmosa səyahəti artıq əsərdə hadisələrin real aləmdə deyil, qeyri-real aləmdə baş verməsini göz önündə canlandırır. Şahinə kosmosa sirli-sehrli səyahətinin səbəbi izah edilərkən, onun həyata keçirəcəyi missiyaya aydınlıq gətirilir: "bura bilmədiklərini öyrənmək üçün gətirilmisən. Yerin kainata açılan, onun dərinliklərini və sirlərini görən gözlərindən birisən. Ancaq

burda eşidəcəklərin önündə yeni sirlər açacaq. Bunları yerdəkilərə də anlatmalısan…" Fantastikadan istifadə müəllifin əsas fikir və ideyasını ifadə etmək üçün yararlanmış olduğu ədəbi priyom kimi diqqəti cəlb edir. Uzaq dünyalarla əlaqə, şüur sistemlərinin müxtəlifliyi haqqında mülahizələr elmi-fantastika elementi və ünsürü kimi təqdim edilir.

Sabir Rüstəmxanlı fantastikaya müraciət edərkən təsvir etdiyi hadisələri, xəyalda yaranan fikirlərini, təsəvvürlərini, gerçəkliyin mübaliğəli və ya fövqəltəbii şəkildə təsvirindən ibarət olmasını təlqin edir. Bu baxımdan da, qələmə aldığı əsərə fantastik elementləri qatmağa üstünlük vermişdir. Əsərdə Şahinin bir çox missiyaları həyata keçirməsinin şahidinə çevrilirik. Müəllif fantastikaya müraciət etməklə qələmə almış olduğu hadisələrə xas bədii lövhələrdə təsvir olunan hadisələrin həqiqətə nə dərəcədə uyğun olmasını diqqət mərkəzində saxlamağa çalışır. Şahin sovet sistemi dağıldıqdan sonra rəsədxananı qorumağa nail ola bilir. Doğrudur, o bu yolda bir çox əziyyətlərlə qatlaşaraq, hətta "özün üçün qurursan…" atmacalarına da məhəl qoymayaraq, qarşısına qoyduğu ideala çatmağa nail ola bilməsini müəllif əsərdə açıqlamışdır: "Uzun dava-dalaşdan sonra Akademiyanın dünyanı vecinə almayan rəhbərliyini rəsədxananı qorumağın vacibliyinə inandıra bilmişdi…" Müəllif "Sunami" romanında ölkədə baş vermiş siyasi olaylara da münasibət bildirir. Müəllifin yerin dərdinin tükənməz olması, həmişə olaylarla qaynaması amilinə toxunması da əsərdə diqqəti cəlb edir: "Yerin dərdi tükənən deyil. Uzağa niyə gedirsən? Elə öz taleyimizə bax! Müstəqillik deyirdik, bu da sənə müstəqillik! Rusiya sənin torpağının yarısını kəsib bağışladı erməniyə, sonra dedi "yaşa müstəqil, görüm necə yaşayacaqsan, necə çəkəcəksən bu dərdi…"

Sabir Rüstəmxanlı "Sunami" əsərində real hadisələrə münasibət bildirməsi ilə də diqqəti cəlb edir. Fantastikaya müraciət edərək kosmik effektlər vasitəsilə maraqlı hadisələrin yaradılmasına nail olur. Müəllif planetə insanların biganə münasibət göstərmələrinə etirazını bildirməklə oxucularının diqqətini qlobal problemə yönəltməyə cəhd etmişdir: "Təəssüf ki, aranızda Yer

düşmənlərinin casusları çoxalıb. İnsan oğlunun bir qismi şüursuz bir vərdişlə bu dağıdıcılara xidmət edir. Şər missionerləri getdikcə daha böyük gücə çevrilirlər. Dünya müharibələri, din, məzhəb savaşları, sivilizasiyaların izini itirən, Yerin mizanını pozan, həyat mənbələrini dağıdan ehtiraslar…"

Fantastikanın kosmosla bağlı hadisələri təqdim edən fantastik əsərlər kosmikopera və ya kosmoopera (ing.space opera) adlanır. Termin ilk dəfə Uilson Taker tərəfindən 1940-ci ildə istifadə edilmişdir. Elmi fantastikanın subjanrı olan kosmooperada hadisələr adətən kosmik məkanda, yad planetlərdə, Günəş sistemi və ya onun hüdudlarında baş verir. Elmi fantastikanın növlərindən olan kosmooperanın əsas xüsusiyyətlərdən biri burada elmi faktlardan qismən və ya tam şəkildə imtina edilməsi, hadisələrin konkret olaraq kosmik məkanda və ya da digər planetlərdə (Günəş sisteminə daxil olan və ya onun hüdudlarından kənarda olan planetlər) baş verməsidir. Kosmooperada hadisələr müəllif təsəvvürü ilə məhdudlaşır. "Sunami" əsəri elmi fantastikanın kosmoopera nümunəsi kimi diqqəti cəlb edir. Əsərdə istifadə edilmiş reallıq və irreallığın təsviri əsərin janrına birbaşa təsir edərək romanın janr qarışıqlığı nümunəsini formalaşdırmışdır.

"Sunami" əsərində telepatiyaya yer verilməsi reallıqla irreallığın təmasıdır. Real hadisələr üzərində qurulan əsərdə hadisələri və insanın fikrini onların mənşəyinə bilavasitə təmas etmədən uzaqdan qavranmasının təsviri buna əyani sübutdur. Əsərin qəhrəmanı adi adamların görünməyən bir şeyi görməsi, başqasının fikrini onu eşitmədən başa düşməsinin təsviri mümkün olmasını iddia edir. Elmin sübut etmədiyi telepatiyaya müraciət edən yazıçı bununla əsərində irreal məqama toxunur. S. Rüstəmxanlı telepatiyanı fantasmaqoriya kimi eyniləşdirir. Biz telepatiyanı əsərin süjet xəttində inkişaf etdirilməməsi ilə əlaqələndirə bilirik. Əsərin qəhrəmanı Şahinin gözünə görünənləri xəyala gələn qəribə şey hesab edə bilmirik. Çünki, Şahin xəstə insan deyil, sağlam insandır. Fantasmaqoriya isə xəstə adamın gözünə görünən və ya xəyalına gələn qəribə şeylər, yəni qarabasmalardır.

# IV FƏSİL

# SABİR RÜSTƏMXANLI NƏZMİNİN PROBLEMATİKASI, JANR MÜXTƏLİFLİYİ VƏ XÜSUSİYYƏTLƏRİ

## IV. 1 Sabir Rüstəmxanlı yaradıcılığında kiçik nəzm formaları

Sabir Rüstəmxanlının kiçik nəzm nümunələri problematika baxımından zənginliyi ilə maraq kəsb edir. Müəllifin qələmə almış olduğu poetik nümunələrin problematikası Azərbaycan xalqının və Vətəninin müasir durumu, Azərbaycan xalqının faciəvi günlərinə aid düşüncələri, Azərbaycan xalqının müstəqillik qazanmasından qürur hissi, Vətənin azadlığı, Azərbaycanın möhtəşəmliyi, ictimaiyyəti düşündürən aktual sosial və ictimai problemləri, doğmalara sevgi, eşq, Cənubi Azərbaycan, Təbriz həsrəti, Xocalı faciəsi və s. əhatə edir.

Sabir Rüstəmxanlı şeirlərində Azərbaycan xalqının faciəli və qanlı tarixi olaylarına dair hisslərini və fikirlərini qələmə alaraq dövrünün poetik salnaməsini yaratmağa nail ola bilir. Ədibin yaradıcılığının problematikasında bəzi motivlərin aktual yer tutmasını müşahidə edirik. Onun poeziyasında "dərd" motivi əsas motivlərdən biri kimi çıxış edir. Şairin "Acı xatirə", "İnansa Təbriz deyil!", "20 Yanvar xatirəsi", "Xocalıdan sonra" və s. poetik nümunələrdə "dərd" motivi xalqın, millətin ağrı-acısı kimi təsvir edilir. "Acı xatirə" şeirində şair millət dərdini özününküləşdirməyi bacarır. Şairin qələmə aldığı şeirdə "dərd" motivi ideya və məzmun cəhətdən yeni çalar əldə edərək şairin şəxsi dərdi kimi poetik şəkildə təqdim edilir:

Tapşırıq qulları önə atıldı,
Halal işimizə haram qatıldı.
Bir əl quzusudu kürsüdəki şir,
Hər gün yuxarıdan dərs alıb gəlir.
Millət xəbərsizdi – dərdinə yanır,
Tülkü həccə gedir –millət inanır!

Azərbaycan xalqının üzləşdiyi iztirabları müəllif bədii ifadə və təsvir vasitələri ilə "Tanrı işığı" şeirində təsvir edir:

Bir kökümüz Doğudadı, bir kökümüz Günbatanda,
Biz tarixin yoldaşıyıq dünya boyda bir vətəndə,
Min savaşın ağrısı var damarlarda coşan qanda,
Zəhər oldu qədərimiz, içdik Tanrı işığıtək
Ölüm kəsdi yolumuzu, keçdik Tanrı işığıtək.

Sabir Rüstəmxanlının "Tanımaq istəsən" şeirində keçmişin və bu günün prizmasından Azərbaycan tarixinin bütövlüyünün tərənnümü üsyankar poeziya nümunəsi kimi diqqəti cəlb edir. "Tanımaq istəsən" şeirində məhz torpağa bağlılıq duyğusu əcdadlarla əlaqəli olan ən munis duyğu kimi tərənnüm edilmişdir:

Düşmənin gözündə dirsəkdi hər dağ.
Babalar atını sürüb gedibdi,
Qayalar boylanıb qalıbdır ancaq.
Oğlu-Şah İsmayıl Xətayi adlı,
Ağ atlı oğlan var, atı qanadlı;
Bir də Suraxanı atəşgahı var,
Bir də Misri qılınc,
bir də Çənlibel;
Bir də
"Heydərbaba" yazılmış bir dil.
Torpağı ot deyil, kişi göyərdən.
Vətən... vətən!

S. Rüstəmxanlının kiçik poetik janrlar formasında yaradılmış poetik nümunələrdə xalqın tarixi və müasir durumu, şairin vətənpərvər hiss və düşüncələri öz əksini tapmışdır. V. Yusiflinin qeyd etdiyi kimi, "altmışıncı illərin ən gənc şairlərindən olan Sabir elə ilk şeirlərindən hamını belə bir etirafa məcbur elədi ki, onun taleyi poeziyadan ayrılmazdır. O, heç kimə bənzəmir, Azərbaycan poeziyası karvanında əbədiyyətə yol gedə biləcək bir şairdir". [31]

S. Rüstəmxanlının poetik nümunələrində ahəng, ölçü, qafiyə, bölgü, rədif kimi şeirdə ahəng yaradan nəzm əlamətlərindən ustalıqla istifadə edilməsi diqqətdən yayınmır. Sabir Rüstəmxanlı poeziyasında istifadə etdiyi nəzmin əlamətlərilə özünün estetik düşüncəsinin parlaq obrazlarda təcəssümünü şərtləndirməyə nail olur. Şairin yaradıcılığında zəngin, natamam, daxili, çarpaz və qulaq qafiyəsinə, həmçinin rədifə rast gəlirik. Şeirin vahidlərindən də ustalıqla istifadə edən şair poetik nümunələrini müxtəlif misralardan, yəni üç, dörd və daha artıq misralardan ibarət poetik nümunələr qələmə almışdır. Qələmə aldığı poetik nümunələrin bəndlərinin sayı da müxtəlifliyi ilə seçilir. Müəllifin poetik nümunələrinin bölgüləri də müxtəlifliyi ilə diqqəti cəlb edir: 3, 4, 5, 6, 7, 8, 9, 10, 11 və s. hecadan ibarətdir. Müxtəlif hecalı şeirlərdə heca bölgüsü özünü müxtəlif şəkildə büruzə vermişdir.

Sabir Rüstəmxanlının qələmə almış olduğu poetik nümunələr ritm və intonasiya gözəlliyini qaydaya salan qafiyənin zənginliyi ilə diqqəti cəlb edir. Şairin on bir hecalı "Ar gəlir" şeirində şeirin vəzn quruluşunda təşkiledici funksiya daşıyan səs təkrarlığına diqqət yetirək:

Anam torpaq addımımdan iz umur, ***- a***
Sönən ocaq ürəyimdən köz umur, ***- a***
Mən şairəm, dünya məndən söz umur, ***- a***
Gül açmasa, hansı bağa bar gələr? ***– b***

"Təbrizdə bayram axşamı" şeirinin bir neçə hecası, yəni tələffüzcə, səs tərkibi etibarilə yaxın olan pasından, yasından, sev-

dasından sözləri qafiyənin zəngin qafiyə (tam qafiyə) növündə qələmə alınmışdır:

Çıxıb tarix **pasından, -** ***a***
Toy buludlu **yasından, -** ***a***
Demə söz **sevdasından -** ***a***
Belə cavandı Təbriz! **–** ***b***

Şeirdə həmqafiyə olan pasından, yasından, sevdasından sözlərində bütün hecaların bir-birilə səsləşdiyini müşahidə edirik.

Sabir Rüstəmxanlı yaradıcılığında qafiyənin yoxsul qafiyə (natamam qafiyə) növünə də rast gəlmək mümkündür. Şairin "Bakı" şeirində sözlərin ancaq bir hissəsi arasında səsləşmə olması özünü göstərir:

Acların ovcunda ağzının **dadı,**
Evsizin könlündə sınan vüqarın.
Çöldə qum yeyirsə xalqın **övladı**
Necə ucaldırsan bu sarayları.

Misralarda dadı, övladı sözləri həmqafiyədir. Qeyd etmək lazımdır ki, dadı və övladı sözlərinin ancaq bir hissəsi arasında səsləşmə özünü büruzə verir.

Sabir Rüstəmxanlı yaradıcılığında rədifə müraciət etmə zənginliyi ilə göz oxşamasa da, yaradıcılığında rədifdən istifadə məqamı yadda qalır. Şairin "Unut birdəfəlik" şeirindəki

Ömründə var imiş, **yox imiş**, ***unut*!**
Bu da bir qarışıq **yuxuymuş,** ***unut!***

beytində yox imiş, yuxuymuş sözləri qafiyə, unut sözü isə rədifdir.

Sabir Rüstəmxanlının "Yetər" şeirində gözləsən, səsləsən qafiyə, yetər sözü isə rədifdir:

Başqa nə gərəkdir xoşbəxtlik üçün –
Eləcə, yolumu **gözləsən,** ***yetər.***
Yarı ehtiraslı, yarı gileyli
Bir hayla arabir **səsləsən,** ***yetər!***

Sabir Rüstəmxanlının poetik nümunələrində müraciət etmiş olduğu bədii dilin tərkib hissələri, təsvir və ifadə vasitələri maraq kəsb edir. Sabir Rüstəmxanlının epitet, təşbeh, metafora, metonimiya, simvol kimi bədii təsvir vasitələrindən, bədii sual, bədii təzad, təkrir, kinayə, mübaliğə, lilota, inversiya kimi sintaktik fiqurlardan məharətlə istifadə etmişdir. Şairin qələmə aldığı şeirlərin dilində istifadə edilmiş arxaizmlər, neologizmlər, varvarizmlər, vulqarizmlər, terminlər, dialektizmlər kimi anlayışlar qələmə aldığı poetik nümunələrin bədii dilinin zənginliyi kimi özünü göstərir.

Sabir Rüstəmxanlı yaradıcılığı bədii dilinin mühüm tərkib hissəsi olan bədii təsvir vasitələrinin, yəni məcazların işlənmə məqamına görə diqqəti cəlb edir. Məcazlaşma yanaşma əlaqəsi ilə düzələn I növ ismi birləşmələri epitetdir. "Üç addım yer ayır..." şeirində "kədərli yellər" söz birləşməsi olan epitetin birinci tərəfini ikinci tərəfdən bədiilik yaratma anında bir-birindən ayırd etmək qeyri-mümkündür:

Qüruba tökülən **kədərli yellər**
Dünyaya qayıdan səsimdi ki var.

Şairin "İçimdəki dərd ağacı" şeirində "dərd ağacı", "arzu qanadında" söz birləşməsi bədii epitetdir. Şair poetik nümunədə müəyyən cəhəti nəzərə çatdırmaq məqsədilə sözə qüvvətləndirici başqa bir söz əlavə edir:

İçimdəki **dərd ağacı,**
Kökü taleyin qatında,
Başı **arzu qanadında**

Şairin “Mən demədim” şeirinin

**<u>Qoca karvan, qoca millət</u>**! Ümman daşıb
Ay söndürür, Gün keçirir, Zaman qovur.

beytində “qoca karvan, qoca millət!” məcazi mənalı I növ təyini söz birləşməsidir.

Sabir Rüstəmxanlının şeirlərində ən çox rast gəlinən bədii ifadə vasitələri təşbeh (bənzətmə) və metaforadır (istiarə). Şair təsvir etmək istədiyi hadisəni və ya əşyanı müəyyən bir əlamətə görə məcazi şəkildə daha qüvvətli bir hadisəyə yaxud da əşyaya bənzətməsi maraqlı poetik nümunənin yaranmasına səbəb olur. Şairin “İlhamlı çağımda” şeirində təşbeh vasitəsilə bir əşya (və ya hadisə) müəyyən əlamətə görə özündən daha qüvvətli əşyaya (hadisəyə) oxşadılır:

İlham həsrətindən çoxları xəstə,
Osa çeşmə kimi xəbərsiz axmış.

“Osa çeşmə kimi xəbərsiz axmış” ifadəsi təşbehdir. Burada təşbeh aşağıdakı ünsürlərlə yaradılmışdır:

1 bənzəyən - osa,
2 bənzədilən - çeşmə,
3 bənzətmə qoşması – kimi,
4 bənzətmə əlaməti –axmış.

“Kişi ömrü” şeirində də təşbehdən istifadə məqamı maraq doğurur:

**<u>Bulud kimi əridi</u>**
**<u>İlxı-ilxı köhlənim</u>**,
Qalaların kor gözü
Boş yollara dikildi.

“Bulud kimi”, “köhlənim” sözləri təşbehdir. Burada təşbeh aşağıdakı ünsürlərlə yaradılmışdır:

1 bənzəyən – ilxı-ilxı köhlənim,
2 bənzədilən- bulud,
3 bənzətmə qoşması – kimi,
4 bənzətmə əlaməti - əridi.

Sabir Rüstəmxanlının fikrin mənalı ifadəsinə xidmət edən metaforadan (istiarə) istifadə etmə məqamı da diqqəti cəlb edir. Şair bir əşya və ya hadisənin müəyyən bir əlamətini digər əşya və ya hadisəyə sənətkarlıqla köçürməyə nail olur. "Dünya dili" poetik nümunəsində metaforaya rast gəlirik:

Ən uzun beytimi göy kitabında
Ölkədən-ölkəyə durnalar yazır!

Bu nümunədə "durnalar yazır" ifadəsi durnaların yazmasına xas olan xüsusiyyət deyil.

Şair "Nəğməm" şeirinin bir beytində həm təşbehdən, həm də metaforadan istifadə etmişdir:

Nəğməm də quş kimi dünyanı gəzər,
Bir quru budaqda dincələr ancaq...

Burada "nəğməm də quş kimi dünyanı gəzər" misrası təşbeh, "bir quru budaqda dincələr ancaq..." metafora nümunəsidir.

Müəllif qələmə aldığı poetik nümunələrin dilində müəyyən cisim və hadisəni bildirən söz əvəzinə onunla əlaqədar başqa bir sözün işlədilməsi ilə yaranan metonimiyalardan məharətlə istifadə etmişdir. "Qayıt" şeirində Azərbaycan metonimiya kimi istifadə olunur:

Qayıt, ana südü içən,
Dünya bizə gülər, qayıt!
Ruhumuzu diriltməsək,
**Azərbaycan** ölər, qayıt!

Burada "Azərbaycan" deyiləndə Azərbaycan xalqı nəzərdə tutulur.

S. Rüstəmxanlı qələmə aldığı "Öz sözün ilə" şeirinin emasionallığını artırmaq, qüvvətli hiss-həyəcan doğurmaq məqsədilə fikrini sual tərzində ifadə edir.

Vətən təəssübün hayanda itib,
Yad hissi ömrünə yad əlmi yazdı?

Şairin "Mərhəmət" şeirində də bədii sualdan istifadə edilmişdir:

Silah məktəbimiz olmayıb, bəlli,
Bəs sevgi məktəbi, bəs söz, bəs ürək?

Şair "Siz nə umursunuz bu gedişatdan" şeirində məzmunca bir-birinə zidd, əks anlayışları qarşılaşdırmaqla təzad (antiteza) yaratmağa nail olmuşdur:

Mən sözün ağası, söz mənim qulum,
Mən haqqın yolçusu, haqq mənim yolum.

Burada bir - birinə zidd olan "ağası" və "qulun" sözlərinin işlədilməsi yolu ilə təzad (antiteza) yaradılır. Sabir Rüstəmxanlı bədii təsvir vasitəsi kimi antitezaya müraciət edərkən, ilk növbədə təzad yaratmaq üçün əks mənalı sözləri bir-birindən fərqləndirmək məqsədi güdməmişdir. Əks mənalı sözlərdən məhz xüsusi üslubi effekt yaratmaq məqsədini güdməsi danılmazdır:

Od gərəksə .... su olmusan
Su gərəksə .... od olmusan
Yada doğma, doğmalara yad olmusan
Bu minvalla ad almısan
Qəribədir bu dünyanın təzadları

Sabir Rüstəmxanlı yaradıcılığında antiteza fikrin məzmunca bir-birinə zidd olan və ya təsvir edilən vəziyyətin qarşılıqlı şəkildə tərənnüm edilməsi ilə diqqəti cəlb edir. “Antiteza poetik nitqdə geniş şəkildə özünü göstərən və tətbiq olunan bədii təsvir vasitəsidir. Poetik nitqdə onun üslubi imkanları daha genişdir. Hətta bəzi lirik əsərlər bütövlükdə antiteza üzərində qurulur. Poetik janrda onun işlənməsi təzadlı müqayisələrin müxtəlif növləri ilə daha çox bağlıdır. Antiteza təsvir olunan hadisələr və predmetlər arasındakı kontrastı müqayisə yolu ilə müəyyənləşdirir.” [27, s. 73]

Sabir Rüstəmxanlı qələmə almış olduğu şeirlərdə ahəngdarlığı artırmaq, fikri qüvvətləndirmək üçün eyni söz və ya ifadəni təkrar etməklə təkrirə də müraciət etmişdir. “Bu, adi millət deyil” şeirində təkririn anafora növündən istifadə edilmişdir. Anaforada təkrar olunan sözlər misraların əvvəlində ya yanbayan, ya da altbaalt işlənməsi ilə diqqəti cəlb edir. Bu poetik nümunədə anaforadan geniş istifadə edilmişdir:

**Şəhiddi** baş tacımız,
**Şəhiddi** neçə-neçə qardaşımız, bacımız.

Və ya

**O qədər** ki, talandım, içim boş qalmalıydı,
**O qədər** axdı qanım, dünya yaş qalmalıydı.

“Ədib” şeirində Sabir Rüstəmxanlı fikrin ifadə tərzini onun daxili mənasına qarşı qoyur:

Adını ədib qoymusan,
Ədibin ədəbi olar.
Əbədiyyət iddiadı,
Bir deyimlik təbi olar.

Sabir Rüstəmxanlı bədii yaradıcılığında ifadənin, nitqin təsirini artırmaq məqsədilə sözlərin qrammatik ardıcıllığını pozur. Şairin "Nə olardı, Allah" şeirində inversiya özünü qabarıq şəkildə göstərmişdir:

Qışa döndərdilər yurdun yazını,
Daşa dirədilər elin ağzını,
Yağan yağışların vaxtın pasını
Bir yolluq töksəydi nolardı, Allah?

Xalq yazıçısı Anar Sabir Rüstəmxanlı yaradıcılığını dəyərləndirərək qeyd etmişdir: "Sabir yaradıcılığında lirik duyğular, məhəbbət şeirləri, ən incə hisslərin ifadəsi də önəmli yer tutur. Təsadüfi deyil ki, onun mətnlərinə bir çox gözəl mahnılar yazılıb." [1, s. 3]

S. Rüstəmxanlının poetik nümunələrində obrazların yaradılması maraq kəsb edir. "Bakı küləyi" şeirində Bakının küləklər şəhəri kimi obrazını, Cənub həsrəti və nisgilini əks etdirən şeirlərində Təbriz obrazını, xalqın milli-mənəvi yaddaşına həkk olunmuş "20 Yanvar" hadisələrini əks etdirən şeirlərdə "20 Yanvar", Xocalı soyqırımını əks etdirən şeirlərdə isə Xocalı soyqırımının obraz kimi təqdimi, Azərbaycan Respublikasının qürur rəmzi olan himn və bayrağının obraz kimi tərənnümü və s. özünü göstərir.

S. Rüstəmxanlının "Bakı küləyi" şeirində Bakının küləklər şəhəri kimi obrazı ilə yanaşı Vətən ağrısını təbiətə müraciət etməsi fonunda da təqdimi diqqəti cəlb edir. Şairin "Bakı küləyi" şeirində Bakı küləyi sadəcə təbiətin komponentlərindən biri kimi təsvir edilmir. Bakı küləyi obraz səviyyəsinə yüksəldilir. Bakı küləyi vasitəsilə Azərbaycanın keşməkeşli yolu canlandırılır:

Yüz yerdə yüz tale qalır yarımçıq,
Bircə yıxılanı düzəldə bilmir!
Təzə ayaq tutan, təzə dil açan
Çaşıb bu karvanın başında gedir.

Sarılıq dünyanı çəkir dalınca
Sarıya qoşulub yaşıl da gedir...

S. Rüstəmxanlının seirlərində Cənub həsrəti, Təbriz nisgili, Sovetlər Birliyinin süqutu ilə üzləşdiyi problemlər, müstəmləkəçilik əleyhinə mübarizə, müharibənin fəsadları, Azərbaycanın yenidən müstəqillik əldə etməsi əsas yer tutur. Şair "İnansa Təbriz deyil!" şeirində xalqın Cənub nisgilinin milli müstəvidə dəyərləndirməyə nail olur:

Bu yurd türkün torpağı! İzləri itmir hələ!
Əkdiyin şər toxumu göyərib bitmir hələ
Fikrin Sasanilikdən bəriyə ötmür hələ -
Anlamırsan millətlər önündə kəniz deyil!
Təbriz sənə inanmaz! İnansa Təbriz deyil!

Tədqiqatçılarımızın qeyd etdikləri kimi "S. Rüstəmxanlının poeziyasında Cənub mövzusu, Təbriz həsrəti xüsusi yer tutur. Bu mövzu illərdir ki, milli poeziyamızın içinə çöküb və ondakı ağrı simvolikasını şərtləndirir. S. Rüstəmxanlının şeirlərində də bu ağrının, həsrətin izini duymamaq olmur." [4, s. 156-172]

İyirmi yanvar faciəsinin xalqın milli-mənəvi yaddaşında yaratmış olduğu ictimai kədər Sabir Rüstəmxanlı yaradıcılığından yan keçməmişdir. "20 Yanvar xatirəsi" şeirində Azərbaycan xalqının qarşılaşdığı həmin müdhiş gecənin ağrı və acıları dolğunluğu ilə poetik ifadəsini tapmışdır:

Bura şum yeri deyil,
Saxla, kotanı saxla!
Çək dəmir cilovunu,
Qızmış atını saxla.

Sabir Rüstəmxanlının "Xocalıdan sonra" şeiri Xocalı soyqırımına həsr edilmişdir. Millətin üzləşdiyi bu faciədən sonra səsinin qısıldığını vurğulayaraq yazır:

Xocalıdan sonra
qısılıb səsim...
Səsim o dağlara ilişib qalır.
Xocalı ləkəsi daşıyan millət,
Vuruşdan savayı nə işin qalır.

Bəşəri duyğuları vəsf edən Sabir Rüstəmxanlının yaradıcılığında azadlıq və istiqlal mövzusunun poetik təcəssümü dünyada baş verən təlatümlər fonunda əksini tapmışdır. Xalqımızın qəhrəmanlıq tarixini tərənnüm edən səhnələr müsabiqə üçün qələmə alınmış "Azərbaycan Respublikasının himni" poetik nümunəsində gələcəyə inam doğurur:

Tarix bizə pay ayırıb: Odlar Yurdu, Gözəl vətən,
Damarımda qanım coşur Azərbaycan kəlməsindən.
Dahilərin ölməz eşqi milyonların dodağında
Biz gedirik gələcəyə İstiqlalın sorağında.

Şairin tükənməz ilhamla yaratdığı "Bayrağım" adlı şeirdə Azərbaycan dövlətinin atributlarından biri olan bayrağımız iftixar və fəxarət hissi ilə poetik şəkildə tərənnüm edilərək insanlarda ruh yüksəkliyi oyadır. Sabir Rüstəmxanlı Azərbaycan bayrağının rənglərinin daşıdığı mənaları poetik düşüncələrlə təqdim etməyə nail olur:

Mavi – türklük şərəfim, varlığımız əbədi!
Yaşıl – dinim, imanım, Sevgimizin Məbədi!
Qırmızı da al qanım, axdı vətən yolunda,
Əsarət zəncirini atmaq üçün qolumdan!

Şair poeziyasının zamanla, tarixlə əlaqəsinin möhkəmləndiyini ifadə edən faktların tərənnümçüsü kimi çıxış edir. "Sabir Rüstəmxanlı içərisində olduğu ədəbiyyat və sənət mühitini daima qabarıqlığı ilə canlandırmağa, yaradıcı insanlarımızın şəxsiy-

yətinə ümumxalq məhəbbətini yaratmaq və dərinləşdirməyə xüsusi can atan, önəm verən bir ziyalıdır.” [14, s. 59]

Sabir Rüstəmxanlı poeziyası ictimai-siyasi konteksti, həmçinin də mənəvi dəyərləri bədii ifadə imkanları baxımdan zəngindir. S. Rüstəmxanlının poeziyası özündə spesifik poetik keyfiyyətləri əxz etdirməyə malikdir. Sabir Rüstəmxanlı poeziyası mənəvi dəyərlərin inikas etdirmə baxımından mənəvi-əxlaqi problemləri, təbiəti, sevgini, ictimai, sosial, siyasi və s. əhatə edə bilmişdir.

## IV. 2 Sabir Rüstəmxanlının poemaları

S. Rüstəmxanlının “Orxanla görüş”, “İnqilabdan dönən deyil”, “Hər kəs günəşi sevsə” “Atəş böcəyi”, “Azərbaycan irticası”, “Cavad xan”, “Vətənsiz” və s. poemalarının problematikası zənginliyi və müxtəlifliyi ilə diqqəti cəlb edir. Poemaların problematikasında Azərbaycan xalqının azadlıq mübarizəli tarixi yolu və müasirliyi qabardılır. Şair Vətənin qəhrəmanlıqla dolu canlı və həm də faciəli tarixi keçmişinin möhtəşəmliyi ilə yanaşı üzləşdiyi ağrı, itkilərini bəşəri və qlobal məsələlər fonunda açıqlamağa nail olur, ana dili probleminə nəzər salır, xalqımızın genezisinə ekskurs edir.

“Orxanla görüş” poemasında xalqımızın genezisinə aid tarixi dövrə müraciət edilir. Həmin tarixi dövrə aid tayfaların həyatını açıqlayan epik mənzərə yaradılır. Əcdadlarının ruhunu duyan, Bilgə Xaqanın, Doqquz Oğuz Göytürkün ruhları ilə danışan, qədim daş kitabənin qarşısında diz çökən şairin hiss və həyəcanları əksini tapır:

Diz çökdüm önündə daş kitabənin,
Diz çökdüm gurlayan Orxon önündə.
Əlini çiynimə dayaq eləyən
Bu yeri yaşadan ruhun önündə.
Diz çökdüm önündə ana dilimin,
“Türk milləti” yazan ələ diz çökdüm.

Bu boyda itkinin, bu boyda qəmin
İçindən dikələn elə diz çökdüm.

Tariximizin möhtəşəmliyi qarşısında diz çökən müəllif bu möhtəşəmliyin məhv ola biləcəyi qorxusunu da gizlətmir:

Dilimiz bir, bu birliyə ortaq olmaz,
El içində yaxın olmaz, uzaq olmaz.
Yanan evdən, yanan yurddan ocaq olmaz,
Bir sevgidən od almırsa sönməyi var.

Ana dili problemi Sabir Rüstəmxanlı yaradıcılığının əsas istiqaməti kimi diqqəti cəlb edir. Belə ki, Sabir Rüstəmxanlı "Xalqın söz sılahı" kitabında anadilli ədəbiyyata münasibət bildirərkən ana dili problemini qabarda bilmişdir. Ədib bu amilə toxunarkən, hətta anadilli ədəbiyyatın başlandığı tarixi belə vurğulayır: "... ana dilli ədəbiyyatımızın tarixini XIV yüz ildən, Həsənoğludan başlamaq məntiqə sığmır. Belə çıxır ki, bu xalq ərəb və ya fars dilində dil açıb, ilk ədəbi əsərləri də yabançı dillərdə yaradılıb. Halbuki, Dədə Qorqud boyları bu yanaşma tərzini dağıdır və ana dilli ədəbiyyatımızın tarixini İslamdan öncədəki dövrlərimizə çəkib aparır." [20, s. 9]

Azadlıq mübarizəsi mövzusu "Cavad xan" poemasında da öz əksini tapır. "Sabir Rüstəmxanlının "Cavad xan" (ilk adı "Sönmüş ocağın ağısı") poeması isə onun yaradıcılığında ədəbi hadisə kimi qiymətləndirilməlidir." [31] Poemada Cavad xanın azadlıq naminə amansız ölüm-dirim mübarizəsi aparması təsvir olunur:

Gəncə bu məmləkətin tağbəndidir elə bil,
Gəncə getsə, dalınca Azərbaycan gedəcək.

"Vətənsiz" poemasında isə Sabir Rüstəmxanlı azadlığını itirən millətin əzab-əziyyətini, ögeylər tərəfindən təzyiqin mənfi olaylarının epik mənzərəsini yaradır. Şair bir ailənin timsalında

maddi durumu faciə kimi verməyə cəhd etmir. Şair insanların doğma dilini, Vətən hissini itirməsini faciə kimi verməyə nail olur:

Elsiz, yiyəsiz kimi
düşüblər bu yollara
Dönməyə ümid varmı?
Yumruqlarım sıxılır.
Yenə Qərb yollarında
bir didərgin dolaşır,
Yenə məmləkətimin
bir yuvası dağılır.
Bir əsrdə dörd dəfə qanına qəltan olan
Xalqım,
sənin taleyin yad əllərdən asılıb.
Ən balaca xalqlar da,
millətlər də dirçəlir,
Məgər sənin bəxtinə əbədi dərd yazılıb?

Sabir Rüstəmxanlının poetik örnəklərində xalqımızın başına gətirilmiş faciələrin, qaçqınlıq və köçkünlük həyatının acılarının səbəblərini aşkarlanmasına cəhdlər özünü göstərmişdir. Buna baxmayaraq, şairin yaradıcılığında zəbt olunmuş yurdların qaytarılacağına ümid hissləri əksini tapması ilə yanaşı gələcək nəsillərin səhvlərdən ibrət dərsi almağa çağırış da özünü qabarıq şəkildə göstərmişdir.

Sabir Rüstəmxanlı "Bütövlük" poemasını Vyetnam xalqının vahidləşməsinə həsr etmişdir. Sabir Rüstəmxanlı 1976-cı ildə qələmə aldığı bu poemasında məhz o dövrdə dilə gətirilməsi belə qadağan olunmuş Azərbaycan torpağının birləşməsi, bütövləşməsi ideyasını təbliğ etməyə nail ola bilmişdir. Məhz poema Vyetnam xalqının simasında Azərbaycan azadlığını, birliyini təbliğ edirdi.

Sabir Rüstəmxanlının poemalarında epiqraflara müraciət etməsi diqqəti cəlb edir. Məsələn, "Cavad xan" poemasında "za-

man üzgücü kimi çəkibmiş nəfəsini Yüz ili yüzlük kimi xırdalamaq istəmir. Əfsanəyə bənzəyən həqiqətdir keçmişim. Mütilər bu keçmişi xırdalamaq istəmir" [25, s. 160] kimi şeir bəndi epiqraf kimi təqdim edilmişdir. Epiqrafın poemanın mövzusu ilə tam səsləşdiyinin şahidi oluruq. Təqdim edilən epiqraf oxucunun diqqətini əvvəlcədən poemanın ümumi məzmun və ideyasına yönəltməyə nail ola bilir. Epiqrafın müəllifinin verilməməsi, bu epiqrafın müəllifə aid olması fikrini yaradır.

Sabir Rüstəmxanlının poemalarının bədii dilinin tərkibi zənginliyi ilə seçilir. Ədib qələmə aldığı poemaların mövzularına uyğun olaraq, təsvir etdiyi dövrün söz və ifadələrinə də müraciət etmişdir. Bu baxımdan, poemaların dilində arxaizmlərə, dialektizmlərə tez-tez rast gəlinir. S. Rüstəmxanlının müəllifi olduğu poemaların bədii dil tərkibində neologizmlərə, varvarizmlərə, vulqarizmlərə, hətta terminlərə də rast gəlinir. Ədibin "Cavad xan" poemasında çəki ölçü vahidi olan pud sözünün işlənilməsi məhz ədibin dilində arxaizmlərə aid söz kimi diqqəti cəlb edir:

Bu gencə dizlərimdə qanadın gencə açıb
Qartalsan ayağına ***pudluq*** daşlar asılmış. [25, s. 164]

Qeyd etməliyik ki, pud Azərbaycan xalqının məişətinə daxil olmuş çəki vahididir. 40 girvənkə və yaxud 2 batman 1 pud deməkdir, yəni 16,4 kq-lıq çəki daşlarına pudluq daş deyilir.

Sabir Rüstəmxanlı vulqarizmlərə müraciət etməklə ədəbi dildə işlənməyən kobud sözlərlə obrazın xarakterini açmaq məqsədini güdür:

...Cavad xan saqqalını tumarlayıb əsəbi
"***Əbləh oğlu, əbləhin*** başı ayılıb deyən." [25, s. 164]

Sabir Rüstəmxanlının poemalarında istifadə etdiyi bədii təsvir və ifadə vasitələri də diqqəti cəlb edir. Belə ki, ədib poemalarında söz və ifadələri sözün həqiqi və məcazi mənasında işlətmişdir:

Çağırtdırdı Mirzəni...Yuxulamışdı nə isə
Ürəyindən bu axşam ***qara qanlar axırdı***. [25, s. 164]

Müəllif "Cavad xan" poemasında "qara qanlar axırdı" ifadəsini məcazi mənada işlətmişdir.

S. Rüstəmxanlı yaradıcılığı epik və lirik cəhətlərin müştərək vəhdəti ilə yaranmış nümunələrdə yaratmış olduğu obrazlar qalereyası ilə diqqəti cəlb edir. "Atəş böcəyi" poemasında Güney və Quzey Azərbaycanında azadlıq və müstəqillik uğrunda mübarizə aparmış ictimai xadim, filoloq alim, professor Mahmudəli Çöhrəqanlının, "Didərginlər" poemasında Balaş Azəroğlu, Söhrab Tahir, Hökumə Billuri kimi tarixi şəxsiyyətlərin, "Hər kəs günəşi sevsə" lirik poemasında İran milli hüquqsuzluğuna qarşı mücadilə edən türk qızı Mərziyə Əhmədi Üskuiinin, "Azərbaycan irticası" poemasında S.C. Pişəvərinin, "Cavad xan" poemasında Cavad xanın obrazları maraq doğurur.

S. Rüstəmxanlının "Atəş böcəyi" poeması Güney və Quzey Azərbaycanında azadlıq və müstəqillik uğrunda mübarizəyə həsr olunmuşdur. Poemada paralel şəkildə, yəni Güney Azərbaycanında, həmçinin Quzey Azərbaycanında baş vermiş ictimai-siyasi proseslər (milli-azadlıq hərəkatı, müstəqilliyin bərpası uğrunda mübarizə və sonrakı dövrdə baş verən ictimai-siyasi proseslər) təsvir edilir. Poema ictimai xadim, filoloq alim, professor Mahmudəli Çöhrəqanlıya ithaf olunmuşdur. Əsərdə M. Çöhrəqanlının həyat eşqi ilə dolu mübarizə yolu geniş əksini tapmışdır. Şair Mahmud Çöhrəqanlı kimi özünün də müstəqillik yolunda mübarizə aparmasını vurğulayaraq qələmə alır:

Qınından sıyrılan
qılıncım!
Zülmət ilə vuruşan
xırda atəş böcəyi.
Ya öləcək Vətənimiz
Ayrılıq mərəzindən

Ya ikimiz
bir səngərdə öləcəyik!

Sabir Rüstəmxanlı 1945-1946-cı illərdə Təbrizdə yaradılan milli hökumətin fəaliyyət və məğlubiyyəti tarixini dərindən dərk edərək "Didərginlər" poemasında əks etdirməyə nail ola bilmişdir. Müəllif didərgin deyərkən, poema qəhrəmanı kimi seçdiyi Balaş Azəroğlu, Söhrab Tahir, Hökumə Billuri və başqa tarixi şəxsiyyətlərin həyatlarına işıq sala bilmişdir. 21 Azər faciəsindən sonra Şimali Azərbaycana gəlmiş bu şəxslərə sovet dövlətinin siyasəti nəticəsində onlara iranlı siyasi mühacir pasportları təqdim edilmiş, yaşadıqları respublikanın vətəndaşlığı verilməmişdir. Sabir Rüstəmxanlı Milli hökumətin fəalları olmuş görkəmli şairlər kimi tanınan Balaş Azəroğlu, Söhrab Tahir və digər ədiblərin öz torpaqlarında hüquqsuz yaşaması amilinə toxuna bilmişdir:

Vətəni ola-ola
şair mühacir olsun,
Ayağı ola-ola
gəzə bilməyə
babalarından yadigar torpağı!

Ədibin "Hər kəs günəşi sevsə" lirik poemasında da İran milli hüquqsuzluğuna qarşı mücadilə edən türk qızı Mərziyə Əhmədi Üskuiinin simasında mübarizənin şahidi oluruq.

Sabir Rüstəmxanlının yaradıcılığında poemaların müxtəlif janr formatında təqdimi diqqətdən yayınmır. Məsələn, müəllif "Azərbaycan irticası" poemasını poema-monoloq kimi təqdim etmişdir. Həyatın lirik və epik təsvirini verməyə qadir olan poema həcminin böyük olması ilə fərqlənir. Yəni, hər iri həcmli əsər poema adlana bilməz. Poema nadir qəhrəmanın və ya nadir hadisənin şeir dilində təsvir və tərənnüm edilməsidir. "Azərbaycan irticası" poemasında qəhrəmanın və hadisələrin lirik-epik təsvir və tərənnümü monoloqlar şəklində təqdim edilmişdir.

Sabir Rüstəmxanlı "Azərbaycan irticası" poema-monoloqunda xalqın azadlıq mübarizəsini milli tarixin labüd mərhələsi və ali meyarı olmasını qeyd edir:

İstəyirsən bir milləti
Əridəsən öz içində.
Gizlədəsən, itirəsən
Sən günəşi toz içində.
Gecə-gündüz su töksən də,
Gur ocağı sönən deyil.
Qardaşdan da dönsə Təbriz
İnqilabdan dönən deyil.

"Azərbaycan irticası" poemasında İranda hər il S.C. Pişəvərinin başçılığı ilə qurulan hökumətin yıxıldığı 21 Azər (dekabr) gününün bayram edilməsi, "Azərbaycan irticası" üzərində qələbə adlandırılması əksini tapmışdır. Poemada, həmçinin inqilab beşiyi olan Təbrizin bir gün öz qəti sözünü deyəcəyi qabardılmışdır.

Şair "İnqilabdan dönən deyil" lirik poemasında bir il (21 Azər 1945 - 21 Azər 1946) ömür sürmüş Cənubi Azərbaycan Demokratik Respublikasının xəyanət yolu ilə devrilməsini təsvir edir. Poema azadlıq mücadiləsini əks etdirən sənət örnəyi kimi dəyər kəsb edir.

Sabir Rüstəmxanlı poetik yaradıcılığında da əqidəsinə sadiq qalmasını daim nümayiş etdirmişdir. Onun əqidəsinə sadiq qalması faktı Xalq şairi Bəxtiyar Vahabzadə tərəfindən yüksək dəyərləndirilmişdir: "Cəsarətlə və bütün məsuliyyətimlə deyə bilərəm ki, onun ömür yollarında, bu keşməkeşli yolların bütün dolaylarında atdığı addımlar ayaqlarının deyil, əqidəsinin addımlarıdır. Bir sözlə, Sabir amal və əqidəsinin övladı olduğuna görə əqidə atasının buyruğu ilə ədəbiyyata gəlmişdir. Onu şairliyi əqidə sahibi etməyib, əksinə, əqidəsi onu şair edib." [3, s. 21-22]

Sabir Rüstəmxanlı yaradıcılığında Azərbaycan xalqının tarixi və müasir həyatının epik mənzərəsini əks etdirən "Bütövlük",

“Azərbaycan irticası”, “Didərginlər”, “Hər kəs günəşi sevsə”, “Cavad xan”, “Vətənsiz” və s. kimi poemaları xüsusi yer tutur.

## IV. 3 Sabir Rüstəmxanlı nəzmində xalq yaradıcılığına müraciət

Sabir Rüstəmxanlı poeziyası Orta əsr Azərbaycan ədəbiyyatında formalaşmış janrları, sərbəst şeir şəklini, heca vəznini əxz etdirməklə yanaşı xalq yaradıcılığına müraciət etməsi ilə də diqqəti cəlb edir. Sabir Rüstəmxanlı yaradıcılığında poetik varisliyin qorunub saxlanılması amili tədqiqatçılar tərəfindən xüsusi vurğulanmışdır. Akademik İsa Həbibbəyli S. Rüstəmxanlı poeziyasında poetik nümunələrin varislik ənənələrinə riayət edilməsi amilinə toxunmuşdur: “Müşahidələrdən aydın olur ki, Sabir Rüstəmxanlının şeirlərində forma baxımından poetik varisliyin qorunub saxlanılması məlum forma biçimlərində yeni, obrazlı fikirlərin təzahürünə şərait yaratmışdır.” [10, s. 223]

Sabir Rüstəmxanlının xalq şeirində geniş yayılmış bədii formalardan biri olan gəraylıya müraciət etməsi diqqəti cəlb edir. 3, 5, 7, 9 və s. bənddən ibarət olan, hər bəndi dörd misradan, hər misrası səkkiz hecadan ibarət olan gəraylı şairin “Dağdan danışa bilmirəm”, “Ölümə doğru”, “Üzümə durur”, ”Yardımlıya dönərkən”, “Dağlara qovuşuram”, “Vida qabağı”, “Getmə”, “Baxma mənə” və s. poetik nümunələrində özünü göstərmişdir. Şairin üç bənddən ibarət olan “Baxma mənə” poetik nümunəsi cavabı olmayan, qarşılıqsız sevgini əks etdirir:

Səni candan sevirəmsə, - 8 heca **- a**
Kölən kimi baxma mənə! - 8 heca **- b**
Ürəyimdə nə çəkirəm? - 8 heca **- c**
Bilən kimi baxma mənə! - 8 heca **- b**

Nə keçirsə gündən keçir, - 8 heca **- ç**
Ümidimiz gendən keçir, - 8 heca **- ç**
Bu dərdlər ki, məndən keçir. - 8 heca **- ç**
Gülən kimi baxma mənə! - 8 heca – **b**

Göründüyü kimi, "Baxma mənə" gəraylısında qafiyə sistemi a-b-c-b (1-ci bənd), ç-ç-ç-b (2-ci bənd) şəklindədir. Gəraylıda qafiyələnmə sisteminin qoşmada olduğu kimi olması da diqqətdən yayınmır. Birinci bəndin 1-ci və 3-cü misrası sərbəst buraxılmış, 2-ci və 4-cü misrası həmqafiyədir. Qalan bəndlərdə 1-ci, 2-ci, 3-cü misralar öz aralarında həmqafiyə olur, 4-cü misra isə 1-ci bəndin son misrası ilə qafiyələnir.

Aşıq şeirinin ən ahəngdar formalarından biri olan qoşma Sabir Rüstəmxanlı yaradıcılığına yad deyil. Məlumdur ki, qoşma 3, 5, 7 bənddən, hər bəndi dörd misradan, hər misrası isə on bir hecadan ibarət olur. Şair "Yardımlıya dönərkən", "Son", "Neyləyim", "Qorusun", "Dözüm", "Gözünü yumdunmu" və digər poetik nümunələrində şifahi və klassik şeirimizdə geniş yayılmış qoşmanı yaratmağa nail olmuşdur. S. Rüstəmxanlının beş bənddən ibarət "Ayır bizi" qoşmasına diqqət yetirək:

Yurdun sərvətini talayan alçaq! - 11 heca **- a**
Onsuz da düşmənlər talayır bizi. - 11 heca **- b**
Niyə od vurursan ürəyimizə, - 11 heca **- c**
Dərd öz ocağına qalayır bizi! - 11 heca **- b**

Bu nə vurhavurdu, bu nə qazancdı? - 11 heca **- ç**
Millətin didərgin, millətin acdı, - 11 heca **- ç**
Pul hansı hikməti üzünə açdı, - 11 heca **- ç**
Nadanlıq qurd olub dalayır bizi. - 11 heca **– b**

"Ayır bizi" qoşmasının birinci bəndinin birinci və üçüncü misraları sərbəst, ikinci və dördüncü misralar həmqafiyədir. Qoşmanın sonrakı bəndlərinin üç əvvəlki misraları bir-biri ilə, dördüncü (sonuncu) misrası isə birinci bəndin son misrası ilə həmqafiyədir.

Sabir Rüstəmxanlı yeddi bənddən ibarət olan "Çıxır" qoşmasının sonunda qoşmaya xas işlənən möhür bəndə (tapşırma) müraciət edir:

Mən uda bilmirəm, dünya udsa da, - 11 heca
Unuda bilmirəm, el unutsa da. - 11 heca
Millətin çəkdiyi dərdlər batsa da, - 11 heca
Yenə **Rüstəmxanlı** sözünə çıxır. - 11 heca

S. Rüstəmxanlı yaradıcılığında milli ənənələrə qayıdış edərək folklorun müxtəlif janrlarına, şeir formalarına müraciət etmişdir. Ümumxalq təfəkkürün məhsulu olan şifahi xalq ədəbiyyatının həyatı əksetdirmə üsuluna görə üç növə ayrılan növlərinə biganə qalmaması şifahi xalq ədəbiyyatına olan sevgisindən irəli gəlir. Sabir Rüstəmxanlı şifahi xalq ədəbiyyatının müxtəlif növ və janrlarından istər publisistik yazılarında, istərsə də bədii yaradıcılığında aktual şəkildə istifadə etmiş, bununla da ifadə etmək istədiyi fikir və ideyanı oxucusuna çatdırmağa nail ola bilmişdir. S. Rüstəmxanlı yaradıcılığında həm xalq yaradıcılığına aid nümunələr qələmə almış, həmçinin xalq yaradıcılığı nümunələrindən qələmə almış olduğu əsərlərində istifadə etmişdir. Ədibin söz yaradıcılığında bayatılardan, qoşmalardan, gəraylılardan, lətifələrdən, atalar sözlərindən, məsəllərdən və s. janrlardan istifadə etmə özünü göstərməkdədir.

Milli adət-ənənələrə söykənən bu poetik nümunələrdə Sabir Rüstəmxanlının xalq ruhuna yaxınlığı duyulur. Bu baxımdan, ədibin "poeziyası milli şüur poeziyasıdır, xalqın, millətin öz mənliyini, əzəmətli keçmişini dərk etmək uğrunda mübarizənin, bütün rəsmi və qeyri-rəsmi yalanları, saxtakarlıqları darmadağın etmək yolunda səfərbər olunmuş iradə gücünün, mətanət və mərdanəliyin, qarşısıalınmaz ruh qüvvəsinin poeziyasıdır." [25, s. 9] Sabir Rüstəmxanlının xalq bədii düşüncəsinə köklənmiş poeziyası ideya-məzmun zənginliyi, həmçinin janr qarışıqlığı ilə fərqlənir. Müəllif qələmə almış olduğu poetik nümunələrdə mənəviyyat problemlərini qabardaraq, dövrün nəbzini əks etdirməyə qadir olur.

Söz mədəniyyətinin bütün inkişaf mərhələlərində təkmilləşən şifahi xalq ədəbiyyatının müxtəlif janrlarına müraciət etmiş

Sabir Rüstəmxanlı poeziyasında şifahi xalq ədəbiyyatı janrlarına aid gəraylılar, qoşmalar qələmə almışdır.

## IV. 4 Orta əsr Azərbaycan ədəbiyyatında formalaşan janrlara müraciət

Sabir Rüstəmxanlı yaradıcılığında klassik ədəbiyyatın şeir janrlarından olan qəsidə janrına müraciət etməsi təqdirəlayiqdir. Məlumdur ki, qəsidə öz mövzusuna görə də fərqlənir. Məsələn, dini mövzudan bəhs edən qəsidə (minacat), peyğəmbərin tərifinə həsr edilmiş qəsidə (nət), müəllifin özü haqqında bəhs edilən qəsidə (fəxriyyə), müqəddəs şəxslərin, qəhrəmanların ölümü ilə əlaqədar yazılan qəsidə (mərsiyə) və s. qəsidə növləri mövcuddur. Sabir Rüstəmxanlının qəsidənin məzmununa görə əsasən, mərsiyə növünə müraciət etməsi diqqəti cəlb edir. Dini xarakter daşıyan mərsiyələrində əsasən, Kərbəla müsibətləri, dini şəxsiyyətlər və hadisələr haqqında düşüncələri əksini tapmışdır. Ə. Xaqaninin arvadının, oğlunun, qızının vaxtsız dünyanı tərk etmələri haqqında, Mirzə Ələkbər Sabirin H. Zərdabi, Müzəffərəddin şah, Şamaxının nüfuzlu şəxslərindən olmuş Hacı Məcid Əfəndi və başqalarının vəfatı ilə əlaqədar mərsiyələri mövcuddur.

S. Rüstəmxanlının yaradıcılığında mərsiyəyə müraciət etməsi maraq doğurur. Ədibin Xəlil Rza Ulutürkün ölümündən təsirlənərək qələmə almış olduğu mərsiyədə qəm, kədər, ədalətsizlik, zülm və şər, şəxsi üzüntülərlə ictimai duyğu və düşüncələr vəhdətdə verilərək zamanın bəla və müsibətlərini əks etdirilir:

Qırx il öz kəfənini boğazında daşıdın,
Sinəni səngər etdin, səngərlərdə yaşadın.
Sən mənə dost deyildin, qanıbir qardaş idin!
Masası ocaq daşı, yol daşı, Xəlil Rza,
Nəsiminin, Cavidin yoldaşı Xəlil Rza!

Mərsiyə dini şəxsiyyətlərin, müqəddəslərin, hökmdarların, xalq qəhrəmanlarının və başqalarının ölümündən doğan kədəri

ifadə edən şeirlərdir. Ölümlə, yasla əlaqədar yazılan mərsiyələr bir qayda olaraq, tərkib-bənd formasında, həmçinin qəsidə və tərci-bənd nəzm şəkillərində də qələmə alınırdı. Qitələrdə isə maddeyi-tarixlər göstərilirdi.

S. Rüstəmxanlının orta əsrlər ənənəsinə sadiq qalması və ictimai mövzulu olmaqla, çox zaman məhəbbət və gözəlliyi tərənnüm edən şeir forması olan müxəmməs qələmə alması faktı f.ü.f.d. Tənzilə Rüstəmxanlı tərəfindən vurğulanmışdır: "Türk xalqı "Olmaz!" deyir" adlı şeir 14 hecalı müxəmməs formasında yazıldığı halda, altıncı bənddən sonra şair ricətə çıxaraq həm formanı, həm də məzmun sərhədlərini aşaraq tam "sərbəstləşməklə" bir poemanın ifadə edə biləcəyi ideyanı bir şeirlə əhatə edir." [30]

"Türk xalqı "Olmaz!" deyir" adlı şeirə nəzər saldıqda, onun aşıq poeziyasında lirik şeir şəkillərindən biri kimi, yəni müxəmməs olması mübahisə doğurur:

Sınırlar açılmalı! Batı belə buyurdu…
Quran kim, yaşadan kim, yönətən kim bu yurdu?
Dovşanın ayağına aparırlar Boz qurdu –
Şərəfli tarixinə şərəfsizlik yaz deyir
İqtidar axtarışda!.. Türk xalqı "olmaz" deyir!

Bir tərəfdə Türkiyə, bir tərəfdə Türküstan,
Cahangirlər əlində param-parça bir cahan
Ortada Altın Körpü -yaralı Azərbaycan
"Başla bədən ayrılsın, qopsun bu boğaz" - deyir
Bıçaqlar itilənir… Türk xalqı "olmaz!" deyir!

Müxəmməsin hər bəndi beş misradan ibarət olur. "Türk xalqı "Olmaz!" deyir" şeirinin də hər bəndi beş misradan ibarətdir. Müxəmməsin son bəndinin misralarından birində müəllifin təxəllüsü verilir ki, təqdim edilən poetik nümunədə buna rast gəlmirik. Klassik poeziyada müxəmməsin qafiyə quruluşu belədir: aaaaa, bbbba, cccca, çççça və s.. Deməli, müxəmməsin birinci

bəndində bütün misralar bir-biri ilə qafiyələnir. Sonrakı bəndlərin dörd misrası öz aralarında həmqafiyə olur, beşinci misra isə birinci bəndin misraları ilə qafiyələnir. "Türk xalqı "Olmaz!" deyir" şeirinin birinci bəndinin bütün misraları bir-biri ilə qafiyələnməyir, həmçinin digər bəndlərdə üç misra bir-bir ilə qafiyələnir. Sonuncu bəndlərdəki misraların sayı dəyişilir, qafiyələnmə pozulur, sərbəst formada təqdim edilir.

Müasir dövr ədəbiyyatında mərsiyə janrına müraciətin artması ədəbiyyatımızda aktuallıq qazanmış şəhidlik mövzusu ilə six bağlıdır. Sabir Rüstəmxanlı Azərbaycan ədəbiyyatında şəhidlərimizi vəsf etmək baxımından, mərsiyəyə müraciət etmişdir. Məhz, "Azərbaycan türk poeziyası məmləkətin milli, mənəvi sağlamlığını, istiqlalını, ərazi bütövlüyünü düşmənlərdən qorumaq uğrunda mübarizədə yetişmiş mücadiləçi, müdrik bir sənət" [25, s. 9] kimi Sabir Rüstəmxanlı poeziyasını mövzu baxımından rəngarəng olmasına şərait yaratmışdır. Vətənpərvərlik və özünəqayıdış amalı spesifik formada özünü Xalq şairi S. Rüstəmxanlının yaradıcılığında ictimai-siyasi ovqatda büruzə vermişdir. Bu özünü vətənə, millətə bağlı olan şairin şəhid olmuş insanlara həsr olunmuş şeirlərində gerçəkləşmişdir. S. Rüstəmxanlı dövrün ictimai-siyasi proseslərlə əlaqəli olan tarixi olaylarına münasibət bildirərək vətənin azadlığı və bütövlüyü uğrunda şəhid getmiş şəhidlərimizin xatirəsini zəngin boyalarla oxucuya çatdırmağa nail ola bilmişdir. "Bu adi millət deyil" şeirində şəhid olmanı xalqın nicatı kimi göstərməyə nail ola bilən şair qələmə almışdır:

Şəhiddi neçə-neçə qardaşımız, bacımız.
Allah üz döndərəndə şəhidlik - əlacımız.
Bir candı, qaytarırıq – elə də minnət deyil.
Qoy tarix yenə görsün, bu adi millət deyil!

Sabir Rüstəmxanlı xalqın tarixi yaddaşına həkk olunmuş şəhidlərimizi vətən yolunda qurban getmələrini yüksək amal olmasını qabarda bilmişdir.

## IV.5 Sabir Rüstəmxanlı yaradıcılığında sərbəst şeir şəkli

Sabir Rüstəmxanlının səpkili şeirlərinin mövzu və problemləri müxtəlifdir. Bu mövzular əsasən, Vətən qayğısı, ona olan sevgi və azadlığı, insan məhəbbətini və xoşbəxtliyini, təbiətin gözəlliyini, dəyərli insanların unudulmamasına çağırış, Cənubi Azərbaycan, Təbriz həsrəti, insanlara laqeydliyi və s. əhatə edir. Sabir Rüstəmxanlının sərbəst şeir formasında "Şair heykəlləri" şeirində ədəbiyyatımızın tərəqqisində əvəzsiz xidmətləri olmuş insanlara olan laqeyd münasibət açıqlanır.

Bakı meydanlarında
Heykəl-şairlərin
Boynu bükülü.
Üzlərinə tariximin
Qəmi çəkilib

Müəllif bu misraları qələmə almaqla diqqəti millətin tarixinə yönəltməyə, xalqın tərəqqisində xidmətləri olanları unutmamağa çağırış edir. Nizamini, Nəsimini, Füzulini, Natəvanı, Axundzadəni, Sabiri, Səməd Vurğunu, Cabbarlını, Müşfiqi təsvir etməklə tarixi olayları gözümüzdə canlandırır:

...Yanırlar illər boyu
yada da, qardaşa da.
Düşünməyi, duymağı
öyrədiblər daşa da. [25, s. 100]

Sabir Rüstəmxanlının sərbəst şeir formasında qələmə almış olduğu poetik nümunələrdə konkret həyat hadisələri haqqında gəldiyi qənaətlər, yəni təlqin etdiyi ideyalar mövzu ilə ahəngdarlıq təşkil edir.

Sabir Rüstəmxanlının sərbəst şeir formasında qələmə alınmış "Vətən" adlı şeirində də xalqın azadlığı uğrunda mübarizə

aparmış insanların olması faktı qabardılmışdır. Bununla qələmə almış olduğu şeirin mövzusunu qabartmağa nail ola bilmişdir:

Bir dərə bahar leysanıdı,
21 Azərin qanıdı,
Cavad xanın qətl yeridi,
Sabirin "Fəxriyyə" şeiridi,
Dağları dumanda itən-
Vətən... Vətən! ...

"Vətən" adlı şeirin sərbəst şeir nümunəsində şeirin ölçü, bölgü, qafiyə sistemindən istifadə sərbəst şəkildədir, sözlər misralara ahəngdar şəkildə səpələnir. Bununla bağlı qafiyə, ölçü, bölgü, misraların həcmi, hecaların misralardakı sayı, ahəngi tamamilə formal səciyyə daşıması ilə diqqəti cəlb edir. Şeirdə qafiyə ardıcıl şəkildə deyil, bir neçə misradan sonra da gəlir, bəzən isə dalbadal da işlənir. Şeirdəki bənddə misraların və hecaların sayı da müxtəlifdir. Şair sərbəst vəzndə müxtəlif ölçülü misralardan, misradaxili fasilələrdən və hecalardan istifadə etmişdir. Şeirdə hisslərin tərənnümü, poetik fikrin emosional təsviri qabarıq şəkildə özünü göstərməkdədir.

Sabir Rüstəmxanlının sərbəst şeir formasında qələmə aldığı şeirlərində monoloq və ya dialoqlardan istifadə etməsi maraq doğurur. "Bir qarış vətən torpağı" şeirində düşmən elçilərinin tələbləri və hökmdarın bu tələblərə cavabları dialoqlar şəklində təqdim edilmişdir:

Sonuncu şərtimiz də
çox asandı, çox asan:
Ölkəmiz arasında
on addımlıq o bomboş,
o gərəksiz torpağı
bizə bağışlamalısan... [25, s. 32]

Hökmdarın düşmən elçilərinin bütün istəklərini həyata keçirməsi, lakin bu istəyə qarşı etirazı onun cavabında səsləndirilir ki, bu da sərbəst şeirdə dialoqun formalaşmasına səbəb olur:

“Ey düşmənlərim,
döyüşə hazıram mən!
Mənim özümün idi-
qurban verdim atımı,
“hədiyyə” getdi yarım...
Ancaq torpaq verməyə
mənim nə ixtiyarım!?
Nədir sizin həddiniz?
Nə cürətlə altında
ulu babalarımın
ruhu yatan torpağa
gərəksiz söylədiniz?!” [25, s. 32]

Sabir Rüstəmxanlının sərbəst şeir formasında qələmə aldığı poetik nümunələr də özünün bədii dilin tərkibi, istifadə etdiyi təsvir və ifadə vasitələri ilə zəngindir. Məsələn, “Salam, Gəncə qapısı” şeirində bədii təsvir vasitəsi olan məcazdan istifadə etmə məqamına diqqət yetirək:

Səkkiz yüz ildi paslı,
dəmir damarlarından
qan kimi axır həsrət. [25, s. 48]

“Dəmir damarlar” birləşməsində damarın metalla heç bir əlaqəsi yoxdur. Dəmir sözü güclü, möhkəm mənasında işlənilmişdir. Burada dəmir sözü möhkəm, dözümlü, davamlı mənasını ifadə edir. Şair məcazi mənada dəmiri işlədərək, məhz davamlı olmasını qabarda bilmişdir. Özü bu amili konkret olaraq il göstərməklə də təsdiq edir: “səkkiz yüz il.” Gəncə qapısının tarixi yaddaşlarda yaşamasını, millətin qanına hoparaq zəmanəmizin

yaddaşında yaşadığını məcazı mənada təqdim etməyə nail ola bilir.

Şairin sərbəst şeir nümunələrinin bədii dil tərkibi neologizmlərin, arxaizmlərin, varvarizmlərin, vulqarizmlərin, terminlərin, hətta dialektizmlərin işlənilməsilə diqqəti cəlb edir. "Nəyə gərək belə qardaş" şeirində müəllif obrazın xarakterini tam açıqlamaq üçün vulqar sözlərə müraciət etməli olur:

Kişilərin ucaltdığı
nakişilər əllərində uçulmazdı. [25, s. 51]

Və ya

Xoş qeyrətli filanzadə!
nökər ruhlu haramzadə
səndən də pis! [25, s. 51]

Sabir Rüstəmxanlı istifadə etdiyi vulqar sözlər vasitəsilə təqdim etmək istədiyi fikirlə yanaşı obrazın səviyyəsini, rəftarını göz önündə canlandırmağa qadir olur.

Sabir Rüstəmxanlının sərbəst şeir formasında qələmə aldığı poetik nümunələrdə təsvir edilən obrazlar həm lirik qəhrəmandır, həm canlı insanlardır, həm də cansız əşyalar. Məsələn, "Əli bənövşəli qadın" şeirində şeirin adına çıxarılmış yaşlı, dərdli qadın obraz kimi təqdim edilmişdir. Şeirdə təsvir edilən "üççə saplaq bənövşə" də yaşlı qadın kimi müəllifin emosional aləmini təqdim edə bilir:

Saçları ağarmış, üzü qırışmış
yaşlı bir qadın
kötüyə dönmüş əlində
üççə saplaq bənövşə
gedir yolla
yanından ötüb keçən
adamları görmədən. [8]

Sabir Rüstəmxanlının sərbəst şeir formasında qələmə alınmış “Min illər...” şeirində əbədiyyətin bir obraz kimi təqdimi diqqəti cəlb edir. Şair əbədiyyətə gedən yolun başlanğıcında sevginin durmasını göstərir. Bu şeir nümunəsində həm əbədiyyəti, həm sevgini obraz səviyyəsinə yüksəldə bilir. Müəllif duyğu və düşüncələrini qabarıq əks etdirdiyinə görə şeirdə əsas obraz kimi çıxış edir. Bu da lirik qəhrəman adlanır ki, “Min illər...” şeirində müəllif özünün obrazını yarada bilir:

Bu sevgidir yağış olub yağan,
Qar olub əriyən…
Güllərin könül rüzgarı kimi
Bu dünyanı bürüyən…
İkimizin köksündə bir ruh, bir can…
Gedir əbədiyyət karvanı – başında sevgimiz.
Həm karvana son qoşulan,
Həm də dünya qədər Qoca Sarvan! [8]

Məsələn, şairin “Təzə pərdə” şeirində biz maraqlı bir obrazın təqdimi ilə rastlaşırıq: Şairin nəsil səcərəsinin obrazı ilə. Müəllif bu obraz vasitəsilə özünün soy-kökünə qayıdış etməklə, söykökün unudulmamasına çağırışlar edir. Bu çağırışlara rəğmən biz şeirdə müəllifin əsas obraz kimi, yəni lirik qəhrəman kimi çıxış etdiyinin şahidi oluruq:

Bizim nəsil bir sevginin
Nüvəsindən şaxələnib.
Qayalarda söğnaq tapan
qoç igidin
Yuvasından şaxələnib.
Neçə arxa, neçə qanad,
Neçə çarpaz, neçə düyün. [25, s. 24]

Şeirdə ədibin nəsil səcərəsinin təqdimi məhz tarixi yaddaşa etinasız qalmamağı təbliğ edir. Müəllif özünün obrazını, lirik qəhrəman obrazını da yaratmağa nail olaraq, təbliğ etdiyi tarixi keçmişə etiqad, söykökə qayıdış amillərini göstərə bilmişdir. Biz müəllifin bu nəsil səcərəsinin layiqli davamçısı kimi özünü təqdim etməsini görürük:

O ulusun adı məndə -
Babaların şax səsiyəm.
Bizim nəsil – saz qoludu,
Onun təzə pərdəsiyəm... [25, s. 24]

Qeyd etməliyik ki, ədəbiyyatşünaslıqda sərbəst şeir formasının üç qrupa ayrılması mövcuddur: Birinci, vəznli - qafiyəli sərbəst şeir, ikinci, vəznsiz - qafiyəli sərbəst şeir, üçüncü isə vəznsiz - qafiyəsiz sərbəst şeir. S. Rüstəmxanlı yaradıcılığında vəznli - qafiyəli, vəznsiz - qafiyəli və vəznsiz - qafiyəsiz sərbəst şeir formalarında sərbəst şeirlərin qələmə alınması diqqəti cəlb etməkdədir.

Şairin "Gülən xanımın çiçəkləri" şeiri vəznsiz- qafiyəli sərbəst şeir səpkisində qələmə alınması ilə diqqəti cəlb edir. Yəni səs tərkibinə görə bir-birinə uyğun gələn, eyni cür səslənən sözlər olan "cavabı" və "savabı" sözləri bir-birilə, "nəğməsi" və "sərgisi" sözləri isə bir-birilə qafiyə yaratmağa nail olur. Lakin şeirin heca bölgüsü müxtəlifdir. Bəzi misrası on, bəzi misrası səkkiz, bəzi misrası altı, bəzi misrası beş və s. şəklindədir:

Tanrının insan baxan gözləri,
Sehirli ayna,
Torpağın ruhu.
Əllərin dilsiz ***cavabı***.
Ürəyin mərhəmət ***savabı***.
Bir evin susmaz ***nəğməsi***,
Möcüzə ***sərgisi.*** [25, s. 311]

Sabir Rüstəmxanlının "Özünü öymür" şeiri də vəznsiz-qafiyəli sərbəst şeir nümunəsidir. Şeirdəki "sözünü", "gözünü", "özünü", "düzünü" qafiyədilər. Qafiyələr adətən misraların sonunda işlənir. Lakin bu şeir parçasının sonunda təkrarlanan "öymür" sözü rədifdir.

Bulaq nəğmə deyir,
***sözünü*** öymür.
Çiçək göz oxşayır
***gözünü*** öymür.
Çinar göyə çatır
***özünü*** öymür.
Vətən
Torpağını
***düzünü*** öymür... [25, s. 103

Şairin "Ölən qorxumuz" şeiri isə vəznsiz-qafiyəsiz sərbəst şeir nümunəsi kimi diqqəti cəlb edir:

Şükür
Unudulmayıb
Yüz ilin o üzündə
itirdiyim bir nəğmə!
Mən öyrətdim, öyrətmədim
Səslənir oğlumun dilində! [25, s. 188]

Maraqlı məqamdır ki, Sumqayıt yetimlərinə həsr olunmuş on bənddən ibarət olan "Ölən qorxumuz" şeiri sərbəst şeir forması ilə heca vəznin qarışığı kimi özünü göstərmişdir. Şeirin son dörd bəndi heca vəznində on bir hecalı şeir şəklində qələmə alınmışdır:

On beş yaş! Xətai yaşıdı bu yaş,
Başsızın başının daşıdı bu yaş
Bizim ruhumuzun yaşıdı bu yaş
Ölən qorxumuzun yaşıdı bu yaş. [25, s. 189]

On bir hecalı şeir şəkilləri yazılı ədəbiyyatımızda geniş yayılmışdır. Belə şeirlərin 6-5, 4-4-3, 5-6, hətta 3-4-4 bölgüsü özünü göstərməkdədir. Şairin qələmə almış olduğu bu şeirdə biz on bir hecalı şeir şəklinin 6-5 bölgüsünü müşahidə edirik.

Sabir Rüstəmxanlı sərbəst şeir formasının öz tələbləri olmasını vurğulaması məntiqəuyğundur. Çünki sərbəst şeir formasının da özünə məxsus qanunauyğunluqları mövcuddur. Sərbəst şeirdə müəllif şeirin ölçü, bölgü, qafiyə sistemindən sərbəst şəkildə istifadə edir. Sərbəst şeirdə qafiyə, ölçü, bölgü, misraların həcmi, hecaların misralardakı sayı, ahəngi tamamilə formal səciyyə daşıyır. Sərbəst şeirdə qafiyə ardıcıl şəkildə deyil, bir neçə misradan sonra, hətta qafiyə sərbəst şeirdə ardıcıl şəkildə də işlənə bilər. Sərbəst şeirdə bənddəki misralar, həmçinin hecaların sayı müxtəlif olur. Həqiqətdə də, standart vəzn, bölgü, qafiyə, bənd və s. tələblərdən müəyyən qədər kənara çıxan sərbəst şeirdə digər şeir vəznlərində tələb olunan texniki şərtlərə tam şəkildə riayət edilməməsi özünü göstərməkdədir. Misraların uzunluqlarının fərqli olması, hecaların sayı və qafiyələrin düzülüşündə sərbəstlik, ahəng tarazlığı vurğu və sözlərin tələffüz tərzi olan intonasiya ilə düzəlməsi, yəni sərbəst şeirdə ahəngdarlıq gözlənilir. Sətrin ortası və sonunda səpələnməsinə yol verilən sərbəst şeirdə misradakı vurğular sərbəst bir şəkildə verilir. Qeyd etməliyik ki, başqa-başqa misralarda vurğuların sayı müxtəlif olur. Sabir Rüstəmxanlı sərbəst şeir formasının parlaq nümunələrini yaratmağa nail olmuşdur.

# V FƏSİL

## SABİR RÜSTƏMXANLININ DRAM YARADICILIĞI

### V. 1 Sabir Rüstəmxanlının dram əsərlərinin problematikası, təsvir üslubları və dil xüsusiyyətləri

Azərbaycan dramaturgiyasının bir yerdə dayanmadığı göz önündədir. Dramaturgiyada yeniləşməyə cəhdlər özünü büruzə verməkdədir. Bu da müəlliflərin yaradıcılığında özünü göstərməkdədir. Ümumi götürdükdə isə, dramaturgiya tədqiqatçılar tərəfindən maraq dairəsində olmaqdadır. Dramaturq V. Volkenşteyn hadisəni hərəkətdə, tamaşaçının gözü önündə göstərən dram haqqında qeyd etmişdir ki, "dram, dramatik əsər bədii ədəbiyyatın növüdür və o hərəkətin, daha dəqiq konfliktlərin təsviridir." Ədəbi əsər olan dram əsərlərində dəyişkən, dinamik həyat tempini əks etdirən hadisədə duyulan xarakter özəlliklərinin açıqlanması əsas amildir. Bu amillər özünü Sabir Rüstəmxanlının pyes və ssenarilərinin mövzusunda göstərə bilmişdir. Sabir Rüstəmxanlının pyeslərinin, bədii, sənədli və cizgi filmlərinin ssenarilərinin mövzu və problemləri müxtəlifliyi ilə diqqəti cəlb edir. Sabir Rüstəmxanlının sənədli filmlərinin ssenariləri neft daşları haqqında, məktəb, təhsilin inkişaf mərhələləri, qəlbi yenilik eşqi ilə döyünən əmək adamlarının şərəfli əmək yolu, müharibə və onun fəsadlarına etiraz, sülhə səsləyiş və s. kimi müxtəlif mövzuları əks etdirir. Məsələn, "Qayıdış" sənədli filmin ssenarisində Lahıc və Şamaxının kəndlərinin cavan nəsil tərəfindən tərk edilərək şəhərlərə yaşamağa getmələri, bunun ağır səbəbi kimi kəndlərin tədricən boşalması problemi urbanizasiyanın

ağır nəticələrini əks etdirən problem kimi qabardılmışdır. Kəndlərdə qalıb yaşayanların təsvir edilməsi və faktının vurğulanması kəndlərdəki həyatın davam edəcəyinə işarədir.

Qeyd etməliyik ki, böyüklər üçün bir hissəli "Daş" adlı multiplikasiya filminin ədəbi ssenarisi Sabir Rüstəmxanlı tərəfindən qələmə alınmış olsa belə, ssenarinin əsasını Əli Kərimin "Daş" şeirinin ideya və motivləri təşkil edir. Yarıçılpaq, vəhşi insanın dostuna dağıdıcı qüvvə rəmzi olan daş atması, daha sonralar bəşəriyyətin narahatçılığına çevrilən soyuq silaha çevrilməsi əksini tapır. Belə ki, daşın müxtəlif dövrlərdə görkəmini dəyişərək Yer planetində yaşayan insanlara, həmçinin bütün kainata dərd-bəla gətirməsi pislənilir. Böyüklər üçün nəzərdə tutulan və rejissorlar Hafiz Əkbərov və Əsgər Məmmədov tərəfindən 1977-ci ildə çəkilmiş bu film soyuq müharibələrə etiraz, sülh uğrunda həmrəyliyə dəvət edir.

Sabir Rüstəmxanlının bədii və sənədli film ssenariləri sovet və postsovet kimi iki dövrü əhatə etməsi ilə diqqəti cəlb edir. Məsələn, iki hissəli sənədli televiziya filminin ssenarisi olan "Qayıdış" Sabir Rüstəmxanlının postsovet yaradıcılığına aid sənədli ssenarilərə daxildir. Postsovet məkanında baş verən ictimai - siyasi hadisələrə, təbəddülatlara ziyalı kimi Sabir Rüstəmxanlı bədii və sənədli film ssenarilərində aydınlıq gətirməyə nail ola bilmişdir. Sənədli filmin ssenarisində müəllif girişdə qayıdış adına aydınlıq gətirmişdir: "İki hissə bir-birini tamamlamalıdır. Birinci hissədə dağıdılmış, boşalmış yurdların faciəsi göstəriləndən sonra ikinci hissədə dağ kəndlərinin ikinci həyatı, dağlara qayıdan adamların güzəranı, sevinci və rahatlığı, dağ təsərrüfatlarının imkanları canlandırılmalıdır..."

Sabir Rüstəmxanlının sovet dövründə qələmə almış olduğu sənədli filmlərin ssenariləri dövrünün aktual mövzularını əhatə etmişdir. Məsələn, ədibin ssenarisi əsasında, 1987-ci ildə çəkilmiş "Uçuş xətti" qısametrajlı sənədli filmi Yuri Qaqarin adına Mərkəzi Pionerlər sarayının fəaliyyətindən bəhs edir.

Sabir Rüstəmxanlının postsovet sənədli film ssenarilərinə "Azərbaycana namus və sevgiylə" qısametrajlı sənədli televiziya

filminə yazılmış ssenari də aiddir. 2006-cı ildə rejissor Teymur Nəcəfzadə tərəfindən çəkilmiş sənədli televiziya filmi ANS televiziyasının 15 illik fəaliyyətini əks etdirir.

Maraqlı məqam da postsovet dövründə Sabir Rüstəmxanlının "Babadağ" qısametrajlı sənədli televiziya filminin problematikası Sovet İmperiyası vaxtı qadağan olunmuş ziyarətgahların təbliğini əks etdirir. Böyük Qafqaz dağlarının ən hündür zirvələrindən biri olan Babadağ zirvəsi, həmçinin də Babadağ ziyarətgahı haqqında məlumatın verilməsi qadağan olunmuş ziyarətgahı xalqa tanıdır.

Sabir Rüstəmxanlının "Uzaq əsrlərin həqiqəti", "Nuhun vertalyotu" kimi dram əsərlərinin mövzu və problematikası özünəməxsusluğu ilə fərqlənirlər. Belə ki, "Uzaq əsrlərin həqiqəti" pyesində keçmiş və indiki zaman anlamı, tarixi fakt bədii gerçəklikdə yeni məzmun qazanaraq davam və inkişaf etdirilir.

Müəllifin avtoportret ssenariləri ədəbiyyatımız və mədəniyyətimizin inkişafında əvəzsiz xidmətləri olmuş şəxslərin, yəni "Firudun Şuşinski", "Nəriman Həsənzadə", "Çingiz Əlioğlu", "Nüsrət Kəsəmənli", "Xəlil Rza", "Bəxtiyar Vahabzadə" kimi tarixi şəxsiyyətlərin həyat və fəaliyyətlərini təqdim edir. Bu səbəbdən, Sabir Rüstəmxanlının avtoportret ssenarilərində bu şəxsləri formalaşdıran ictimai mühit, cəmiyyət əksini tapmış olur.

Sabir Rüstəmxanlının dram əsərlərinin mətni remarkadan, monoloq və dialoqlardan ibarətdir. Təbii ki, remarkada Sabir Rüstəmxanlı hadisənin baş verdiyi zaman və məkan haqqında, təsvir etdiyi qəhrəmanın xarici və daxili görünüşü barəsində və s. haqqında qısa və ya geniş məlumat verir. Təsvir etdiyi personajların nitqi isə monoloq və dialoqlardan ibarət olur.

Monoloq əsas personajlardan birinin dili ilə təqdim edilir, təsvir edilən personajın xarakterinin açılması ilə yanaşı əsərin ideyasının oxucu və ya tamaşaçıya çatdırılmasına yardımçı olur. Məsələn, Sabir Rüstəmxanlının "Uzaq əsrlərin həqiqəti" pyesində Zərdüşt atanın el-el, oba-oba gəzərək, xalqı üçün imdad, kö-

mək istəyini təsvir etməklə, cəmiyyətdə baş verən naqislikləri, nöqsanları qabartmağa cəhd diqqəti cəlb edir:

- Ey, Ulu Tanrı. Bu milləti birləşdirmək üçün yol göstər mənə. Yol göstər, mənə anlat, ən yaxşı həyatın özülü necə qoyulacaq? Ədalət necə qalib gələcək? Zülmkar hakimlərə xalqı sevməyi necə öyrədim? İnsanı yalanla idarə eləyənləri düz yola necə çağırım? Hara qaçım əyriliyin, namərdliyin, nadanlığın əlindən? Dözüm ver mənə..."

Sabir Rüstəmxanlı pyeslərini yalnız monoloq və dialoqlardan tərtib etməmişdir. Ədib pyeslərində lirik parçalara da yer ayırmışdır. Məsələn, Zərdüşt atanın fikirləri müəllif tərəfindən poetik dillə təqdim edilmişdir:

Yolsuz zirvə, yolsuz dərə,
Ümid olub yol bizlərə,
Allah mənə yol göstərə,
Bu dərdlərdən qaça biləm...

Sabir Rüstəmxanlının "Nuhun vertolyotu" pyesi günümüzlə səsləşən reallıqlar üzərində qurulması ilə diqqəti cəlb edir. Pyesdə Nuh peyğəmbərin, müşavir Viktor Petroviçin düşüncələri monoloq və dialoqlarla təqdim edilmişdir. Personajların daxili aləmləri ibrətamiz səhnələr vasitəsilə təqdim edilir.

"Meşəyə insan gəlir", "Talada ev" cizgi filmlərinin ssenarisi uşaqlar üçün yazılmış ssenari kimi diqqəti cəlb edir. "Meşəyə insan gəlir" cizgi filmi heyvanların düşündükləri kimi deyil, humanist, qayğıkeş insanın xoş məramlı hərəkətləri ilə sona yetir. İnsan ona xas olan xüsusiyyətini göstərə bilir, daima heyvanların, meşələrin qayğısını çəkməsi qabardılır. Ezopun təmsilinin motivləri əsasında yaradılmış "Talada ev" qısametrajlı cizgi filmi halal zəhmət, işgüzarlıq və əməksevərlik kimi yüksək amillərin açıqlanması üzərində qurulmuşdu. Başqasının əməyinin bəhrəsindən istifadə edilməsi deyil, bir parça halal çörəyin qazanılması təbliğ edilməkdədir. Sabir Rüstəmxanlının cizgi filmlərinin ssenarilərinin əxlaqi-tərbiyəvi və nəsihətli səciyyə daşıyan, epik

növün ən qədim janrlarından biri olan təmsillə sintez yaratmasını müşahidə edirik. Bəllidir ki, təmsillərdə təbiət cisimləri, heyvanlar şəxsləndirilir, bu da onların - insan kimi danışmasına səbəb olur. Ədəbiyyatşünaslıqda bu hadisə təşxis adlanır.

## V. 2 Sabir Rüstəmxanlının dram əsərlərinin obrazları

Sabir Rüstəmxanlının qələmə aldığı pyeslərində, bədii, sənədli və cizgi filmlərinin ssenarilərində obrazlar müxtəlifliyi ilə fərqlənir: canlı insanlar, insanlar kimi danışa bilən heyvanlar və s. Sabir Rüstəmxanlı onları fərdiləşdirmə və ümumiləşdirmə yolu ilə yaratmağa nail ola bilir. Onun qələmə aldığı ədəbi qəhrəman və personajlar fərdi xüsusiyyət və keyfiyyətləri və ya da başqa insanlara oxşar xüsusiyyətləri ilə diqqəti cəlb edirlər.

Ədibin iki hissəli sənədli televiziya filminin ssenarisi olan, neft daşlarının 25 illiyinə həsr olunan bir hissəli "Qayıdış" sənədli filmin ssenarisi, iki hissəli sənədli filmin ssenarisi olan "Azərbaycan məktəbi 60 ildə", "Musaküçənin sahibləri", "Nəğməli sətirlər" verilişi üçün qələmə aldığı ssenarilər, "Dənizdə şəhər", böyüklər üçün bir hissəli multiplikasiya filminin ədəbi ssenarisi olan "Daş", bir hissəli multiplikasiya filminin ssenarisi olan "Meşə gözətçisinin xəstələnməsi", "Kitabi Dədə Qorqud" dastanının motivləri əsasında diafilm ssenarisi olan "Salur Qazanın evinin yağmalanması" və s. qələmə aldığı pyeslərində, bədii və sənədli, cizgi filmlərinin ssenarilərində maraqlı obrazlarla rastlaşırıq.

1977-ci ildə çəkilmiş "1990-cı ilin adamı" sənədli televiziya filmi ilk növbədə ssenarinin adı və çəkilmə ilin tarixi ilə əks münasiblik etməsi diqqəti cəlb edir. "1990-cı ilin adamı" sənədli televiziya filminin adından göründüyü kimi, günləri qabaqlayan, bir beşillikdə iki beşillik planı yerinə yetirmiş ÜİLKGİ-nin 50 illiyi adına Mingəçevir toxuculuq kombinatının usta köməkçisi, eyni zamanda 112 dəzgaha xidmət edən Yaqub Rüstəmovun obrazı tamaşaçılara təqdim edilmişdir. Təqdim edilən qəhrəman məhz fərdi xüsusiyyət və keyfiyyətləri ilə oxuculara təqdim edil-

sə də, ümumiləşdirilmiş sovet zəhmətkeş insanın obrazını təqdim edir.

"Musaküçənin sahibləri" filminin ssenarisi də ədibin sovet dövrünə təsadüf edən yaradıcılığına aiddir. Müəllifin yolüstü lövhədə qeydi göstərməklə hadisənin harada nəql olunmasını vurğulayır: "Masallı rayonu, Musaküçə kəndi, Çapayev adına tərəvəzçilik sovxozu." "Musaküçə kəndinin sakinlər" filmində Masallı rayonundakı Musaküçə kənd Sovetinin sədri Abıyevin obrazı yaradılmışdır. Sənədli filmdə məhz Abıyevin bir ağsaqqal kimi kənd və onun sakinlərinin qayğılarına qalması, aparmış olduğu abadlıq işləri işıqlandırılmışdır.

Sabir Rüstəmxanlının müəllifi olduğu film ssenarilərindən biri özünün müəllifi olduğu "Ölüm zirvəsi" romanının motivləri əsasında qələmə alınmış və ssenari əsasında da film çəkilmişdir. Azərbaycan kinosu tarixində ilk dəfə olaraq xüsusi kompüter qrafikasından istifadə edilmişdir. Film XIX əsrin əvvəllərində öz oğulları ilə birlikdə vətən uğrunda Sisianovun başçılıq etdiyi rus qoşunlarına qarşı mübarizə aparan və mərdliklə həlak olan xanlar xanı, cəsur sərkərdə Cavad xan obrazının yaradılması ilə maraq kəsb edir. Cavad xan obrazı öz fərdi xüsusiyyətləri ilə xarakter nümunəsidir. "Ölüm zirvəsi" romanı əsasında qələmə almış olduğu "Cavadxan" kinossenarisi kino tarixinə əvəzsiz töhfədir.

Sabir Rüstəmxanlının sovet dövrü ssenarilərinə aid olan "Neft daşlarının 25 illiyi" sənədli filmi möcüzələr adası adlandırılan Neft Daşlarının yaranma tarixilə yanaşı, təqdim edildiyi tarixi anla, həmçinin, qəhrəman neftçilərin ümumiləşdirilmiş obrazının yaradılması ilə diqqəti cəlb edir. Neftçilərin əməyindən bəhs edən film onların zəhmətkeş obrazını tamaşaçıya çatdıra bilir. Beləliklə də, neftçilərin ümumiləşdirilmiş obrazı məhz neftçilərin proobrazı kimi diqqəti cəlb edir.

Qeyd edək ki, bir hissəli sənədli filmin diktor mətni olan "Dənizdə şəhər" və neft daşlarının 25 illiyinə həsr olunan bir hissəli "Qayıdış" sənədli filmin ssenarisi bir - birini tamamlayır. Hər iki mətndə Neft daşlarının 25 illik yubileyi əksini tapmışdır.

Sabir Rüstəmxanlının pyeslərindəki obrazlara nəzər saldıqda müəllif prototipini görmək mümkündür. Məsələn, müəllifin "Uzaq əsrlərin həqiqəti" pyesində Zərdüştün Ulu Tanrıya üz tutması və dediyi sözlər fikrimizdə haqlı olduğumuzu göstərir:

- ...Ey millətim, mən düzlük carçısı olduğumdan, Sizi hökmdardan qorxmamağa, düzlüyə, birliyə çağırıram. Bilin ki, milləti dörd amal millət edər: BİRLİYİ, QEYRƏTİ, QÜDRƏTİ, MƏDƏNİYYƏTİ..." "Uzaq əsrlərin həqiqəti" pyesində Zərdüştün obrazı müəllifin publisist yazılarında təbliğ etdiyi ideya ilə eynilik təşkil edir. Həmçinin, improvizasiyaya əsaslanan pyesləri, kino sənətinin və televiziyanın ifadə vasitələrinin köməyi ilə təcəssüm edilən kino, sənədli və cizgi filmlərinin ssenariləri ədibin dram yaradıcılığının janr müxtəlifliyini əks etdirir.

# NƏTİCƏ

Sabir Rüstəmxanlının qələminə məxsus əsərlərdə təbliğ etdiyi din, tarix, müasirlik, yeniləşmə, proqress, tolerantlıq, humanizm, əxlaqi-mənəvi və s. məsələlər mühüm yer tutaraq, milli şüurun formalaşmasını təmin edir. Sabir Rüstəmxanlı milli şüurun formalaşdırılması yolunda əvəzsiz xidmətləri olan Ə. Hüseynzadə, Ə. Ağaoğlu, M.Ə. Rəsulzadə kimi milli ideoloqların yolunu davam etdirməyə qadir ola bildi. Milli ədəbiyyatın inkişafı milli ideologiyanın formalaşmasına təsirsiz ötüşmür. Hər hansı bir millətin həmrəyliyi, milli birliyinin tərəqqisi, xalqın vahidliyi vahid baxışlar sisteminə əsaslanan ideologiyaya əsaslanır. Milli ədəbiyyat millətin birliyini, maraqlarının prioritetlərini ehtiva edən ideya və dəyərləri təbliğ etmə baxımdan aktuallıq kəsb edir. Sabir Rüstəmxanlı qələmə aldığı əsərlərdə yalnız siyasi amilləri qabartmamış, mənəvi bağlılığı, etnik steorotipləri və mifogemləri özündə birləşdirən tarixi yaddaş amilinə nəzər salmışdır. Bu əsərlərdə insanın milli, etnik və dini mənsubiyyəti təbliğ edilmişdir. Sabir Rüstəmxanlının əsərləri dövrün ictimai-siyasi hadisələrini və meydana çıxardığı idealları təsvir və ya tərənnüm edərək, ədəbi prosesdən kənarda qalmamışdır. Sabir Rüstəmxanlının əsərləri ictimai fikri ümummilli ideallar uğrunda mübarizəyə səsləyişi ilə fərqlənmişdir. Müəllifin qələmə aldığı əsərlərin növ və janrları, problematikası, yaratdığı obrazlar qalereyası, istifadə etdiyi bədii ifadə və təsvir vasitələri və s. ədəbiyyatın yeniləşməsinə, tərəqqisinə və zənginliyinə təkan vermişdir.

Sabir Rüstəmxanlı Azərbaycan ədəbiyyatının janr sisteminin inkişafına bir ədib kimi maraq göstərmiş və yeni janr eksperimentlərini həyata keçirməsinə nail ola bilmişdir. Məsələn, müəllifin qələmə aldığı "Göy Tanrı", "Şair və şər", "Akademikin son əsəri", "Sunami" və s. romanları janr qarışıqlığını əks etdirən kamil nəsr nümunələridir. Janr sisteminin inkişafı baxımından, ədibin nəşr edilmiş romanları, hekayələri, povestləri, ki-

no, sənədli və cizgi filmlərinin ssenariləri, pyesləri, publisist yazıları maraq kəsb edir. Publisistikasında bədii və sənədli janrların qarışıqlığı geniş yayılmışdır. Məsələn, "Xətai yurdu" əsərinin janr strukturu bu baxımdan maraq kəsb edir: bədii və publisistik janrın qarışığı nəticəsində formalaşmış roman-oçerk nümunəsi.

Sabir Rüstəmxanlı qələmə aldığı əsərləriylə Azərbaycan ədəbiyyatının zəngin olmasını təsdiqləməyə nail oldu. Sabir Rüstəmxanlının qələmə aldığı əsərlərin janrlarının müxtəlif və mövzu baxımdan rəngarəng, dolğun olması ədibin söz xiridarı olmasını təsdiq edir.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT:


1. Anar. Xalq və tarix qarşısında cavabdehlik // "Yazıçı". "Oğuz eli" qəzetinin ayrıca buraxılışı. Sentyabr, 2012;
2. Aydın Dadaşov. Ekran publisistikası. Bakı: BDU nəşri, 1999;
3. Bəxtiyar Vahabzadə: biblioqrafiya /Azərbaycanın görkəmli şəxsiyyətləri /tərt. ed.: M.Vəliyeva, Əsədova; ixt. red. və burax. məsul K. Tahirov; red. G. Səfərəliyeva; M.F. Axundov adına Azərbaycan Milli Kitabxanası.- Bakı, 2015.- 592 s.;
4. Elnarə Akimova. Çağdaş Azərbaycan şeiri içrə gəzişmələr // "Azərbaycan".- 2012- № 11;
5. Hidayət. "Yazıçı". "Oğuz eli" qəzetinin ayrıca buraxılışı. Sentyabr, 2012;
6. http://simsar.az/news/a-49379.html;
7. https://azadinform.az/az/baxis-bucai/123670/sabir-rustemxanli-akademik-ramiz-mehdiyevin-kitabi-haqda-yazir/;
8. https://www.artkaspi.az/az/bir-misrami-picildasan-sabir-rustemxanlinin-seirleri/" \l ".XhoIjFczbIU
9. Xəlil Rza Ulutürk. Ön söz // Sabir Rüstəmxanlı. Seçilmiş əsərləri. "Şərq-Qərb", Bakı, 2004, 344 səh.;
10. İsa Həbibbəyli. Xalq şairi Sabir Rüstəmxanlı. Müstəqillik dövrü azərbaycan ədəbiyyatı. 2 cilddə. I cild. Bakı, 2016;
11. İsa Həbibbəyli. S. Rüstəmxanlı: Ömür və sənət yolu. Bakı: Qanun, 1996, 24 s.;
12. Mirəli Seyidov. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı, 2018. 444 səh;
13. Nərgiz Cabbarlı. Roman janrı - yeni texnologiyalar, yeni poetik xüsusiyyətlər // http://edebiyyatqazeti.az/news/edebi-tenqid/1915-nergiz-cabbarli;

14. Rahid Ulusel. Sabir Rüstəmxanlı: Sözün dağ paytaxtı. Bakı, QANUN nəşriyyatı, 2017. 80 səh.;

15. Sabir Rüstəmxanlı. "Milli taleyimiz və biz" (Güntay Gəncalp Bayandırlı və Saleh Məhmətlə məktublaşmaların). Bakı, 2018. 236 səh.;

16. Sabir Rüstəmxanlı. Akademikin son əsəri. Bakı, "Sabir Yazarlar Ocağı"nın nəşri, 2017, 320 səh.;

17. Sabir Rüstəmxanlı. Astar. Bakı, QANUN nəşriyyatı, 408 səh.;

18. Sabir Rüstəmxanlı. Ayətulla Seyid Əli Xameneyiyə açıq məktub. Bakı, 2008;

19. Sabir Rüstəmxanlı. Dərdə əyilmə. Bakı, Qanun Nəşriyyatı, 2013, 672 səh.;

20. Sabir Rüstəmxanlı. Xalqın söz silahı.Bakı, 2019. 248 səh.;

21. Sabir Rüstəmxanlı. Qadın ruhunun üsyanı... // https://qafqazinfo.az/news/detail/qadin-ruhunun-usyani-sabir-rustemxanli-ayselden-yazdi-159659;

22. Sabir Rüstəmxanlı. Qayıdıram Araz boyu // "Azərbaycan" jurnalı, 1988, №2;

23. Sabir Rüstəmxanlı. Nüsrət Kəsəmənlinin özü və sözü //https://www.xeberaz.az/karisel/26532-nusret-kesemenlinin-ozu-ve-sozu-sabr-rustemxanl-yazr.html;

24. Sabir Rüstəmxanlı. Ömür kitabı. Göy Tanrı. Bakı, "Şərq -Qərb", 2008.632 səh.;

25. Sabir Rüstəmxanlı. Seçilmiş əsərləri. Bakı "Şərq-Qərb, 2004, 344 səh.;

26. Sabir Rüstəmxanlı. Zaman məndən keçir. Bakı, Azərnəşr, 1995, 592 s.;

27. Salidə Şərifova. Azərbaycan bədii janr ənənələrinin Sabir Rüstəmxanlı yaradıcılığında yenidən bərpası // Ədalət - gündəlik hüquq qəzeti 24 dekabr 2018-ci il. səh.5 // 525-ci qəzet. 8 yanvar, 2019-cu il, № 03 (5214). səh. 6//http://www.adalet.az/w161829/details/#.XCvh7o9OJ Yc//http://www.avanqard.net/index.php?action=static_detail

&static_id=59014 // https://www.bakupost.az/azerbaycan-bedii-janr-enenelerinin-sabir-rustemxanli-yaradiciliinda-berpasi/#.XPnlLo9OJYc//https://525.az/site/?name=xeber&news_id=113080#gsc.tab=0;

28. Salidə Şərifova. Ən ulu, ən uca Türk tanrısı (Sabir Rüstəmxanlının "Göy Tanrı" romanının ideoloji mahiyyəti, süjet xətti, əsas obrazları və dil üslubunun xüsusiyyətləri // Salidə Şərifova. Ədəbi prosesə nəzəri baxış (2006-2007-ci illərin tənqidi məqalələri). II kitab. səh.127-142 // "Vətəndaş həmrəyliyi" ictimai - siyasi qəzet. 05-08 noyabr 2006. səh.13; 08-12 noyabr 2006; 12-15 noyabr 2006; 15-19 noyabr 2006. səh.13 // 28 may Respublika gününə həsr olunmuş "Azərbaycanın gələcəyi gənc alimlərin gözü ilə" mövzusunda elmi-praktik konfransın materialları. Bakı, 2007. səh. 112-126;

29. Salidə Şərifova. Sabir Rüstəmxanlı poeziyasının bədii xüsusiyyətlərinə bir nəzər // Şərifova Salidə. Klassiklər və müasirlər söz müstəvisində. Bakı, "Elm və təhsil", 2018. 568 səh. səh. 515-527 // 525-ci qəzet. 25 may 2016-cı il, № 93 (4589). səh.4;

30. Salidə Şərifova. Sabir Rüstəmxanlı: Göy Tanrı // Jahrbuch Aserbaidschan forschung 2007. Beiträge aus Politik, Wirtschaft, Geschichte und Literatur. Berlin, 2007. p. 257-262;

31. T.Ə. Əfəndiyeva. Azərbaycan dilini leksik üslubiyyatı. Bakı: Elm, 1980, 250 s.;

32. Tehran Əlişanoğlu. Ədəbi proses 2015 // Tarixi janrın həqiqətləri (2015-ci ilin tarixi romanları). Bakı, 2016. 406 səh.;

33. Tehran Əlişanoğlu. Sabir Rüstəmxanlının Sunamisi // https://kulis.az/news/20614;

34. Tənzilə Rüstəmxanlı. Sabir Rüstəmxanlı yaradıcılığında Cənub mövzusu // Elmi əsərlər, 2019, № 1 (8), yanvar-iyun;

35. Vaqif Yusifli. Seçilən şair – Sabir Rüstəmxanlı // https://artkaspi.az/az/secilen-sair-sabir-rustemxanli-vaqif-yusifli-yazir/#.Xa78yY9OLIU;

36. А.Г. Бочаров. Существует такое качество – публицистичность//Вопросы литературы. –1958. – №10;

37. П.В. Палиевский. Роль документа в организации художественного целого / П.В. Палиевский // Проблемы художественной формы социалистического реализма. В 2 т. – М.,1971. – Т. 1.

# SALİDƏ ŞƏRİFOVA

# SABİR RÜSTƏMXANLI YARADICILIĞININ JANR MÜXTƏLİFLİYİ

***«Elm və təhsil»*** **nəşriyyatının direktoru:**

***professor*** **Nadir MƏMMƏDLİ**

**Üz qabığının dizayneri: Kamran İbrahimov**
**Tekniki redaktor: Rövşanə Nizamiqızı**

Çapa imzalanmış **12. 01. 2021.**
**Şərti çap vərəqi 7,2. Sifariş № 32**
Kağız formatı **60x84 1/16**. Tiraj **1000**

*Kitab* ***«Elm və təhsil»*** *nəşriyyat-poliqrafiya müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.*
***E-mail: nurlan1959@gmail.com***
*Tel: 497-16-32; 050-311-41-89*
*Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.*